RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 92 (8408) ÇƏRŞƏNBƏ, 13 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Dərin ehtiramla




**Mayın 10-da, xalqımızın xilaskar oğlu Heydər Əliyevin doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarı önünə gül qoydular, Ulu Öndərin xatirəsini ehtiramla andılar.

Sonra dövlət başçısı və xanımı Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Prezident və birinci xanım görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzdülər.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu böyük insan öz əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Ulu Öndər Azərbaycanı dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib. “Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub”, - deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb.

*Ardı 2-ci səh.*

## Strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələlər müzakirə edilib



**Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.**

Prezident İlham Əliyev Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə Rusiya Prezidentini və dost Rusiya xalqını təbrik edib.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib, öz növbəsində, bayram münasibətilə Azərbaycan Prezidentinə və dost Azərbaycan xalqına təbriklərini çatdırıb.

Dövlət başçıları koronavirusla mübarizə istiqamətində görülən işlər və ölkələrimizin bu sahədə əməkdaşlığı barədə fikir mübadiləsi aparıblar.

Telefon söhbəti zamanı Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələlər müzakirə edilib.

*Prezidentin Mətbuat xidməti*

## Prezidentin tapşırığına əsasən ekoloji mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr reallaşdırılır



**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə Bakının Suraxanı rayonundakı keçmiş yod-brom zavodunun ərazisində ağac əkiblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısının tapşırığına əsasən, 2018-ci ildən başlayaraq bu ərazidə 167 hektar sahənin lay suları, neft, duz, yod və digər tullantılardan təmizlənərək bərpa edilməsinə başlanılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına, mövcud yaşıllıqların sahəsinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərilir.

*Ardı 2-ci səh.*

## Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib



**Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 75 il keçir. AZƏRTAC xəbər verir ki, bu münasibətlə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.**

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

*Ardı 2-ci səh.*

## Mehriban ƏLİYEVA: “Bu gün Heydər Əliyev aramızda olmasa da, onun xatirəsi qəlbimizdə həmişə yaşayacaq”



**Birinci vitse-prezident Mehriban Əliyeva xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə rəsmi “Instagram” səhifəsində paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Bu gün Heydər Əliyevin anadan olmasının 97-ci ildönümüdür. Dünya siyasətçiləri üçün o, müdrik və uzaqgörən siyasi və dövlət xadimi, xalqımız üçün - Azərbaycanın inkişafında misilsiz xidmətlər göstərmiş dahi lider, doğma və yaxınları üçün - qayğıkeş, mehriban, səmimi, sevimli İnsan - dost, ata və baba idi. Bu gün Heydər Əliyev aramızda olmasa da, onun xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır”.

## Mehriban ƏLİYEVA: “Ölkəmiz tarixi qələbəyə mühüm töhfələr verib və bu, hər bir azərbaycanlıya daim qürur və fərəh hissi yaşadıb”

**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində 9 May - Faşizm üzərində Qələbə Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

“Əziz veteranlar!

9 May - Faşizm üzərində Qələbə Günü münasibətilə sizə və sizin simanızda bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi yetirirəm.

Bu bayram həm sizin üçün, həm də ümumiyyətlə xalqımız üçün həmişə xüsusi əhəmiyyətə malik olub. Ölkəmiz tarixi qələbəyə mühüm töhfələr verib və bu, hər bir azərbaycanlıya daim qürur və fərəh hissi yaşadıb. Bu il sizin bu günü xüsusi səbirsizliklə gözlədiyinizi bilirəm. Çünki bu il Böyük Qələbənin 75 illiyi qeyd olunur. Həm Prezidentimiz, həm də mən 9 Mayda həmişə sizinlə görüşmüşük, bu əlamətdar tarixi sizinlə birgə qeyd etmişik. Təəssüf ki, bu il bütün dünyanı sarsıtmış koronavirus pandemiyası ilə bağlı ölkəmizdə tətbiq olunan karantin rejiminə görə sizinlə görüşə bilmirik.

Sizin mərdliyiniz, cəsarətiniz, şücaətiniz əsl vətənpərvərlik nümunəsidir. Biz sizi çox sevirik, sizinlə fəxr edirik! Böyük Qələbə Gününüz mübarək!”

## Azərbaycan dövləti əhalinin sağlamlığının qorunmasına yüksək həssaslıqla yanaşır




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 12-də Sumqayıtda “Gilan Tekstil Park” Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, “Gilan Tekstil Park” Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Mehriban Axundova dövlət başçısına və birinci xanıma müəssisələrin fəaliyyəti barədə məlumat verdi.

*Ardı 3-cü səh.*

## Azərbaycan Prezidenti İlham ƏLİYEV: “9 May - bizim ümumi Böyük Qələbə günümüzdür”

### Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir




**Rusiyanın nüfuzlu “Natsionalnaya oborona” (“Milli müdafiə”) jurnalının may buraxılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi dərc olunub.**

Qeyd edək ki, bu jurnal Rusiyada və beynəlxalq səviyyədə rəsmi dövlət qurumları, diplomatlar, siyasi, hərbi ekspertlər, tədqiqatçılar və digər mütəxəssislərdən ibarət geniş auditoriyaya malikdir. Müəllifi İqor Korotçenko olan müsahibəni AZƏRTAC təqdim edir.

*Ardı 5-ci səh.*

▪ *Özünü, doğmalarını və dostlarını qorumaq:*
▪ *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Dərin ehtiramla



*Əvvəli 1-ci səh.*

Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, o, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşib.

Dahi Heydər Əliyev ona görə Ümummilli Liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. "Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir", - deyən Ulu Öndər Heydər Əliyev bu fikri dəfələrlə öz əməllərində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrün əsas məzmunu isə azərbaycançılıqdır.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

# Prezidentin tapşırığına əsasən ekoloji mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr reallaşdırılır







*Əvvəli 1-ci səh.*

Ölkəmizdə bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllığı az olan ərazilərin, o cümlədən də Bakının və Abşeron yarımadasının təbii landşaftının yaşıllıq zolaqları, meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verib. Hazırda ölkəmizdə həyata keçirilən dövlət siyasətində ekoloji məsələlərin həllinə xüsusi diqqət göstərilir, ekoloji mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr reallaşdırılır.

Azərbaycanda ekoloji durumun yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verib. Birinci xanımın təşəbbüsü ilə 2019-cu ildə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi, ümumilikdə, Azərbaycanın ekoloji durumuna çox müsbət təsir göstərməklə, yaşıllıq zolaqlarının miqyasının artmasına səbəb olub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanan layihələr də əhəmiyyəti ilə seçilir.



Neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələsinə dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır. İndiyədək bu istiqamətdə çox uğurlu layihələr reallaşdırılıb. Abşeron yarımadasında ekoloji mühitin sağlamlaşdırılması istiqamətində həyata keçirilən layihələrdən biri də təhlükəli tullantılarla çirkləndirilmiş keçmiş yod-brom zavodunun Suraxanı rayonu ərazisindəki tullantı poliqonu idi. Bu ərazi əvvəllər ekoloji normalara və tələblərə uyğun gəlmirdi. Görülən işlər nəticəsində hazırda ərazinin ekoloji durumu normalara tam uyğunlaşdırılıb.

Burada icra olunan layihənin birinci mərhələsində - 2018-2019-cu illər ərzində 67 hektar ərazi yod-brom və digər neft tullantılarından təmizlənib, drenaj və suvarma sistemləri qurulub, əraziyə 52 mindən çox müxtəlif növ ağac-kol tingləri əkilməklə geniş meşə-park salınıb. Hazırda həmin ərazinin qalan 100 hektarlıq sahəsində layihənin ikinci mərhələsinin icrası prosesi davam etdirilir. 2020-ci il ərzində təmizlənmiş ərazilərdə Abşeronun iqliminə uyğunlaşdırılmış Eldar şamı, Avropa zeytunu, Həmişəyaşıl sərv, Arizona sərvi və digər həmişəyaşıl ağac kol növlərinə aid, ümumilikdə, 82 min tingin əkilməsi planlaşdırılır. Layihənin icrası Heydər Əliyev Beynəlxalq Aeroportundan Bakı şəhəri istiqamətində, Zığ şosesi boyu hər iki istiqamət yaşıllıq zolağı olacaq.

# Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib

*Əvvəli 1-ci səh.*

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu qələbədə Azərbaycan nefti həlledici əhəmiyyət kəsb edib. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub.

Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Amma 1992-ci ildə Xalq Cəbhəsi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May bayramını ləğv etmişdi və veteranlar mənəvi terrora məruz qalmışdılar. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi, onları "xalqımızın qızıl fondu" adlandırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir.

Böyük Vətən müharibəsi bizim şanlı tariximizdir. O dəhşətli müharibədə misilsiz şücaətlər göstərən qəhrəman oğul və qızlarımız bu gün də hörmətlə xatırlanır və 75 il keçsə də, onların qazandığı tarixi Qələbə öz əhəmiyyətini itirmir.



## A.M.Şirinovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aqil Muxtar oğlu Şirinov Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2020-ci il*

## Z.İ.Sultanovun Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zakir İmran oğlu Sultanov Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 may 2020-ci il*

## R.Y.Bayramovun Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rafiq Yasin oğlu Bayramov Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 may 2020-ci il*

# Azərbaycan dövləti əhalinin sağlamlığının qorunmasına yüksək həssaslıqla yanaşır






*Əvvəli 1-ci səh.*

Bildirildi ki, tibbi maska fabrikində birdəfəlik istifadə üçün maskalar istehsal olunacaq. Maskalar üçqatdır və orta qatı xüsusi süzgəc funksiyasını yerinə yetirən toxunmamış parçadan ibarətdir. Bu maskalar müxtəlif kateqoriyalı virus və infeksiyalara qarşı davamlıdır. İlk mərhələdə fabrikdə gün ərzində 140 min ədəd maska istehsalı nəzərdə tutulur. May ayının sonunadək burada əlavə avadanlıq quraşdırılacaq. Bu isə öz növbəsində istehsal gücünü artırmağa imkan verəcək. Beləliklə, fabrikdə mərhələli şəkildə bu göstərici 300 min ədədədək artırılacaq. Hazırda istehsalat prosesinə cəlb olunmuş işçilərin sayı 30 nəfərdir, əlavə avadanlıq quraşdırıldıqdan sonra isə 50 nəfərə çatacaq.

"Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətində birdəfəlik istifadə üçün qoruyucu kombinezonların da istehsalına başlanılıb. Məhsullar polietilen qoruyucu membranla örtülüb, yüksək sıxlıqlı polipropilendən olan toxunmamış parçadan tikilir. Bu isə öz növbəsində məhsulun keyfiyyətini artırır. Belə ki, bu parça möhkəmliyi, sukeçirməzliyi, kimyəvi maddələrə davamlılığı, yüngüllüyü ilə fərqlənir. İstehsal olunan qoruyucu kombinezonlar istifadəçiləri virus, infeksiya, zərərli kimyəvi maddələrdən və ya həssaslıq yarada bilən məhsul və proseslərdən qoruyur. Məhsulun uyğunluğu müvafiq standartlar üzrə sertifikatlaşdırılıb. Burada gün ərzində 6 min ədəd qoruyucu kombinezonun istehsalı nəzərdə tutulur. Müəssisənin istifadəyə verilməsi yeni iş yerlərinin açılması baxımından da böyük əhəmiyyət daşıyır. Belə ki, buradakı istehsalat prosesinə 210 işçi cəlb olunub. Yerli tələbat ödənildikdən sonra həm tibbi maskaların, həm də qoruyucu kombinezonların ixracı da nəzərdə tutulur. Beləliklə, bu cür müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın ixrac potensialının artırılmasına xidmət etməklə bərabər, qeyri-neft sektorunun inkişafı baxımından da böyük rol oynayır.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müəssisələrin bir qrup işçisi ilə görüşdülər.

Dövlət başçısı görüşdə çıxış etdi.





# Prezident İlham Əliyevin çıxışı





- Koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanda tibbi sənayenin inkişafı daha aktual mövzuya çevrilibdir. Bildiyiniz kimi, bu sahə Azərbaycanda az inkişaf edib, bir çox hallarda biz idxaldan asılı idik və bu gün də bu, davam edir. Ancaq koronavirus pandemiyası hər bir ölkə üçün gözlənilməz bir bəla oldu və bütün ölkələr, ilk növbədə, öz daxili resurslarını səfərbər etməyə çalışmış və pandemiyaya qarşı mübarizə üçün lazım olan tədbirləri görməyə başlamışdır, o cümlədən Azərbaycan. Deyə bilərəm ki, Azərbaycan ilk qabaqlayıcı addımlar atan ölkələrdəndir. Məhz bu addımlar nəticəsində biz bu günə qədər vəziyyəti tam nəzarətdə saxlayırıq və yoluxanların sayı kifayət qədər azdır. Əlbəttə ki, indiki şəraitdə karantin rejiminin təmin edilməsi, gözlənilməsi pandemiyaya qarşı mübarizə işində əsas məqsədlərdən biridir. Hesab edirəm, bu müddət ərzində hər bir ölkə gördü ki, çətin vəziyyətdə, çətin şəraitdə bəzi ölkələr özlərinə qapanır, bəzi ölkələr ancaq öz daxili bazarlarını təmin etmək üçün çalışır. Əlbəttə, müəyyən çətinliklər də yarandı, xüsusilə tibbi ləvazimatların, tibbi avadanlıqların alınması və ölkəmizə gətirilməsi üçün. Bir daha gördük ki, tibbi sənayenin inkişafı böyük əhəmiyyət daşıyır. Son müddət ərzində bu istiqamətdə müəyyən addımlar atılmışdır, Pirallahı adasında iki müəssisə fəaliyyətə başlamışdır, biri dərman preparatları müəssisəsi, digəri isə tibbi şprislərin istehsalı.

Tibbi maska istehsalı Azərbaycanda ümumiyyətlə yox idi, nəzərdə də tutulmurdu. Çox sevindirici haldır ki, özəl sektor böyük sosial təşəbbüs göstərərək, dövlətin çağırışına cavab verərək qısa müddət ərzində bizim üçün lazım olan - həm həkimlər, həm də adi vətəndaşlar üçün lazım olan bu vasitələri istehsal etməyə başlamışdır. Bu gün bu müəssisədə fəaliyyətə başlamış tibbi maska fabriki ölkəmizdə ikinci istehsalat sahəsidir. Birinci müəssisə də Sumqayıt şəhərində yerləşir, Sumqayıt Kimya Sənaye Parkının ərazisində. Əlbəttə ki, əgər bizim inkişaf etmiş müasir sənaye potensialımız olmasaydı, bu istehsalat sahələrini yaratmaq mümkün olmazdı. Məhz sənayeləşmə siyasəti nəticəsində və xüsusilə Sumqayıt şəhərində yeni müasir sənaye müəssisələrinin fəaliyyətə başlaması nəticəsində qısa müddət ərzində fabriklər öz profilini dəyişdirərək, artıq tibbi maskaları və qoruyucu kombinezonları istehsal etməyə başlamışdır.

Mən 7 il bundan əvvəl bu müəssisənin açılışında olmuşam və şadam ki, bu müddət ərzində bu müəssisə uğurla fəaliyyət göstərib. Bu müəssisənin məhsulları həm daxili bazarda tanınır və eyni zamanda, ixrac potensialı da mövcuddur. Bu, onu göstərir ki, müəssisədə istehsal olunan mallar yüksək keyfiyyətə malikdir. Bu gün mənə verilən məlumata görə, kombinezon istehsalı gündə 6 min ədədə çatdırılacaq və həkimlərimizin qorunması üçün bunun xüsusi əhəmiyyəti var. Biz bu günə qədər qoruyucu kombinezonları xaricdən alırıq. Problem onda deyil ki, biz buna vəsait ayırırıq, valyuta xərcləyirik, məsələ ondadır ki, koronavirus pandemiyası dövründə lazım olan vasitələrin alınması problemə çevrilir. Hətta pul olan zamanda bu vasitələrin, avadanlığın gətirilməsi böyük problemdir və biz bu problemlə üzləşmişik. Buna baxmayaraq, biz bütün imkanları səfərbər edib ölkəmiz üçün lazım olan vasitələri gətizdiririk.

Ona görə hesab edirəm ki, bu gün çox əlamətdar gündür. Çünki həm birinci, həm də bu gün burada fəaliyyətə başlayan ikinci tibbi maska istehsalı müəssisəsi bizim daxili tələbatımızı tam ödəməlidir və qoruyucu kombinezonlar da həmçinin. Sənaye potensialının inkişafı, əlbəttə, imkan verdi ki, biz buna nail olaq.

Bütövlükdə bu gün Sumqayıtın inkişafı böyük dərəcədə şəhərin sənaye potensialı ilə bağlıdır. Mənə verilən məlumata görə, "Gilan Tekstil Park"da işləyənlərin 95 faizi Sumqayıt şəhərinin sakinləridir. Son illərdə Sumqayıtda onlarla yeni müəssisə yaradılıbdır və mən bu müəssisələrin açılışlarında iştirak etmişəm. Onların arasında xüsusilə iki nəhəng, flaqman müəssisəni qeyd etmək istərdim - azot gübrələri zavodu və polimer zavodu. Bu zavodların tikintisinə dövlət çox böyük vəsait xərcləyib. Ancaq digər zavodların fəaliyyəti sırf özəl sektor tərəfindən təşkil edilib, əlbəttə, dövlətin dəstəyilə, dövlət ərazi ayırır. Bildiyiniz kimi, Sumqayıtda iki sənaye parkı fəaliyyət göstərir - Sumqayıt Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı. Sumqayıt Kimya Sənaye Parkının ərazisi 10 hektarlarla ölçülür. Tamamilə təmizlənmiş bu ərazidə yeni infrastruktur layihələri icra edilib. Özəl sektor da artıq bu parkda uğurla fəaliyyət göstərir, hər il burada bir neçə müəssisə açılır. Beləliklə, Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda Cənubi Qafqazın ikinci böyük sənaye şəhərinə çevrilib. Sovet dövründən fərqli olaraq, bu gün burada fəaliyyət göstərən sənaye müəssisələri bütün ekoloji standartlara cavab verir.

Siz gəncsiniz, siz o illəri xatırlamırsınız. Ancaq sovet dövründə Sumqayıtın yanından keçərkən maşında oturanlar pəncərələri bağlayırdılar, çünki o iydən insanların gözü yaşarırdı. Yəni Sumqayıt doğrudan da böyük bir ekoloji bəla mərkəzi idi. Çünki kimya sənayesinin sürətli inkişafı və bir çox hallarda ekoloji standartlara riayət edilməməsi nəticəsində Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi və burada bir neçə növ xəstəliklər geniş vüsət almışdı. Biz isə Sumqayıtı müasir, təmiz sənaye mərkəzinə çevirdik. Bu gün Sumqayıtın havası Bakının havasından daha təmizdir. Sumqayıtda aparılan yaşıllaşdırma işləri, yeni parkların salınması, ekoloji tədbirlərin görülməsi, uzun illər sumqayıtlıları narahat edən Acıdərə kanalının tamamilə təmizlənməsi və yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Ona görə bir sənaye şəhəri kimi Sumqayıtın siması tamamilə dəyişib və bu gün ən yüksək standartlara cavab verir. Bununla yanaşı, əlbəttə, digər başqa layihələr də icra edilmişdir. Sosial layihələr - köçkünlər üçün artıq bir neçə ildir ki, böyük şəhərciklər salınır. Mən bu yaxınlarda növbəti şəhərciyin tikintisi ilə tanış olmuşam. Abadlıq işləri aparılır, Sumqayıt bulvarı da nəhayət ki, fəaliyyətə başlayıb. Bu, mənim çoxdankı arzum idi və bilirəm ki, sumqayıtlılar da həmişə bunu arzulayırdılar. Artıq neçə ildir ki, Sumqayıt bulvarı sumqayıtlıların sərəncamına verilib və çox gözəl istirahət zonasıdır. Bir sözlə, biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Hazırda 2 saylı şəhər xəstəxanasının tikintisi gedir. Biz onu əvvəlcə təmir etmək istəyirdik, sonra gördük ki, tamamilə dağılmış vəziyyətdədir, ora söküldü. 1 saylı xəstəxana fəaliyyətdədir, ikinci xəstəxananın da tikintisi yaxın zamanlarda başa çatacaq.

Əlbəttə ki, bu gün hamımızı və bütün dünyanı narahat edən koronavirus pandemiyasıdır. Bu sahədə də Azərbaycan nümunəvi yanaşma göstərir. Bunu həm Azərbaycan vətəndaşları deyir, - mənə ünvanlanmış minlərlə təşəkkür məktubunda bu, əksini tapır, - həm də beynəlxalq təşkilatlar. Bu yaxınlarda mən Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorundan ikinci məktubu almışam. Birinci məktub mart ayının sonunda mənə ünvanlanıb, ikinci məktub isə mayın 7-də. İkinci məktubda da Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda koronavirusla mübarizə sahəsində görülmüş işlərə çox yüksək qiymət verir, işlərimizi təqdir edir. Əlbəttə ki, bu, görülmüş işlərə verilən böyük qiymətdir. Ancaq bir daha demək istəyirəm ki, ən böyük qiyməti Azərbaycan xalqı verir.

*Ardı 4-cü səh.*

# Azərbaycan dövləti əhalinin sağlamlığının qorunmasına yüksək həssaslıqla yanaşır

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 3-cü səh.*



Bu gün vəziyyəti nəzarətdə saxlamaq o qədər də asan məsələ deyil. Biz bütün səylərimizi insanların sağlamlığının qorunmasına yönəltdik. Pandemiyanın ilk günlərindən demək olar ki, bizim üçün seçim etməkdə heç bir tərəddüdlü məqam olmamışdır. Mən birmənalı şəkildə demişdim ki, ilk növbədə, vətəndaşların sağlamlığı, onların həyatıdır. O ki qaldı iqtisadi vəziyyətə, hər kəs üçün aydın idi, iqtisadiyyat zərər çəkəcəkdir, nəinki bizim iqtisadiyyatımıza, bütün dünya iqtisadiyyatına böyük ziyan vurulacaqdır. İndi artıq ilkin hesablamalar üzə çıxır və deyilir ki, inkişaf etmiş ölkələrdə bu il iqtisadiyyat 7-10 faiz düşə bilər və bu da təbiidir. Ancaq bizim əsas vəzifəmiz vətəndaşları qorumaq idi. Ona görə məhdudlaşdırıcı tədbirlərin böyük rolu olmuşdur. Əgər biz bu addımları atmasaydıq, indi vəziyyət nəzarətdən çıxa bilərdi, necə ki, bir çox ölkələrdə, o cümlədən inkişaf etmiş ölkələrdə, səhiyyə sistemi bizdən qat-qat inkişaf etmiş ölkələrdə vəziyyət nəzarətdən çıxıb, xəstələr üçün xəstəxanalarda yataqlar çatmır, xəstələr bəzi hallarda xəstəxanalara ümumiyyətlə qəbul edilmir. Artıq sirr deyil ki, bir çox ölkələrdə yüngül simptomlu xəstələri xəstəxanalara qəbul etmirlər. Onlara deyilir ki, gedin öz evinizdə qalın və faktiki olaraq onlar müalicəsiz qalırlar. Bizdə isə bütün xəstələri, bütün yoluxanları, hətta onun simptomu olmasa belə, mütləq xəstəxanalara qəbul edirik. Biz ən müasir xəstəxanalarımızı koronavirus xəstələrinin ixtiyarına vermişik.

Bu yaxınlarda modul tipli birinci xəstəxananın açılışı oldu. Belə xəstəxanaların sayı 10-a çatacaq. Onların 4-ü özəl sektor tərəfindən inşa ediləcək. Bu, bir daha göstərir ki, özəl sektor bizim çağırışımıza cavab verərək öz sosial məsuliyyətini nümayiş etdirir. Eyni zamanda mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fondunda artıq 100 milyon manatdan çox vəsait yığılıb. Hələ ki, 1 manat da xərclənməyib. Biz fondun fəaliyyəti və nəzarət mexanizmi üçün ictimai nəzarət formatı da yaratdıq. Bu, bir daha göstərir ki, vətəndaşlar, sahibkarlar həmrəylik, birlik nümayiş etdirirlər. Ona görə qabaqlayıcı tədbirlərin görülməsi birinci mərhələdə imkan verdi ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Başqa ölkələrlə, o cümlədən əhalisi bizimlə eyni sayda olan ölkələrlə müqayisədə Azərbaycanın vəziyyəti qat-qat yaxşıdır. Ancaq bu, o demək deyil ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməliyik. Koronavirus qeyb olmayıb, koronavirus dolaşır. Peyvənd icad edilənə qədər bu problem mövcud olacaq. Ona görə vətəndaşlar da buna hazır olmalıdırlar. Biz üç həftənin müsbət dinamikasını nəzərə alaraq aprelin 27-dən etibarən yumşalma addımlarımızı atmağa başladıq. Çünki başa düşürük ki, bu, hər kəs üçün çox çətin dövrdür. Ancaq gördük ki, yumşalma tədbirləri artıq başlayan kimi yoluxanların sayı artmağa başladı. Nəyə görə? Çünki vətəndaşlar bir çox hallarda məsuliyyətsizlik göstərirlər, onlara tövsiyə olunan qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, dezinfeksiya vasitələrindən istifadə etmirlər. Beləliklə, öz həyatlarını və onlarla təmasda olan yüzlərlə insanın həyatını risk altına atırlar. Ona görə mən bir daha Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, bu qaydalara əməl etmək o qədər də çətin deyil. Həkimlər, mütəxəssislər deyirlər ki, indi əsas şəxsi gigiyenaya fikir vermək, dezinfeksiya vasitələrindən istifadə etmək, bir metr yarım, iki metr məsafə saxlamaq və maska taxmaq lazımdır. Çətin məsələ deyil. Ona görə bütün vətəndaşlardan bir daha xahiş edirəm ki, bu qaydalara əməl etsinlər. İndi biz yumşalma addımlarımızı artırırıq və siz bilirsiniz ki, bütün dünyada bu proses gedir. Hətta bu gün yüzlərlə vətəndaşı vəfat edən ölkələr artıq açılırlar. Çünki başqa cür mümkün deyil. Biz də yavaş-yavaş bu istiqamətdə gedirik. Ancaq burada əsas məsələ vətəndaşların məsuliyyətidir. Çünki dövlət nə lazımdırsa, onu edir. Bütün resurslar səfərbər edilib. Prezidentin Ehtiyat Fondundan tibbi avadanlıqların, ləvazimatların alınması üçün təxminən 100 milyon manat vəsait ayrılıb və əlavə olaraq 150 milyon manat ehtiyatda saxlanılır.

İşini itirənlər üçün dövlət öz sosial dəstəyini göstərir. İşsiz, qeyri-formal məşğulluqda fəaliyyət göstərən və aztəminatlı kateqoriyaya aid olan 600 min insan dövlətdən iki ay ərzində 190 manat vəsait alır. Pandemiyadan ən çox zərər çəkən özəl sektorda 690 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Dövlət sektorunda çalışan 900 min nəfərin hər birinin əməkhaqqı ödənilir. Bu və digər tədbirlərə biz bütövlükdə 3,5 milyard manat vəsait ayırmışıq və nə qədər lazımdırsa, o qədər də ayıracağıq. Ona görə dövlət bu işləri görür, bütün təşkilati məsələləri uğurla həyata keçirir.

Mən qeyd etdiyim kimi, bu sahədə aparıcı beynəlxalq təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı bizim işlərimizə yüksək qiymət verir. Təkcə o qalıb ki, vətəndaşlar məsuliyyət və nizam-intizam göstərsinlər. Əlbəttə, nəzarətedici mexanizm daha da təkmilləşdirilməlidir. Əlbəttə, karantin rejimi yumşaldıqca, nəzarət etmək üçün də müəyyən problemlər yaranır. Ancaq buna baxmayaraq, bütün müvafiq orqanlara göstəriş verildi ki, onlar nəzarəti gücləndirsinlər. Amma yenə də deyirəm ki, indiki şəraitdə uğurumuzun əsas şərti vətəndaşların məsuliyyəti olmalıdır. Əks təqdirdə, bu xəstəlik nəzarətdən çıxacaq. Biz bunu açıq deməliyik və bilməliyik ki, dövlət nə qədər iş görsə də, vəziyyət nəzarətdən çıxacaq, kütləvi yoluxma halları baş verəcək, insanlar kütləvi qaydada vəfat edəcək, xəstəxanalarda yerlər, reanimasiya şöbələrində süni tənəffüs aparatları çatışmayacaq. Beləliklə, Allah eləməsin, biz indi böyük böhran içində olan ölkələrin vəziyyətinə düşə bilərik. Biz buna qətiyyən yol verə bilmərik. Ona görə mən bir daha bütün vətəndaşlara çağırış edirəm, məsuliyyətli olun, intizamlı olun, qaydaları pozmayın, özünüzü, öz yaxınlarınızı, öz tanışlarınızı qoruyun ki, biz bu bəladan az itkilərlə çıxa bilək.

Mən əminəm ki, biz buna nail olacağıq. Çünki artıq neçə aydır ki, bu pandemiya bütün dünya üçün böyük problemdir. Amma bu günə qədər vəziyyəti nəzarət altında saxlamaq doğrudan da böyük nailiyyət hesab oluna bilər. Xüsusilə qeyd etməliyəm ki, indiki şəraitdə cəmiyyətdə mövcud olan həmrəylik bəlkə ən yüksək səviyyədədir. Çünki bütün cəmiyyət bu mübarizədə birləşib.

Fürsətdən istifadə edərək özəl sektorun nümayəndələrinə, ictimai təşkilatlara, ayrı-ayrı adamlara bir daha təşəkkürümü bildirmək istəyirəm, həm ianələrə, həm vətəndaşlara göstərdikləri yardımlara, həm də bu qısa müddət ərzində tibbi sənayeni bizim maraqlarımıza uyğun şəkildə təşkil etdiklərinə görə. Bu gün ehtiyac içində yaşayanlara da özəl sektor, ictimai təşkilatlar tərəfindən yardım göstərilir. Onların arasında birinci yerdə əlbəttə ki, Heydər Əliyev Fondu dayanır. Fond, ayrı-ayrı adamlar ehtiyacı olan insanlara kütləvi surətdə kömək göstərirlər, kimin imkanı nəyə çatır etməlidir. Bu, bizim xalqımıza xas olan ən yüksək keyfiyyətləri bir daha göstərir. Ümid edirəm ki, pandemiya gec-tez sona çatacaq, ondan sonra bu həmrəylik ovqatı, həmrəylik əhval-ruhiyyəsi cəmiyyətimizdə daha da güclənəcək.

Bugünkü açılışlar münasibətilə sizi təbrik edirəm, sizə fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Sonra müəssisənin əməkdaşı **Aygün MƏHƏRRƏMOVA** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident və çox hörmətli Mehriban xanım!

Sizi Ulu Öndərimiz Heydər Əliyevin "kiçik Azərbaycan" adlandırdığı Sumqayıt şəhərinin əhalisi və "Gilan Tekstil" fabrikinin işçiləri adından salamlayıram. Mən bu gün bildirmək istəyirəm ki, özümü çox xoşbəxt və şanslı hesab edirəm. Ona görə ki, mən bu gün Sizlərin qarşısında çıxış etmək imkanı qazanmışam.

Ulu Öndərimiz Sumqayıta, onun zəhmətkeş əhalisinə və şəhərimizin inkişafına xüsusi diqqət yetirirdi. Sumqayıtın bir şəhər kimi yaranıb formalaşması böyük tarixi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Biz çox sevinirik ki, Ulu Öndərimizin şəhərimizə olan bu xüsusi diqqəti Sizin tərəfinizdən uğurla davam etdirilir.

Cənab Prezident, xüsusən son illərdə birbaşa diqqət və qayğınız nəticəsində şəhərimizdə yaradılan sosial və sənaye müəssisələri Sumqayıtı daha da inkişaf etdirib, müasir, abad, işıqlı bir şəhərə çevirib. Sumqayıt hazırda Ulu Öndərimizin və Sizin arzuladığınız bir şəhərdir.

Aygün Məhərrəmova qeyd etdi ki, respublika əhəmiyyətli tibbi maska və qoruyucu geyimlər istehsal edən müəssisənin məhz Sumqayıtda açılması dövlət başçısının bu şəhərə olan diqqət və qayğısının növbəti nümunəsidir. Vurğuladı ki, müəssisələrdə işləyənlərin sayı 110-dan artıqdır və onların 95 faizindən çoxu Sumqayıt sakinləridir. O, həmçinin şəhərdə müasir tələblərə cavab verməyən köhnə sənaye müəssisələrinin əvəzinə dövlət başçısının tapşırığı ilə müasir sənaye parklarının yaradıldığını dedi, bu gün Sumqayıtın ekoloji cəhətdən təmiz şəhər olduğunu qeyd etdi, buna görə minnətdarlığını bildirdi:

- Biz bu gün Sizin və Mehriban xanımın şəhərimizə olan xüsusi hörmət və diqqətinizi əyani şəkildə gördük.

Cənab Prezident və hörmətli Mehriban xanım, şəhərimizə göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə Sumqayıtın çoxsaylı əhalisi adından dərin ehtiramımızı və təşəkkürümüzü bildirirəm. Xalqımızın rifahı və daha xoşbəxt gələcəyi naminə, cənab Prezident, Sizə və hörmətli Mehriban xanıma, ailənizə möhkəm cansağlığı, daha böyük uğurlar arzulayıram. Uca Tanrı Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ ol, təşəkkür edirəm.

❖ ❖ ❖

Müəssisənin əməkdaşı **Kərim BABAYEV** qeyd etdi ki, Prezident İlham Əliyevin Sumqayıta hər səfəri şəhərin inkişafında yeni bir mərhələ açır. O, həmçinin dövlət başçısına gənclər üçün yaradılan şəraitə görə minnətdarlığını bildirərək dedi:

- "Gilan Tekstil Park"ın işçiləri adından Sizə təşəkkür edirəm. Gənclərə göstərdiyiniz diqqət və qayğıya, etimada görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Biz gənclər Sizin etimadınızı doğrultmaq üçün səylə çalışırıq. Allah Sizi və dəyərli ailənizi qorusun. Təşəkkür edirəm.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun. Mən çox şadam ki, bu fabrikdə Sumqayıt şəhərinin sakinləri fəal işləyirlər. İş yerlərinin yaradılması bizim üçün əsas məsələlərdən biridir. Mən bir daha demək istəyirəm, son illər ərzində Sumqayıtda onlarla yeni, müasir müəssisə yaradılıb və orada işləyənlərin mütləq əksəriyyəti bu şəhərin sakinləridir, Bakıdan gələnlər də var. Mən keçən dəfə demişəm ki, indi Bakı ilə Sumqayıt elə bil birləşib. Ona görə karantin rejimi tətbiq olunanda biz Bakını, Abşeron rayonunu və Sumqayıtı bir ərazi kimi nəzərə aldıq. Çünki bilirik ki, Sumqayıtda yaşayıb Bakıda işləyən var və əksinə.

Əlbəttə, müasir sənaye potensialının inkişafı müasir kadrlar tələb edir. Bu gün gənclər məhz o təkanverici qüvvədir ki, müasir yanaşmanın, müasir sənayenin təşkilini təmin edirlər. Mən demişəm ki, bir çox ölkələr indi iqtisadi cəhətdən əziyyət çəkir, o cümlədən də biz. Mənim bu yaxınlarda Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərləri ilə videokonfrans şəklində görüşüm olmuşdur. Orada qeyd olundu ki, Azərbaycan pandemiya dövründə iqtisadi sahədə də yaxşı nəticələr göstərir. Təkcə onu demək kifayətdir ki, bu gün dünyada 150-dən çox ölkə yardım üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Yəni onların daxili maliyyə resursları imkan vermir ki, lazım olan işlər görülsün. Azərbaycanın bu siyahıda adı yoxdur. Biz o ölkələrdənik ki, öz gücümüzə bu bəla ilə mübarizə aparırıq. Onu da bildirməliyəm ki, biz artıq 10-dan çox ölkəyə yardım göstərmişik, yük təyyarələri, tibbi ləvazimat, dezinfeksiya materialları göndərmişik. Bəzi ölkələrə maliyyə yardımı göstərmişik. Ümumdünya Səhiyyə Təşkilatına iki dəfə donor ianəsi etmişik. Belə ölkələrin sayı o qədər də çox deyil. Ona görə bu, bizim məsuliyyətimizi göstərir. Onu göstərir ki, biz pandemiyaya qarşı qlobal müstəvidə də fəal rol oynayırıq.

O ki qaldı bizim iqtisadi göstəricilərimizə, əlbəttə, bu ilin yanvar-fevral ayları çox ümidverici idi. Mən, sözün düzü, fikirləşirdim ki, biz bu ili rekord göstəricilərlə başa vuracağıq. Ancaq bu pandemiya həyatımıza müdaxilə edərək bizim planlarımızı pozdu. Amma buna baxmayaraq, - indi dedim ki, bir çox ölkələrin indi iqtisadi vəziyyəti ağırdır və iqtisadiyyat tənəzzülə uğrayıb, - Azərbaycanda dörd ayın yekunları göstərir ki, iqtisadiyyat az da olsa artıb - 0,2 faiz. Əlbəttə ki, bu, şərti artım sayıla bilər. Amma yenə də hələ ki, düşməyib.

O ki qaldı qeyri-neft sektorunun inkişafına, bu sektorun sənaye artımı 16 faizdən çoxdur. Bu, görülmüş işlərin nəticəsidir. Məhz sənayeləşmə, yeni sənaye müəssisələrinin yaradılması, o cümlədən Sumqayıt şəhərində buna imkan verir. Ancaq hər kəs bilməlidir ki, bizim valyuta ehtiyatlarımız azalıb. İqtisadiyyatı yenidən canlandırmaq, iş yerlərini bərpa etmək üçün vaxt lazım olacaq. Ona görə biz indi 90 min ictimai ödənişli iş yeri yaradırıq, 80 min ailə dövlətdən sosial yardım alır, özünüməşğulluq proqramı çərçivəsində 12 min ailəyə lazım olan vasitələr verilir. Bütün bunları biz edirik ki, işsizlik artmasın. Ancaq bütün ölkələrdə işsizlik artıbdır, ən inkişaf etmiş ölkələrdə sürətlə artıb. Yəqin indi rəqəmlər göstərəcək ki, bizdə də artıb. Ona görə bizim bundan sonra əsas vəzifəmiz koronavirusla bağlı vəziyyəti həm nəzarətdə saxlamaqdır və həm də artıq pandemiyadan çıxmağı planlaşdırmaqdır ki, bu çıxış həm hamar, həm səmərəli olsun və biz iqtisadi fəallığı maksimum qısa müddət ərzində bərpa edə bilək. Ona görə indi bütün dövlət, hökumət qurumları bu üç istiqamətdə təkliflər hazırlayırlar. Hesab edirəm ki, biz buna da nail olacağıq.

Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.

❖ ❖ ❖

Qeyd edək ki, koronavirus pandemiyası ilə əlaqədar tibbi maska, qoruyucu geyimlərə son dövrlərdə dünyada tələbat kəskin artıb. Bu səbəbdən də həmin məhsulların dünyanın bir çox ölkələrində böyük qıtlığı yaşanır. Koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı Azərbaycanda ilk günlərdən həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, insanların sağlamlığı, virusun yayılmasının qarşısının alınması baxımından mühüm rol oynayan bu məhsullar ölkəmizdə istehsal olunmağa başlayıb. Bu müəssisələrin fəaliyyətə başlaması, ilk növbədə, Azərbaycanda dövlət səviyyəsində əhalinin sağlamlığının qorunması məsələsinə yüksək dərəcədə həssaslıqla yanaşıldığını göstərir.








# Azərbaycan Prezidenti İlham ƏLİYEV:
# "9 May - bizim ümumi Böyük Qələbə günümüzdür"

Əvvəli 1-ci səh.


Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qələbə Günündə Böyük Vətən müharibəsi veteranları ilə görüşdə.


Azərbaycan Ordusunun möhkəmlənməsi, onun döyüş qüdrətinin və texniki təchizatının yüksəldilməsi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fəaliyyətində ən mühüm prioritetlərdən biridir.


Prezident İlham Əliyev Azərbaycan Ordusunun silahlarının müasir nümunələri və hərbi qulluqçuların perspektivli təchizatı ilə tanış olur.


Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2016-cı ildə erməni işğalından azad edilmiş ərazilərdə komanda məntəqəsinə baş çəkərkən operativ şəraitlə tanış olarkən.


Rusiyadan Azərbaycana silah təchizatının həcmi 5 milyard dollar təşkil edir.


Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Beyləqan rayonundakı hərbi hissədə xidmət və məişət şəraiti ilə tanış olur.

**- İlham Heydər oğlu, qarşıdan Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi gəlir. Bu ümumi Qələbəyə Azərbaycanın töhfəsi nədən ibarət olub, Azərbaycanda yaşayan Böyük Vətən müharibəsi iştirakçılarını necə şərəfləndirmək planlaşdırılır?**

- Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi yaxınlaşır. Biz tarixdə bu əlamətdar günə qayğı ilə yanaşır, döyüş meydanında və arxa cəbhədə qələbəyə töhfə verənlərin xatirəsini ehtiramla yad edir, öz həyatları bahasına dünyanı faşizmdən xilas etmiş zabit və əsgərlərin igidliklərinə hörmətimizi bildiririk.

Azərbaycan bizim ümumi qələbəmizə böyük töhfə verib. Azərbaycanın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onlardan 300 mini həlak olub, 120-dən çox Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır, bizim 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Qızıl Ordu üçün neftin 70 faizini, yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edib, bunlar olmasaydı, müharibədə qalib gəlmək mümkün olmazdı. Təsadüfi deyil ki, faşist Almaniyası Bakını tutmağa can atırdı. Yeri gəlmişkən, mən bu barədə 2019-cu ilin oktyabrında MDB-nin Aşqabad Sammitində demişdim: məlum kadrlar var, orada Hitlerə üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış tort verirlər (Xəzər dənizinin sərhədlərinə qara rəngli şokolad süzülüb), o, svastikanı əlinə götürür və "Bakı" sözü yazılmış yerə qoyur. Bu, faşistlərin Azərbaycanın neft yataqlarını tutmaq planını vurğulayır.

Bizim müəssisələrdə gecə-gündüz hərbi texnika, o cümlədən məşhur "Katyuşa" raketləri istehsal edilirdi.

Azərbaycan elminin nümayəndələri də bizim ümumi qələbəmizə sanballı töhfə veriblər. Bunu bilən azdır, amma böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan "Molotov kokteyli" adı ilə məşhurlaşmış yandırıcı qarışıq ixtira etmişdi.

Azərbaycanda formalaşdırılmış 416-cı Qırmızı Bayraqlı Taqanroq diviziyası Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçib. Böyük Vətən müharibəsi cəbhələrində ləyaqətlə döyüşən, Azərbaycanın bayrağını uca tutan, xalqımıza xas olan vətənpərvərlik, cəsarət, doğma torpağın müdafiəsində dönməzlik kimi ən yaxşı keyfiyyətləri nümayiş etdirən bu diviziyanın döyüşçülərinin igidliyi və şücaəti ilə ölkəmizdə fəxr edirlər.

Bu ilin mart ayında Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılığı ilə nümayəndə heyəti Azərbaycana səfər etmişdi. Onlarla görüş zamanı mənə 1980-ci ildə o dövrdə Azərbaycanın rəhbəri olmuş Ümummilli Lider Heydər Əliyevin Rostov vilayətinə səfərinə həsr edilmiş bir videoalbom verdilər. Heydər Əliyev həmin səfər zamanı Rostov vilayətinin faşizmdən azad edilməsinin rəmzi olan və müstəsna igidliklər göstərmiş 130-cu və 416-cı Azərbaycan atıcı diviziyalarının əsgərlərinin qəhrəmanlığına həsr edilmiş "Sambek yüksəklikləri" memorialının açılışında iştirak edib. İndi həmin memorialın yanında "Sambek yüksəklikləri" adlı xalq hərbi-tarixi muzey kompleksi yaradılır. O görüşdə qeyd edilmişdi ki, bu il həmin kompleksin açılışı planlaşdırılır. Rusiya tərəfinin 416-cı Taqanroq diviziyasının əsgər və zabitlərinin xatirəsini və igidliklərini ehtiramla yad etməsini biz çox yüksək qiymətləndiririk.

Bu gün Böyük Vətən müharibəsi veteranları Azərbaycanda dövlət tərəfindən böyük dəstək alır. Biz onların qəhrəmanlığını həmişə xatırlayırıq. Hər il mayın 9-da mən bu böyük tarixə həsr edilmiş təntənəli tədbirdə onlarla görüşürəm, biz həlak olanların xatirəsini birlikdə yad edir, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Lakin təəssüf ki, müstəqilliyin ilk illərində vəziyyət belə deyildi. Özünü Xalq Cəbhəsi adlandıran bir qrup hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə onlar 9 May bayramını ləğv etdilər, müharibə veteranları təqiblərə, mənəvi terrora məruz qalırdılar, bəzi ölkələrdə indi də baş verən hadisələr o vaxt praktiki olaraq bizdə baş verirdi. Yalnız Heydər Əliyev hakimiyyətə qayıdandan sonra tarixi ədalət bərpa olundu, veteranlar yenidən dövlətin dəstəyindən istifadə etməyə başladılar, mayın 9-u ümummilli bayram elan edildi və biz o vaxtdan - 1994-cü ildən bu bayramı qeyd edirik, həmin gün qeyri-iş günüdür.

**- Nasist canilərinin, o cümlədən postsovet məkanında qəhrəmanlaşdırılmasına qarşı mübarizə hazırda həmişəkindən daha aktualdır.**

- Bu gün tarixi yenidən yazmaq, faşistləri qəhrəmanlaşdırmaq, tarixi həqiqəti təhrif etmək kimi təhlükəli meyillər müşahidə edirik. Biz buna çox ciddi yanaşmalıyıq. İstər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması qətiyyən yolverilməzdir.

Qeyd etmək istərdim ki, bu məsələdə həm Rusiyanın, həm də Azərbaycanın mövqeləri tamamilə eynidir. Biz Böyük Vətən müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixin yenidən yazılması, faşizmin və faşistlərin qəhrəmanlaşdırılması cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparırıq. Bizim mövqelərimiz həm tarixi həqiqətə, ədalətə, həm də buna əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar və kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu Qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər.

Ötən ilin dekabr ayında Sankt-Peterburqda qeyri-formal Sammitdə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin İkinci Dünya müharibəsi dövrünə aid bir sıra sənədlər təqdim etdi. Bu sənədlərin çoxu əvvəl məlum deyildi. Hesab edirəm ki, bu faktın böyük əhəmiyyəti olub, çünki müharibənin tarixi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirib. Real faktların məlum olmaması, onları bilməmək çox vaxt tarixi həqiqətin təhrifinə gətirib çıxarır. İkinci Dünya müharibəsinin tarixi məsələsində bu, tarixi yenidən yazmaq və faşizmi qəhrəmanlaşdırmaq kimi təhlükəli meyillərlə bağlıdır. Buna görə belə sənədlərin açılması, əlbəttə ki, tarixi həqiqətə xidmət edir.

Təəssüf ki, MDB məkanında, o cümlədən Ermənistanda da faşizmin qəhrəmanlaşdırılması baş verir. Ermənistanın əvvəlki hakimiyyəti Yerevanın mərkəzində faşist cəllad və satqın, alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə qəti etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlaşdırılması, neonasizmin və irqçiliyin müasir formalarının, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Məruzədə deyilir: "Ermənistanın keçmiş hakim Respublika Partiyası üçüncü Reyx ilə əməkdaşlıq etməsi barədə məlumat olan millətçi təmayüllü Qaregin Njde kimi heç də birmənalı olmayan siyasi xadimin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir. Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunun sədrliyi ilə Rusiya Federasiyası Müdafiə Nazirliyinin baş redaksiya komissiyası tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" nəşrinin 6-cı cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyat fəaliyyəti" sərlövhəli məqalədə deyilir: "Dromedar" abverqrup-114 haqqında agentura işi çərçivəsində əks-kəşfiyyatçılar daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı tapıb və həbs ediblər. O, Böyük Vətən müharibəsi dövründə Bolqarıstan ərazisində erməni millətindən olan 30-dan çox agenti cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə çatdırılmasında iştirak edib. SMERŞ əməkdaşları 17 təxribatçını tutub, qalanlar barəsində axtarış elan ediblər". Njde Avropanın yəhudi əhalisinə qarşı Holokostda da iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya üçün həlak olan Ermənistan üçün həlak olur". Burada necə deyərlər, şərhə ehtiyac yoxdur. Njde həbs edildi və ömrünü Vladimir həbsxanasında başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada az qala 6 metr hündürlüyündə abidə qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli sökmədi. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlaşdırılmasına yol verilməməlidir.

**- Sizin fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının yolları və prinsipləri necədir?**

- Ermənistanın Azərbaycana qarşı 25 ildən çox davam edən təcavüzü ölkəmizin ərazisinin təqribən 20 faizinin işğal edilməsinə gətirib çıxarıb. Nəticədə 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Həm tarixi ədalət, həm də beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Qeyd etməliyəm ki, "Qarabağ" adının özü Azərbaycan sözüdür. Tarixdən məlumdur ki, 1805-ci ildə Qarabağ xanı İbrahim xan tərəfindən Rusiya ordusunun generalı Sisiyanovla imzalanmış sazişə görə Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeliyinə keçib. Kürəkçay sazişi adlanan bu sənədin mətnini internetdə tapmaq olar. Həmin sənəddə Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri əsasında Azərbaycanın qalan əraziləri də Rusiya imperiyasının tərkibinə keçib. Həmin dövrdə erməniləri İrandan və Şərqi Anadoludan Azərbaycanın Qarabağ regionuna köçürməyə başlayıblar. Beləliklə, yüz minlərlə erməni köçkün tarixi Azərbaycan torpağına gəlib çıxıb.

Sonradan, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılanda onun ilk fərmanlarından biri İrəvanın Azərbaycanın tərkibindən Ermənistanın tərkibinə verilməsi və Ermənistanın paytaxtı elan edilməsi haqqında fərman olub. Bu da tarixi faktdır. 1921-ci ildə bolşeviklər partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması haqqında qərar qəbul edib. Bəzi erməni tarixçilərinin yazdığı kimi, Azərbaycana verilməsi haqqında yox, məhz saxlanması haqqında. Bu da tarixi faktdır. Daha bir tarixi fakt ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında fərman verib.

Azərbaycan BMT-yə daxil olanda da, o, özünün tam ərazi bütövlüyü çərçivəsində daxil olub. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü, bütün dünya tərəfindən qəbul edilmiş BMT-nin Nizamnaməsi və Helsinki Yekun Aktı çərçivəsində həll edilməlidir.

Buraya BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsini, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların qətnamələrini, həmçinin "Dağlıq Qarabağ respublikası" adlandırılan qanunsuz qurumun heç bir ölkə tərəfindən tanınmamasını da əlavə etsək görərik ki, münaqişə Azərbaycanın ərazi bütövlüyünün tanınması və onun suverenliyinə hörmət müstəvisində həll edilməlidir. Erməni qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalı, bu torpaqlardan qovulmuş qaçqınlar və məcburi köçkünlər öz tarixi yurdlarına qaytarılmalıdır. İşğal edilən təkcə Dağlıq Qarabağ deyil. Ona bitişik 7 rayon da işğal olunub. Həmin 7 rayonda heç vaxt ermənilər yaşamayıblar.

Münaqişə ilə əlaqədar onu da qeyd etməliyəm ki, bu yaxında erməni təbliğatına və bütövlükdə bu məsələ ilə əlaqədar Ermənistanın mövqeyinə növbəti böyük zərbə vurulub. Əslində, bu zərbəni onlar özləri özlərinə vurublar. Əlbəttə, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla əlaqələrimiz bu zərbəni gücləndirib. Söhbət qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident seçkiləri" haqqındadır. Bu "seçkilər" bir daha göstərdi ki, heç kəs bu qanunsuz hərbi xunta rejimini tanımır. "Seçkilər"dən sonra aparıcı beynəlxalq təşkilatlar onları tanımadı, bu barədə açıq bəyanatlar səsləndi. ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, ABŞ və Fransa bəyanatla çıxış etdilər. ATƏT-in Parlament Assambleyası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və Avropa Parlamenti bəyanatlarla çıxış etdilər. Bütün bu təşkilatlar həmin "seçkiləri" tanımadılar və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bu, bir daha nümayiş etdirdi, - mən bunu demişəm, bir daha demək istəyirəm, - Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Biz beynəlxalq ictimaiyyəti və ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini bu təcavüzkar ölkəyə ciddi təzyiq göstərməyə çağırırıq ki, sülhyaratma prosesi yerində saymasın.

**- Azərbaycan Silahlı Qüvvələrinin müasir vəziyyətini necə qiymətləndirərdiniz?**

- Son illərdə Azərbaycan ordu quruculuğunda böyük uğurlar qazanıb. Bu gün ölkənin Silahlı Qüvvələrini möhkəm intizam, vətənpərvərlik, yüksək mənəvi mübarizlik ruhu və döyüş qabiliyyəti səciyyələndirir. Silahlı Qüvvələr ən müasir silahlar və hərbi texnika ilə təchiz edilib. Şübhəsiz, bütün bunlar son illərdə ölkənin hərbi qüdrətinin möhkəmlənməsinə gətirib çıxarıb.

"Global Firepower-2019"un hesabatına görə, Azərbaycan dünyanın ən güclü ordularının reytinqində 52-ci yerdədir. Xüsusi qeyd etmək istəyirəm ki, 2006-cı ildə bizdə Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Son illərdə 20-dən çox hərbi zavod fəaliyyətə başlayıb. Bu zavodlarda 2000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal edilir, ordumuz həmin məhsullarla təchiz olunur. Eyni zamanda biz hərbi məhsulları ixrac edirik.

Son illərdə ən müasir texnika və silahlar alınıb. Onların arasında yüzlərlə zirehli texnika, çoxsaylı keşikçi gəmiləri və hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi-nəqliyyat və nəqliyyat helikopterləri, ən müasir pilotsuz kəşfiyyat və döyüş uçuş aparatları, hava hücumundan, raketdən müdafiə vasitələri, ən müasir rabitə vasitələri, reaktiv yaylım atəşi sistemləri, operativ-taktiki raket kompleksləri var.

Biz hərbi qulluqçuların sosial həyatına xüsusi əhəmiyyət veririk, hərbçilərin xidmət şəraiti yaxşılaşdırılır. Son illərdə onlarla hərbi şəhərcik yaradılıb. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Son bir neçə ildə hərbi hissələrin, hərbi şəhərciklərin 80 faizdən çoxu yenidən tikilib və ya əsaslı təmir edilib. Qarşıdakı 2-3 il ərzində bütün hərbi şəhərciklər tamamilə təmir ediləcək. Hərbi qulluqçuların mənzil-məişət məsələləri həll edilir. Qəbul edilmiş qərar əsasında orduda 20 il qüsursuz xidmət etmiş hərbçilərə dövlət pulsuz mənzillər verir. Bu gün bizim hərbi hissələrdə 20 mindən çox mülki şəxs işləyir. Əvvəllər bu işləri əsgərlər görürdülər. Biz onları məişət işlərindən azad etmişik. Eyni zamanda mülki şəxslərdən ötrü 20 mindən çox iş yeri açılıb.

Şübhəsiz, yuxarıda göstərilən, son illərdə görülmüş bütün tədbirlər Silahlı Qüvvələrin maddi-texniki bazasının daha da möhkəmlənməsinə, hərbi qulluqçuların sosial müdafiəsinin güclənməsinə səbəb olub və biz bu istiqamətdə atılan addımları davam etdirəcəyik.

**- Rusiya ilə Azərbaycan arasında siyasət, iqtisadiyyat, hərbi-texniki əməkdaşlıq sahələrində və başqa istiqamətlər üzrə münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini Siz necə səciyyələndirərdiniz?**

- Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Prezident Vladimir Vladimiroviç Putin ilə mənim çoxsaylı şəxsi görüşlərim ikitərəfli qarşılıqlı əlaqələrin inkişafına çox ciddi təkan verir, həmçinin bizim regionda vəziyyətə də müsbət təsir göstərir.

Biz fəaliyyətimizin demək olar ki, bütün sahələrini - ticarət, nəqliyyat, energetika, humanitar sahə və turizmi əhatə edən beş yol xəritəsi çərçivəsində proqramı fəal reallaşdırırıq. Ötən ilin sonunda bu yol xəritələrinə daha ikisi - innovasiyalar və gənclər siyasəti üzrə yol xəritələri əlavə edilib.

Keçən il mən Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə "Valday" Diskussiya Klubunun iclasında iştirak etmişəm. Hər il bütün dünyada siyasətçilərin, politoloqların, ekspertlərin və analitiklərin diqqətini cəlb edən bu tədbirə dəvət almış dörd dövlət başçısından biri mən idim. "Valday" Klubu dünya gündəliyindəki mühüm problemlərin müzakirəsi üçün ən vacib diskussiya platformalarından biri kimi özünü göstərib.

Rusiya ilə bizim münasibətlərimiz zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən belədir. Biz həm qonşuyuq, həm də mehriban dostlar. Son dövrdə bizim münasibətlərimiz daha səmərəli və keyfiyyətli olub.

Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayır, ən mühüm və ümdə məsələlərdə ənənəvi olaraq bir-birimizi dəstəkləyirik. Biz BMT, ATƏT və əlbəttə MDB məkanında sıx qarşılıqlı fəaliyyətdəyik.

Bizim çox sıx iqtisadi, ticari münasibətlərimiz var. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Həcmi milyard dollarlarla ölçülən qarşılıqlı investisiyalar həyata keçirilir.

Ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsi təqribən 20 faiz artıb və 3 milyard dollardan çox olub.

Burada bir məqamı qeyd etmək çox vacibdir ki, koronavirus pandemiyası ilə əlaqədar vəziyyətə baxmayaraq, cari ilin birinci rübündə ölkələrimiz arasında əmtəə dövriyyəsi 2 faiz artıb, ixrac-idxal əməliyyatlarının həcmi də artıb. Bu da çox vacibdir ki, "Şimal-Cənub nəqliyyat dəhlizi" fəaliyyətini davam etdirir, o cümlədən bu dəhliz çərçivəsində yükdaşımalar və tranzit daşımaları həyata keçirilir. Azərbaycan ərazisindən keçməklə Rusiyadan Avropa istiqamətində Şimal-Qərb dəhlizi də işə salınıb. Ötən ilin sonunda Azərbaycanla Rusiyanın sərhədində Samur çayı üzərindən körpünün açılışı təkcə bu iki ölkə üçün deyil, bütövlükdə region üçün böyük əhəmiyyət kəsb edən hadisə olub. Ona görə ki, bu körpü beynəlxalq yükdaşımaların intensivləşdirilməsi, biznes əlaqələrinin genişlənməsi, habelə Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizlərinin inkişafı üçün yeni imkanlar yaradır. Keçən il Şimal-Cənub dəhlizi ilə yükdaşımaların həcmi 60 faiz artıb. Azərbaycan regionda əməkdaşlıq üçün yaxşı perspektivlər açan, Asiyadan Avropaya və əks istiqamətdə yüklərin daşınması məsafəsini və çatdırılması müddətlərini xeyli azaldacaq bu mühüm nəqliyyat layihəsinin reallaşdırılması ilə əlaqədar öz ərazisində bütün işi başa çatdırıb. Hesab edirəm ki, regionda mühüm nəqliyyat arteriyası kimi Şimal-Cənub dəhlizinə ehtiyac daha da artacaq.

Hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Rusiya və Azərbaycan prezidentlərinin birgə mətbuat konfranslarının birində deyildiyi kimi, Azərbaycanın Rusiyadan aldığı hərbi təyinatlı məhsulların həcmi 5 milyard dollara bərabərdir.

Humanitar sahədə əlaqələrimiz də uğurla inkişaf edir. Artıq neçə ildir ki, Azərbaycanda Moskva Dövlət Universitetinin filialı, həmçinin Birinci Moskva Dövlət Tibb Universitetinin filialı fəaliyyət göstərir. Azərbaycanın dövlətə məxsus bütün ali məktəblərində rus dilində bölmələr mövcuddur. Ölkəmizdə 25 min tələbə rus dilində oxuyur. Təhsilin rus dilində olduğu 338 məktəbdə 130 min şagird də rus dilində təhsil alır.

Bizim münasibətlərimizin bir göstəricisi həm ölkələr, həm də xalqlar arasında münasibətlərin ruhuna və xarakterinə ən parlaq sübutdur. 2019-cu ildə Azərbaycana Rusiyadan rekord sayda - bir milyona yaxın turist səfər edib. Bu ilin əvvəlində də yaxşı dinamika müşahidə olunurdu, lakin koronavirus pandemiyası turist axınını dayandırdı. Ümidvarıq ki, pandemiya başa çatandan və sərhədlər açılandan sonra rusiyalı turistlərin ölkəmizə səfərləri bərpa olunacaq. Ona görə ki, rusiyalılar burada özlərini rahat, adi şəraitdə olduğu kimi hiss edir, dil baryeri ilə bağlı çətinliklərlə üzləşmirlər. Bu da sirr deyil ki, turistlər təkcə görməli yerlərə baxmaq və milli mətbəx nümunələrini dadmaq üçün getmirlər, onlar elə yerlərə gedirlər ki, orada özlərini təhlükəsiz, rahat, öz evlərində olduğu kimi hiss etsinlər.

Ardı 6-cı səh.

# Azərbaycan Prezidenti İlham ƏLİYEV: “9 May - bizim ümumi Böyük Qələbə günümüzdür”

Əvvəli 5-ci səh.

Keçən il noyabrın 23-də Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində əsaslı bərpa işlərindən sonra “Azərbaycan” pavilyonunun açılışı oldu. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun bərpadan sonra açılışı ölkələrimiz arasında münasibətlərin dostluq xarakterinin daha bir təzahürü oldu.

**- Dünyada strateji və enerji sabitliyinin dəstəklənməsinə Azərbaycanın töhfəsi nədən ibarətdir?**

- Mən dəfələrlə demişəm ki, hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyinin ayrılmaz tərkib hissəsidir. Buna görə də əsas məsələ enerji müstəqilliyinin təmin edilməsi idi və biz buna nail olduq.

Son illərdə Azərbaycan elektrik enerjisinin və təbii qazın idxalçısından onların ixracatçısına çevrilib. 2003-cü ildən bəri Azərbaycanda 30-dan çox elektrik stansiyası tikilib. Bir neçə ildir ki, biz istehsal edilən elektrik enerjisinin artıq hissəsini ixrac edirik. Yeri gəlmişkən, biz ölkənin ekoloji vəziyyətinə böyük diqqət yetiririk, buna görə də son illərdə Azərbaycanda inşa edilən elektrik stansiyaları bütün ekoloji tələblərə cavab verir və respublikanın təbii qaz və su ehtiyatları əsasında işləyir.

Biz Azərbaycanda bərpaolunan enerjinin inkişafına da böyük diqqət yetiririk. Bu ilin yanvar ayında ilkin razılıq əldə edildi və bərpaolunan enerji sahəsində böyük təcrübəyə malik olan iki iri xarici şirkət Azərbaycanla ilkin sazişlər imzaladı. Həmin sazişlərə əsasən ölkəmizdə yalnız əcnəbi investorların hesabına ümumi gücü 440 meqavat olan iki elektrik stansiyası tikiləcək - biri külək enerjisindən, digəri günəş enerjisindən elektrik enerjisi istehsal edəcək.

Bizdə elektrotexnika sahəsinin infrastrukturu tamamilə modernləşdirilib. Davos Dünya İqtisadi Forumunun reytinqinə əsasən elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yeri tutur.

İri transmilli neft-qaz layihələrinin həyata keçirilməsi məsələsinə gəldikdə bizim enerji resurslarını bir neçə istiqamətdə ixrac edən 7 neft və qaz kəməri inşa olunub.

“Cənub qaz dəhlizi”nin tikintisi uğurla başa çatmaq üzrədir. Bu dəhliz dörd layihədən ibarətdir:

- Ehtiyatlarının həcmi 1 trilyon kubmetrdən çox olan “Şahdəniz-2” qaz-kondensat yatağı;
- Cənubi Qafqaz qaz kəməri;
- Trans-Anadolu qaz kəməri (TANAP).

Yuxarıda göstərilən 3 layihənin reallaşması artıq başa çatdırılıb.

- Trans-Adriatik qaz kəmərinin (TAP) tikintisi üzrə işlərin 94 faizdən çoxu yerinə yetirilib.

Nisbətən yaxın vaxtlarda ehtiyatlarının həcmi minimum 300 milyard kubmetr qaza bərabər olan yeni “Abşeron” qaz-kondensat yatağı açılıb. Bu yataqda hasilatın gələn il başlanması gözlənilir. Bu ilin mart ayında “Qarabağ” iri neft yatağı kəşf edilib. Daha bir neçə perspektivli neft-qaz strukturu kəşfiyyat və işlənilmə mərhələsindədir. Beləliklə, bütün bunlar neft hasilatının sabit profilini və təbii qaz hasilatının artan həcmini təmin edəcək.

Biz lap əvvəldən OPEC+ formatında fəal iştirak etmişik. Qeyd etmək istəyirəm ki, OPEC+ formatı ideyasını ilk dəfə mən bir neçə il bundan əvvəl Davos Dünya İqtisadi Forumunun panel müzakirələrində irəli sürmüşəm. Azərbaycan bu yaxınlarda da 9-cu və 10-cu OPEC+ görüşlərində fəal iştirak edib. Bu görüşlərin digər iştirakçıları kimi, Azərbaycan da neft hasilatının azaldılması üzrə öhdəlik götürüb, özünü etibarlı və sabit tərəfdaş kimi göstərib.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Azərbaycan Rusiya ilə ikitərəfli münasibətlərimizin bütün başqa sahələrində olduğu kimi, enerji sahəsində də çoxillik uğurlu əməkdaşlıq təcrübəsinə malikdir və mən əminəm ki, bu əlaqələr gələcəkdə də fəal inkişaf edəcək.

Sonda dost Rusiya xalqını Böyük Vətən müharibəsində Qələbənin yaxınlaşmaqda olan 75 illiyi bayramı münasibətilə təbrik etmək istərdim. Mən Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin tərəfindən mayın 9-da Qələbə Gününün bayram edilməsi üçün Moskvaya dəvət olunmuşam və bu bayram tədbirində iştirak etmək niyyətində idim. Lakin təəssüf ki, koronavirus pandemiyası ilə əlaqədar bu tədbir başqa vaxta keçirilib. 9 May bizim ümumi bayramımızdır. Bizim ümumi Böyük Qələbəmiz günüdür. Azərbaycanın və Rusiyanın bu bayrama münasibəti ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırır.



Rusiya ilə Azərbaycan arasında dinamik inkişaf edən əlaqələr çox cəhətdən prezidentlər Vladimir Putinin və İlham Əliyevin qarşılıqlı münasibətlərinin dostluq və etimad xarakteri ilə müəyyən edilir.



Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışında.



Azərbaycan Prezidenti İlham Əliyev Xəzər qazını Avropaya çatdırmağa imkan verən yeni qaz kəmərləri şəbəkəsinin bir hissəsi olan “Cənub qaz dəhlizi”nin tikintisinin başlanılması mərasimində.

# “Rossiya-24” telekanalının “Formula Vlasti” verilişində faşizm üzərində Qələbənin qazanılmasında Azərbaycanın mühüm rolundan da bəhs olunub

## Verilişdə Prezident İlham Əliyevin TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsindən bir hissə yayımlanıb




Rusiyanın “Rossiya-24” televiziya kanalında mayın 10-da efirə gedən “Formula Vlasti” verilişinin Böyük Vətən müharibəsində Qələbə gününə həsr olunan buraxılışında bu müharibədə Qələbənin qazanılmasında Azərbaycanın da mühüm rolundan bəhs edilib, dövlət başçısının Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsindən bir hissə yayımlanıb.

AZƏRTAC xəbər verir ki, “Formula Vlasti” verilişinin Qələbə gününə həsr olunan buraxılışında müharibənin tarixindən, partizan hərəkatından danışılır. Verilişdə bir sıra dövlət və hökumət başçılarının, rəsmi şəxslərin, BMT-nin Baş katibi Antonio Quterreşin müsahibələri və çıxışlarından da hissələr verilib.

Verilişdə Böyük Vətən müharibəsində dünya ölkələrinin və xalqlarının həm ön, həm də arxa cəbhədə faşizmə qarşı mübarizəsindən bəhs olunur, onların Qələbə naminə xidmətləri vurğulanır. Bu baxımdan böyük Qələbənin əldə olunmasında Azərbaycanın da rolu xüsusi qeyd edilir.

Verilişdə dövlət başçısının Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsindən bir hissə də yayımlanıb.

Diktor qeyd edib ki, Azərbaycandan 120-dən çox Sovet İttifaqı Qəhrəmanı var. Müharibə illərində Azərbaycan zavodları fasiləsiz olaraq hərbi texnika, o cümlədən məşhur “Katyuşa”ları istehsal edirdi. Azərbaycan Sovet Ordusunu neftlə 70 faiz, yanacaqla 80 faiz, sürtkü yağları ilə 90 faiz təchiz edirdi.

**Prezident İlham ƏLİYEV** deyib: “Azərbaycan bizim ümumi qələbəmizə sanballı töhfə verib. Yanacaq-sürtkü materiallarının əsas bazası Azərbaycan idi. Bu da təsadüfi deyil ki, faşist Almaniyası məhz Bakını tutmaq niyyətində idi. Bu məşhur kadrlar dəfələrlə nümayiş etdirilib: Hitlerə təqdim edilən bayram tortunun üzərində “Xəzər dənizi” sözləri yazılmışdı. Hətta belə bir forma məxsusi olaraq Xəzər dənizinin sərhədlərini göstərirdi, Hitler də svastikanı həmin nöqtəyə qoymuşdu. Adətən mayın 9-da mən həmişə veteranlarla görüşürəm, biz söhbət edirik, həlak olanların xatirəsini ehtiramla yad edirik, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Hər dəfə onlarla ünsiyyətdə olanda, sanki enerji alırsan. Özü də onların çoxunun yaşı 90-ı keçib, hətta 100-ü haqlayanlar da var. Lakin əvvələn, fiziki baxımdan onlar möhkəm olduqlarını nümayiş etdirirlər. Ən başlıcası, onların mənəvi ruhu, nikbinliyi və həyatsevərliyi, əlbəttə, bizi heyrətləndirir, təəccübləndirir və biz onlarla yalnız fəxr edə bilərik”.

# Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

3. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

4. Müəyyən edilsin ki:

4.1. bu Fərmanın 1-3-cü hissələri ilə əsasnamələri təsdiq edilən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti müvafiq olaraq, Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin və Azərbaycan Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin hüquqi varisləridir, onların bütün hüquq və öhdəlikləri, habelə əmlakı aidiyyəti üzrə yuxarıda adları çəkilən dövlət xidmətlərinə keçir;

4.2. bu Fərmanın 1-3-cü hissələri ilə əsasnamələri təsdiq edilən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin hər birinin yeni strukturu və strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı təsdiq edilənə qədər Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin və Azərbaycan Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar fəaliyyətlərini davam etdirirlər və onların strukturu, işçilərinin say həddi, vəzifə maaşları, əməyin ödənilməsi sistemi, xidmətkeçmə ilə bağlı hüquq və vəzifələri bu Fərmanın 9.1-9.4-cü bəndləri icra olunanadək dəyişməz qalır.

5. “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 162; 2005, № 9, maddə 797; 2006, № 5, maddə 400; 2007, № 4, maddə 323, № 12, maddə 1246; 2008, № 11, maddə 972; 2009, № 10, maddə 780, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2013, № 2, maddə 111, № 7, maddə 806; 2016, № 6, maddə 1038; 2017, № 2, maddə 183, № 5, maddə 842, № 10, maddə 1783; 2018, № 12 (I kitab), maddə 2572; 2019, № 3, maddə 409; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 766 nömrəli Fərmanı) ləğv edilsin.

6. “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 516 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 522; 2018, № 1, maddə 39, № 9, maddə 1838; 2019, № 2, maddə 218, № 3, maddə 410, № 4, maddə 618, № 6, maddə 1037) 1-ci hissəsi ləğv edilsin.

7. “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 aprel tarixli 888 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 693; 2017, № 1, maddə 47; 2018, № 4, maddə 658) 1-ci hissəsi ləğv edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954) “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.3-cü bəndə “təşkilatları ilə” sözlərindən sonra “, habelə digər hüquqi və fiziki şəxslərlə” sözləri əlavə edilsin;

8.2. 2.0.22-ci yarımbəndə “metrologiya,” sözündən sonra “texniki tənzimləmə,” sözləri əlavə edilsin;

8.3. 3.0.5-ci yarımbəndə “dövlət büdcəsinə vergilərin” sözlərindən əvvəl “strukturuna daxil olan müvafiq qurum vasitəsilə” sözləri əlavə edilsin;

8.4. 3.0.88-ci yarımbəndə “reklam” sözündən əvvəl “strukturuna daxil olan müvafiq qurum vasitəsilə” sözləri əlavə edilsin;

8.5. aşağıdakı məzmunda 3.0.91-1-ci, 3.0.91-2-ci, 3.0.91-3-cü və 3.0.91-4-cü yarımbəndlər əlavə edilsin:

“3.0.91-1. strukturuna daxil olan müvafiq qurum vasitəsilə insanların həyat və sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına yaratdığı təhlükənin dərəcəsindən asılı olaraq, malların (işlərin, xidmətlərin) yüksək, orta, aşağı risk qruplarının təyin edilmiş meyarlar üzrə təsnifatını müəyyən etmək;

3.0.91-2. strukturuna daxil olan müvafiq qurum vasitəsilə texniki reqlamentdə müəyyənləşdirilmiş əsas tələblərin təmin olunması məqsədilə istinad edilmiş standartların siyahısını təsdiq və dərc etmək;

3.0.91-3. strukturuna daxil olan müvafiq qurum vasitəsilə uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrini, habelə xarici mənşəli uyğunluq sənədlərinin tanınması nəticələrinin reyestrini aparmaq;

3.0.91-4. strukturuna daxil olan müvafiq qurum vasitəsilə istehlak bazarlarında texniki reqlamentlərin tələblərinə uyğun olmayan mallara nəzarət tədbirlərini həyata keçirmək, istehlakçıların təhlükəsizliyini təmin etmək məqsədilə texniki reqlamentlərin tələblərinə uyğun olmayan malların dövriyyədən çıxarılmasını təmin etmək və belə malların uçotunu aparmaq;”;

8.6. aşağıdakı məzmunda 5.5.3-1-ci yarımbənd əlavə edilsin:

“5.5.3-1. Nazirlik yanında dövlət xidmətlərinin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların əsasnamələrini və strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini təsdiq edir;”;

8.7. 5.5.4-cü yarımbənddə “yarımbəndinə” sözü “və 5.5.3-1-ci yarımbəndlərinə” sözləri ilə əvəz olunsun və həmin yarımbəndə “tabeliyindəki” sözündən sonra “, habelə strukturuna daxil olan qurumların tabeliyindəki” sözləri əlavə edilsin;

8.8. 5.5.7-ci yarımbəndə “ixtisas dərəcələri” sözlərindən sonra “və baş vergi xidməti müşaviri və ondan aşağı olan xüsusi rütbələr” sözləri əlavə edilsin.

9. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

9.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini beş ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin işçilərinin ümumi say həddi barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını beş ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında, onun strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

9.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2020-ci il*

*Fərmana edilmiş əlavələrlə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında Donor Sazişi imzalanıb

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun təşəbbüsü ilə cari il mayın 4-də keçirilmiş Hərəkatın COVID-19 virusu ilə mübarizəyə həsr olunmuş Zirvə görüşündə bu sahədə Qoşulmama Hərəkatının ən çox yardıma ehtiyacı olan üzv dövlətləri üçün Azərbaycan Hökuməti tərəfindən Ümumdünya Səhiyyə Təşkilatına ianənin ayrılmasını bəyan edib. AZƏRTAC xəbər verir ki, bununla bağlı cari il mayın 11-də Ümumdünya Səhiyyə Təşkilatının Cenevrədəki baş qərargahında “Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) arasında Donor Sazişi” imzalanıb.

Azərbaycan Respublikasının Cenevrədəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi səfir Vaqif Sadıqov və ÜST-ün Baş direktoru Tedros Qebreyesus tərəfindən imzalanmış Donor Sazişi Azərbaycan tərəfindən ÜST-ün “Strateji Hazırlıq və Cavab Planı” çərçivəsində “COVID-19 müraciəti” Fonduna 5 milyon ABŞ dolları məbləğində vəsaitin ayrılmasını və bu vəsaitin Azərbaycanla razılaşdırmaqla ən çox köməyə ehtiyacı olan Afrika, Asiya və Latın Amerikasında yerləşən Qoşulmama Hərəkatının üzv dövlətləri üçün istifadə edilməsini nəzərdə tutur.

Sənədin imzalanma mərasimi zamanı ÜST-ün Baş direktoru Azərbaycan tərəfindən verilmiş bu qərarın çox təqdirəlayiq olduğunu vurğulayaraq ölkəmizin səhiyyə sektoruna, xüsusilə hazırda COVID-19 virusuna qarşı beynəlxalq səviyyədə mübarizəyə yönəldiyi diqqət və qayğının yüksək qiymətləndirildiyini bildirib. Tedros Qebreyesus Azərbaycan tərəfindən COVID-19 virusu ilə mübarizə üçün ayrılmış könüllü maliyyə töhfəsinin qlobal həmrəyliyin nümunəvi nümayişi olduğunu diqqətə çatdıraraq verilmiş qərara görə Azərbaycan Respublikası Prezidentinə ÜST adından dərin minnətdarlığını ifadə edib.

Daimi nümayəndə V.Sadıqov, öz növbəsində, Azərbaycanın ÜST ilə əməkdaşlığa yüksək önəm verdiyini vurğulayıb və ölkəsi tərəfindən təşkilatın qlobal miqyasda COVID-19 virusuna qarşı mübarizə səylərinin yüksək qiymətləndirildiyini bildirərək pandemiya ilə bağlı ÜST-ün tövsiyələrinin Azərbaycan tərəfindən tətbiq edildiyini nəzərə çatdırıb.

Qeyd edək ki, BMT-nin ixtisaslaşmış qurumu kimi qlobal miqyasda beynəlxalq sağlamlığa cavabdeh olan Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın səhiyyə sahəsində əməkdaşlıq etdiyi əsas beynəlxalq tərəfdaşıdır. Azərbaycanın ÜST ilə əməkdaşlığı təşkilatın Cenevrədəki baş qərargahı və Kopenhagendəki ÜST-ün Avropa üzrə Regional Ofisi vasitəsilə həyata keçirilir. Eyni zamanda, ÜST-ün ölkəmizdə ofisi mövcuddur.

# Azərbaycanda koronavirusa daha 104 yoluxma faktı qeydə alınıb, 55 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 104 yoluxma faktı qeydə alınıb, 55 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, arterial hipertoniya və şəkərli diabet xəstəliyi olan 1943-cü il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 2693 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1735 nəfər müalicə olunaraq sağalıb, 33 nəfər vəfat edib, 925 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 28 nəfərin vəziyyəti ağır, 42 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 202.282 test aparılıb.

# Milli Məclisin komitələrinin onlayn iclasları keçirilib

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin rəhbərliyi ilə "Könüllülər ili" çərçivəsində görüləcək işlərlə bağlı onlayn konfrans keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, konfransda parlamentin Sədr müavini Adil Əliyevlə yanaşı, deputatlar Kamal Cəfərov, Elnur Allahverdiyev, Könül Nurullayeva, Şahin İsmayılov, Şahin Seyidzadə və Ramin Məmmədov, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, habelə Milli Məclis Aparatının əməkdaşları iştirak ediblər.

İclası açan Adil Əliyev bildirib ki, koronavirus pandemiyası bütün dünyanı iflic etsə də, dövlətimizin başçısının səyləri ilə xəstəliyin Azərbaycanda yarada biləcəyi fəsadlar minimuma endirilib. O, ölkəmizdə tibbi maska istehsal edən müəssisə və mobil xəstəxanaların açılmasına diqqət çəkərək Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycanın pandemiyaya qarşı apardığı mübarizə təcrübəsinin digər ölkələrə də tövsiyə etməsi faktını xüsusi vurğulayıb.

Sədr müavini gənclər və könüllü siyasətinin daim dövlətin diqqət mərkəzində olduğunu, könüllülərdən istifadə edilməsinin vacibliyini qeyd edib, post pandemiya dövründə könüllülər və gənclərlə bağlı görüləcək işlər barədə fikirlərini bölüşüb.

Tədbirdə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin, Regional İnkişaf İctimai Birliyinin, "Bir" tələbə könüllü proqramının, Tələbə Gənclər Təşkilatı İttifaqının, ASAN könüllülərinin, Miqrasiya könüllülərinin, Aqrar könüllülərinin, Elsanın, Avropa Gənclər Parlamentinin, Böyük İpək Yolunun, Gənc Müəllimlər Assosiasiyasının, Gənclər Təşkilatı Milli Şurasının rəhbərləri təmsil etdikləri qurumların gördükləri işlər barədə məlumat veriblər.

"Könüllülər ili" çərçivəsində görüləcək işlər barədə aparılan müzakirələrin sonunda bu sahədə görülən işlərin genişləndirilməsi məqsədilə Bəyannamə qəbul edilib. Bəyannamədə Azərbaycan Prezidentinin 2019-cu il 30 dekabr tarixli Sərəncamında nəzərdə tutulmuş tövsiyələrə uyğun gənclərin potensialının düzgün dəyərləndirilməsinin vacibliyi qeyd edilib. Sənəddə könüllülərin koronavirus pandemiyasına qarşı mübarizədə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın çağırışlarına cavab olaraq, tənha yaşlılara, az-təminatlı ailələrə baş çəkməsi və onlara zəruri ehtiyaclarının qarşılanmasına kömək göstərilməsi ilə bağlı məsələlərin daim diqqət mərkəzində saxlanmasının zəruriliyi qeyd edilib.

* * *

Mayın 12-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin növbəti iclası keçirilib.

İclası açan Milli Məclis Sədrinin müavini, komitə sədri Fazil İbrahimli müzakirəyə təqdim edilən məsələ barədə məlumat verib. Vurğulanıb ki, "Hərbi qulluqçuların statusu haqqında", "Dini etiqad azadlığı haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Daxili qoşunların statusu haqqında", "Veteranlar haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Torpaq islahatı haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Xidməti və mülki silah haqqında" qanunlara - bütövlükdə 14 sənədə təklif edilən dəyişiklik 2018-ci il 31 may tarixli "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun icrası ilə əlaqədardır.

Bildirilib ki, təklif olunan dəyişikliklər ölkəmizin qoşulduğu beynəlxalq konvensiyaların tələblərinə uyğun olmaqla, bu sahədə mütərəqqi dünya təcrübəsinə əsaslanır. Yuxarıda adı çəkilən qanuna uyğun olaraq sözügedən sənədlərdə mövcud olan bir sıra terminlər dəqiqləşdirilib.

İclasda çıxış edən komitə üzvləri Sahıb Alıyev, Cavanşir Paşazadə, Anar İsgəndərov, Sevinc Fətəliyeva, Malik Həsənov, Azər Badamov, Ceyhun Məmmədov, İqtisadi və sosial qanunvericilik şöbəsinin sektor müdiri Adil Vəliyev təklif edilən dəyişikliklərin ölkəmizdə əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına, onların şərəf və ləyaqətinin müdafiəsinə yönəldiyini diqqətə çatdırıblar.

İclasın sonunda qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

* * *

Mayın 12-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclası keçirilib.

Parlamentin Mətbuat xidmətindən bildiriblər ki, iclası açan komitənin sədri Ziyafət Əsgərov gündəliyə 4 qanun layihəsinin daxil edildiyini diqqətə çatdırıb. Bunlar "Hərbi qulluqçuların statusu haqqında", "Dini etiqad azadlığı haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Daxili qoşunların statusu haqqında", "Veteranlar haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Torpaq islahatı haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", həmçinin "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Torpaq bazarı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə", o cümlədən "Onkoloji yardım haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Atçılıq haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", həmçinin "İnsanın immun çatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "İcbari sığortalar haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Mədəniyyət haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihələridir.

Komitə sədri qeyd edib ki, hər 4 qanun layihəsi "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 2018-ci il 31 may tarixli qanunun icrası ilə əlaqədar hazırlanmış və uyğunlaşdırma xarakteri daşıyır. Bildirilib ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun ölkəmizin qoşulduğu beynəlxalq konvensiyaların tələblərinə uyğun olmaqla, bu sahədə mütərəqqi dünya təcrübəsinə uyğun qanunvericiliyin formalaşdırılmasına xidmət edir. Həmin qanunla bu sahədə mövcud olan bir sıra terminlər dəqiqləşdirilmiş, o cümlədən "əlil" ifadəsi əvəzinə "əlilliyi olan şəxs", "əlillik qrupu" ifadəsi əvəzinə "əlillik dərəcəsi", "qüsur" sözü əvəzinə "pozuntu" sözündən istifadə edilib. Bu da əlilliklə bağlı dövlət siyasətinin mühüm prinsiplərindən olan əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına, onların şərəf və ləyaqətinin müdafiəsinə yönəlib.

Qeyd olunanlarla bağlı göstərilən qanun layihələrində texniki və terminoloji baxımdan uyğunlaşdırma xarakterli düzəlişlər edilir.

Onlayn iclasda çıxış edən komitə üzvləri Hikmət Məmmədov, Erkin Qədirli, Aydın Mirzəzadə, Bəxtiyar Sadıqov və Nizami Səfərov qeyd olunan dəyişiklikləri yüksək qiymətləndiriblər, layihə barədə qeyd və təkliflərini veriblər.



Müzakirələrdən sonra gündəlikdəki 4 qanun layihəsinin hamısı Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

Onlayn iclasda komitə üzvləri Aqil Abbas, Əminə Ağazadə, Kamal Cəfərov, Elşad Mirbəşir oğlu, Oqtay Əsədov, Nurlan Həsənov, Elman Məmmədov və Arzu Nağıyev iştirak ediblər.

* * *

Mayın 12-də Milli Məclisin Elm və təhsil komitəsinin onlayn iclası keçirilib.

Bu barədə parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Komitənin sədri Bəxtiyar Əliyev bildirib ki, gündəlikdə "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi var. Komitə sədri diqqətə çatdırıb ki, qanun layihəsi Prezident İlham Əliyevin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli fərmanından irəli gələn məsələlərlə əlaqədar hazırlanıb. Həmin fərmana əsasən Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılıb və onun nizamnaməsi təsdiq edilib. "Təhsil haqqında" qanuna təklif olunan dəyişikliklər də bununla bağlıdır.

"Dövlət rüsumu haqqında" qanuna təklif olunan dəyişikliklər isə "Təhsil haqqında" qanuna təklif olunan dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınması bir xidmət növü kimi müəyyən edildiyindən və həmin xidmətə görə xidmət haqqı tutulduğundan "Dövlət rüsumu haqqında" qanunda müvafiq dəyişiklik edilir və xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınmasına görə dövlət rüsumu ləğv edilir.

Onlayn iclasda çıxış edən komitə üzvləri Ceyhun Məmmədov, Şahin Seyidzadə, Etibar Əliyev və İsa Həbibbəyli qanun layihəsinin qəbulunun vacibliyindən danışıblar.

İclasda komitə üzvləri Musa Qasımlı, Aqiyə Naxçıvanlı, Ülviyyə Ağayeva, Tamam Cəfərova, Kamilə Əliyeva, Afət Həsənova, Rafael Hüseynov, Anar İsgəndərov, Pərvin Kərimzadə, Eldar Quliyev, Müşfiq Məmmədli və Fatma Yıldırım iştirak edirdilər.

İclasın sonunda gündəlikdəki məsələ yekdilliklə üçüncü oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

* * *

Mayın 12-də Milli Məclisin Aqrar siyasət komitəsinin iclası olub.

Komitənin sədri Tahir Rzayev gündəlik barədə məlumat verib. Bildirib ki, iclasın gündəliyinə parlamentə bir zərfdə daxil olmuş 4 qanun layihəsi daxildir.

Qeyd olunub ki, həmin qanun layihələrindəki "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında" və "Atçılıq haqqında" qanunlarda, həmçinin Torpaq Məcəlləsində dəyişiklik edilməsinə dair məsələlər Aqrar siyasət komitəsinə aiddir. Təqdim edilmiş qanun layihələrinin hamısı uyğunlaşdırma xarakteri daşıyır və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 2018-ci il 31 may tarixli qanunun tətbiqi məqsədilə hazırlanıb. Adı çəkilən qanunlarda bir sıra terminlər dünya təcrübəsinə uyğun olaraq dəqiqləşdirilib, "əlil" ifadəsi "əlilliyi olan şəxs", "əlillik qrupu" ifadəsi isə "əlillik dərəcəsi" ifadəsi ilə əvəzlənib; "qüsur" sözü əvəzinə "pozuntu" sözündən, "lal, kar, kor" sözləri əvəzinə "görmə, eşitmə və nitq qabiliyyəti məhdud" ifadələrindən istifadə edilib. Tahir Rzayev vurğulayıb ki, əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması ölkəmizdə yürüdülən dövlət siyasətinin mühüm prinsiplərindəndir.

Müzakirə zamanı deputatlar Eldar İbrahimov, Cavanşir Paşazadə, Novruzəli Aslanov, Azər Badamov, Aydın Hüseynov, İqbal Məmmədov, Eldəniz Səlimov, Müşfiq Cəfərov, Emin Hacıyev, komitənin sədr müavini Sabir Hacıyev rəy və təkliflərini bildiriblər. Çıxışlarda vurğulanıb ki, ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişafında aqrar sahənin rolu böyükdür. Müstəqillik dövründə parlamentdə aqrar sahəyə dair 300-ə yaxın məsələ müzakirə olunub, qanunvericilik aktlarının hazırlanmasında deputatlar yaxından iştirak ediblər. Həmin qanunlar ərzaq təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Fikir mübadiləsində "Hərbi qulluqçuların statusu haqqında", "Dini etiqad azadlığı haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Daxili qoşunların statusu haqqında", "Veteranlar haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Torpaq islahatı haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Xidməti və mülki silah haqqında" qanunlarda dəyişiklik edilməsi vacib sayılıb.

Deputatlar "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Torpaq bazarı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" qanunlarda və 1997-ci ilin 3 oktyabrında təsdiqlənmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsinə müsbət münasibət bildiriblər.

İclasda "Onkoloji yardım haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Atçılıq haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi razılıqla qarşılanıb.

Komitə üzvləri Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Mülki-Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Seçki Məcəlləsində, Mənzil Məcəlləsində, Gömrük Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində və Miqrasiya Məcəlləsində dəyişiklik edilməsini məqsədəuyğun sayıblar.

Müzakirələrin yekununda baxılan qanun layihələrinin dördü də Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Mayın 12-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti iclası keçirilib.

İclasda komitə sədri Musa Quliyev gündəliyə 11 məsələnin daxil edildiyini diqqətə çatdırdı.

Qeyd olundu ki, birinci məsələ "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir (birinci oxunuş). Digər on məsələ isə "Əlillərin hüquqları haqqında" qanunun qüvvəyə minməsi ilə əlaqədar müxtəlif qanunvericilik aktlarına uyğunlaşdırma xarakterli əlavə və dəyişikliklərdir.

Musa Quliyev bildirdi ki, ünvanlı dövlət sosial yardımı Azərbaycan dövlətinin əhalinin sosial müdafiəsi sahəsində həyata keçirdiyi sosial proqramlardan biridir. 2005-ci ildə "Ünvanlı dövlət sosial yardımı haqqında" qanun qəbul olunub. 2006-cı ildən bu qanun qüvvədədir. Sonra bu qanunda bir sıra əlavə və dəyişikliklər olub. Bu gün qanuna təklif olunan dəyişikliklər ünvanlı dövlət sosial yardımın verilməsi şərtlərinin yumşaldılması və əhatə dairəsinin genişləndirilməsi üçün hüquqi baza yaradır.

Diqqətə çatdırıldı ki, təqdim edilən qanun layihəsində 15 maddəyə 11 dəyişiklik təklif olunur. Dəyişikliklərin əsas məğzi ondan ibarətdir ki, ünvanlı sosial yardım alanların dövlət proqramına əlçatanlığı daha da genişlənsin. Digər düzəliş ünvanlı dövlət sosial yardımının 2 il müddətinə təyin olunması ilə bağlıdır. Dəyişikliyə əsasən 2 illik müddət artıq bir ilə endirilir. Təyinat müddətini qısaltmaqla, həm ailənin gəlirlərinin dəqiq müəyyənləşdirilməsi, həm də sosial yardım işlərinə nəzarət mexanizmi gücləndiriləcək. Qeyd edildi ki, qanun layihəsinə əsasən, növbəti illərdə ünvanlı dövlət sosial yardımı və özünüməşğulluq proqramlarının genişləndirilməsi, həmçinin aktiv özünüməşğulluğa yönləndirilməsi proqnozlaşdırılır.

İclasda iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov ünvanlı dövlət sosial yardımının verilməsi qaydaları, bu sahədə mövcud vəziyyət barədə məlumat verdi.

Müzakirələr zamanı komitə sədrinin müavini Məlahət İbrahimqızı, komitə üzvləri Jalə Əliyeva, Rauf Əliyev, İlham Məmmədov, Vüqar Bayramov, Səttar Möhbalıyev, Arzu Nağıyev, Sevinc Hüseynova, Soltan Məmmədov qanun layihəsi barədə fikirlərini açıqladılar. Qeyd edildi ki, təklif olunan düzəlişlər günün tələblərinə cavab verir və əhalinin maddi rifahının daha da yaxşılaşdırılmasına yönəlib. Deputatlar layihə ilə bağlı bir sıra təkliflər səsləndirdilər, bu sahədə bəzi narahatlıq doğuran məsələləri diqqətə çatdırdılar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirdi.

Milli Məclis Aparatının İqtisadi və sosial qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov da bəzi məsələlər barədə fikirlərini açıqladı.

Müzakirələrin sonunda "Ünvanlı dövlət sosial yardımı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olundu.

Sonra iclasda aşağıdakı 10 qanun layihəsinə baxıldı:

"Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu;

"Hərbi qulluqçuların statusu haqqında", "Dini etiqad azadlığı haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Daxili qoşunların statusu haqqında", "Veteranlar haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Torpaq islahatı haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Xidməti və mülki silah haqqında" qanunlarda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;

"Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Torpaq bazarı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" qanunlarda və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;

"Polis haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Dövlət qulluğu haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Psixiatriya yardımı haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;

"Yaşayış minimumu haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Əmək pensiyaları haqqında", "Sosial müavinətlər haqqında" qanunlarda və Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;

"Onkoloji yardım haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Atçılıq haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;

"İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "İcbari sığortalar haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Mədəniyyət haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu;

Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Mülki Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Seçki Məcəlləsində, Mənzil Məcəlləsində, Gömrük Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində və Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu;

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (birinci oxunuş).

Bildirildi ki, bu qanun layihələri "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 2018-ci il 31 may tarixli Qanunun icrası ilə əlaqədar hazırlanıb və uyğunlaşdırma xarakteri daşıyır.

Diqqətə çatdırıldı ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun ölkəmizin qoşulduğu beynəlxalq sənədlərin tələblərinə cavab verməklə, bu sahədə mütərəqqi dünya təcrübəsinə uyğun qanunvericiliyin formalaşdırılmasına xidmət edir. Həmin qanunla bu sahədə mövcud olan bir sıra terminlər dəqiqləşdirilib, o cümlədən "əlil" ifadəsi əvəzinə "əlilliyi olan şəxs", "əlillik qrupu" ifadəsi əvəzinə "əlillik dərəcəsi", "qüsur" sözü əvəzinə "pozuntu" sözündən istifadə edilib. Bu da əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına, onların şərəf və ləyaqətinin müdafiəsinə yönəlib.

Qeyd olunanlarla bağlı göstərilən qanun layihələrində texniki və terminoloji baxımdan uyğunlaşdırma xarakterli düzəlişlər edilib.

Gündəlikdəki son məsələ "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 25 avqust tarixli 285 nömrəli Qərarının ləğv edilməsi ilə bağlı idi. Bildirildi ki, bu məsələ də "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədardır.

Tədbirin sonunda bu qanun layihələri də Milli Məclisin plenar iclasına tövsiyə olundu.

**AZƏRTAC**

## Azərbaycan, Gürcüstan və Türkiyə parlamentlərinin beynəlxalq münasibətlər üzrə komitə sədrlərinin onlayn iclası olub

Mayın 12-də Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun, Türkiyənin Böyük Millət Məclisinin Xarici İşlər komissiyasının sədri Volkan Bozkırın və Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri İrakli Beraianın iştirakı ilə üçtərəfli onlayn iclas keçirilib.

Görüş barədə AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məlumat verib.

Səməd Seyidov deyib: "İlk olaraq qeyd etmək istərdim ki, bu, üç ölkənin beynəlxalq münasibətlər üzrə komitələrinin onlayn rejimdə keçirilən ilk iclası idi. Müvəffəqiyyətlə keçirilən iclasın təşkili üçün təşəbbüskar tərəf kimi Azərbaycana minnətdarlıq ifadə olundu. İclasda mövcud pandemiya dövründə məhdud imkanlar şəraitində üçtərəfli əlaqələrin genişlənməsinə dair fikir mübadiləsi aparıldı. Hər üç ölkənin komitə sədri çıxış edərək mövcud şərait ilə bağlı ölkəsindəki məsələləri diqqətə çatdırdı. Öz növbəmdə, Prezident İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Təmas Qrupunun videokonfrans vasitəsilə keçirilən Zirvə görüşlərində Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizə üsulları və təcrübəsi barədə təqdim etdiyi məlumatı həmkarlarıma çatdırdım.

İclasda, həmçinin hazırda karantin rejiminin yumşaldılması ilə bağlı yarana biləcək problemlər də gündəmə gətirilib. Tərəfimdən Operativ Qərargah ilə Türkiyə və Gürcüstanda da fəaliyyət göstərən müvafiq qurumlar arasında əlaqənin yaradılması, bu istiqamətdə məsələlərin müzakirəsi təklif edildi.

Bundan başqa, parlamentin yalnız Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin deyil, eləcə də səhiyyə, mədəniyyət, sosial məsələlər üzrə komitələrinin, hətta gələcəkdə parlamentlərarası üçtərəfli görüşlərin keçirilməsi məsələsi də müzakirə edildi.

Müzakirə edilən mühüm məsələlərdən biri də işğal altında olan ərazilərimizdə qeyri-qanuni "seçkilərin" keçirilməsi oldu. Hər iki həmkarım müddəalarında ölkənin ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, dövlətin suverenliyini ehtiva edilən Ankara Protokolunu dəstəklədi.

Eyni zamanda, işğal olunmuş ərazilərdə keçirilmiş "seçkilər" ilə bağlı bəyanatı bir daha vurğuladıq, bunun dünya ictimaiyyətinə çatdırılmasının borcumuz olduğunu bildirdik. Bu məsələ üzrə də hər üç ölkənin komitə sədrləri razılığa gəldi.

Ölkələrimiz arasında əlaqələrin ümumi şəkildə inkişafı da aparılan müzakirə və fikir mübadiləsində öz əksini tapdı. Azərbaycan-Gürcüstan-Türkiyə arasında enerji layihələrinin, Bakı-Tbilisi-Qars dəmir yolunun daha operativ və səmərəli inkişafı, eləcə də üç ölkə arasında əlaqələrin genişlənməsi məsələləri müzakirə obyektinə çevrildi.

Həmçinin beynəlxalq təşkilatlarda da birgə fəaliyyət göstərmə məsələsini də gündəmə gətirdik. Mən xüsusilə həm Türkiyəyə, həm Gürcüstana, həm də Azərbaycana qarşı tamamilə əsassız müdaxilələrin, təsirlərin qarşısını almaq üçün birgə fəaliyyət göstərməli olduğumuzu qeyd etdim. Bu qeyd də həmkarlarım tərəfindən müsbət qarşılandı.

Biz postpandemiya dövründə sərhədlərin açılması ilə turizmin inkişafı, gələcək münasibətlərimiz ilə bağlı müzakirələr də apardıq. Görüşün sonunda Türkiyənin Böyük Millət Məclisinin Xarici İşlər komissiyasının rəhbəri Volkan Bozkırın dəvəti ilə növbəti görüşün gələn il Ankarada keçirilməsinə dair razılığa gəldik".

# Azərbaycanı tərəqqiyə aparan dahi şəxsiyyət

Müasir dövrdə Azərbaycan dayanıqlı inkişaf edən və qlobal miqyasda davamlı olaraq nüfuzunu artıran bir dövlətdir. Müstəqilliyinin ilk illərində suveren dövlət kimi yox olmaq təhlükəsi ilə üzləşmiş Azərbaycanın qısa tarixi zaman kəsiyində hərtərəfli inkişafa nail olması bir çox hallarda böyük təəccüblə qarşılanır.



Danılmaz həqiqətdir ki, belə bir möhtəşəm nəticənin əldə edilməsi milli maraqları hər şeydən üstün tutan, güclü siyasi iradəyə sahib olan, atdığı bütün addımlarında yüksək intellektə, böyük uzaqgörənliyə, zəngin həyat və idarəçilik təcrübəsinə əsaslanan fenomenal şəxsiyyət - Heydər Əliyev sayəsində mümkün olub.

Heydər Əliyev Azərbaycan dövlətini möhkəm təməllər üzərində quraraq və onun müstəqilliyini, suverenliyini əbədi edərək Azərbaycan xalqının Ümummilli Liderinə çevrilməyi bacarıb. Təsadüfi deyil ki, hazırda Heydər Əliyev memarı olduğu müstəqil Azərbaycan dövlətinin rəmzi hesab edilir. Bu gün dünyada Azərbaycan deyəndə Heydər Əliyev, Heydər Əliyev deyəndə isə Azərbaycan yada düşür.

Dahi şəxsiyyət və müdrik siyasi xadim olan Heydər Əliyev, sözün əsl mənasında, tarixin gedişatını xalqımızın xeyrinə dəyişə bilib və Azərbaycanın tərəqqisini təmin edə bilən yeni tarix yaratmağı bacarıb. Heydər Əliyev həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi hər iki hakimiyyəti müddətində xalqımız və dövlətçiliyimiz üçün milli maraqlara xidmət edən misilsiz və taleyüklü işlər görüb.

Təbii ki, bütün bunlar müxtəlif maneələrə, təhdidlərə, təzyiqlərə və hətta şəxsi həyatına olan təhlükələrə baxmayaraq, Ulu Öndərin vətənpərvərlik, Azərbaycan sevgisi, milli maraqlar, azərbaycançılıq, milli adət-ənənələrə bağlılıq və yeniliklərə həssaslıq kimi dəyərləri üstün tutması sayəsində mümkün olub. Bu isə bir daha Heydər Əliyev dühasının bütövlüyündən, Azərbaycan dövlətinin memarı kimi onun yüksək səviyyəli konstruktivliyindən, qlobal düşüncəyə sahibliyindən, misilsiz diplomatik məharətindən və professional idarəçilik keyfiyyətlərindən xəbər verir.

1969-cu ildə Azərbaycanda birinci dəfə hakimiyyətə gələn Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi 13 il ərzində milli maraqları nəzərə almaqla atdığı strateji addımlar və uğurla reallaşdırdığı irimiqyaslı tədbirlər sayəsində respublika iqtisadiyyatının və cəmiyyət həyatının bütün sahələrini sürətli inkişaf yoluna çıxara bilib. Heydər Əliyevin sovet dönəmindəki fəaliyyətinin məzmununu və missiyasını başa düşmək üçün Ulu Öndərin sonralar dediyi aşağıdakı fikirlərə diqqət yetirmək kifayətdir. Dahi şəxsiyyət belə deyirdi:

"... o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır".

Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlməsi çox ağır, böhranlı və keşməkeşli dövrə təsadüf edib. Bununla da Heydər Əliyev xalqımızın qurtuluşu və müstəqil Azərbaycan dövlətinin xilaskarı kimi taleyüklü və olduqca çətin bir missiyanı öz üzərinə götürmüş oldu.

Bu missiyanın öhdəsindən böyük məharətlə və layiqincə gələ bilməsi isə, Heydər Əliyevin xalqını və onun müstəqilliyini canından da çox sevməsindən, xalqına və dövlətinə qırılmaz tellərlə bağlı olmasından qaynaqlanırdı. Bunun mahiyyətini daha dolğun ifadə edə bilmək üçün 1993-cü ilin iyunun 15-də parlamentin sədri seçilən Heydər Əliyevin həmin gün etdiyi tarixi nitqindən sitat gətirmək yerinə düşər:

"...Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Dövlətçiliyimizi məhv olmaq təhlükəsindən qorumaq üçün yeganə ümid yerimiz olan Heydər Əliyev, həqiqətən də, yüksək fədakarlıq nümunəsi kimi ömrünün qalan hissəsini yalnız və yalnız müstəqil Azərbaycanın möhkəmlənməsinə və inkişaf etməsinə həsr etdi. Ulu Öndər öz doğma xalqının xilaskarı oldu. Heydər Əliyevin məqsədyönlü daxili və xarici siyasəti sayəsində Azərbaycan tənəzzül və xaosdan hərtərəfli tərəqqi və davamlı inkişaf yoluna qədəm qoydu.

Xüsusilə qeyd etmək lazımdır ki, iqtisadi və siyasi böhran, müharibə şəraitində olan ölkə imicinin Azərbaycana xarici sərmayələrin qoyulmasını qeyri-mümkün etdiyi bir şəraitdə Heydər Əliyevin siyasi lider kimi yüksək beynəlxalq nüfuzu və diplomatik istedadı sayəsində "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyasının reallaşdırılmasına başlanıldı. Bu fakt Azərbaycanın böhrandan çıxması və dövlət müstəqilliyimizin möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyətə malik olan tarixi hadisə və nailiyyət hesab olunur. Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının ölkəmiz üçün strateji önəmini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aşağıdakı fikirləri çox dəqiq ifadə edir:

"İndi təsəvvür etmək çətindir ki, əgər 1994-cü ildə "Əsrin kontraktı" imzalanmasaydı, biz hansı vəziyyətlə üzləşə bilərdik... Biz heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparmaq imkanlarımız, ilk növbədə, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanları da bizə "Əsrin kontraktı" yaratdı".

Eyni zamanda bu gün fəxrlə deyirik ki, 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının müəllifi məhz Heydər Əliyevdir. Şübhəsiz ki, yüksək professionallıqla hazırlanmış ali qanunumuz Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafına Ulu Öndər tərəfindən verilmiş əvəzolunmaz töhfələrdən biri hesab edilir.

Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın çiçəklənməsinə və daha da qüdrətlənməsinə xidmət edən zəngin dövlətçilik irsi, sözün əsl mənasında, Azərbaycan xalqının milli sərvətidir.

Artıq 17 ildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Ulu Öndərin dövlətçilik ənənələri layiqli şəkildə davam etdirilir, zənginləşdirilir və yeni dövrün tələblərinə uyğun inkişaf etdirilir. Məhz dövlət başçısı cənab İlham Əliyevin sayəsində bu gün ölkəmiz regional və qlobal məsələlərin həllində fəal aktorlardan birinə çevrilib. Bu isə onu deməyə əsas verir ki, dahi lider və müdrik siyasətçi olan Heydər Əliyev Azərbaycan dövlətinin memarı və qurucusu olmaqla yanaşı, həm də dövləti layiqli şəkildə idarə edə bilən etibarlı siyasi varis yetişdirməyi bacaran müəllim idi.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

# "Kitaba qayıdaq" missiyası bu gün daha aktualdır

## "Azərkitab"ın onlayn konfransında bu vacib məsələ bir daha xatırladıldı

Mayın 9-da "Azərkitab"ın layihə rəhbəri Sabir Həsənovun təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə, Şuşa şəhərinin işğalının 28-ci, 1941-1945-ci illər müharibəsində qələbənin 75 illiyinə həsr edilmiş internet-vizual konfrans keçirildi.




Koronavirus pandemiyasının bütün dünyada tüğyan etdiyi bir dövrdə konfransı Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qaydalara uyğun, onlayn formatda keçirilməli olduğunu qeyd edən Sabir Həsənov xatırlatdı ki, "Azərkitab" artıq 3 ildir "Kitaba qayıdaq" missiyası ilə fəaliyyət göstərir: "Məqsədimiz mütaliəyə maraq oyatmaq, regionlarda kitab təbliğatı işini inkişaf etdirmək, gənclərimizi savadlı və vətənpərvər ruhda tərbiyələndirmək, onları pis vərdişlərdən çəkindirməkdir. Kitabı mənəvi zənginliyə və elmə yiyələnməyin açarı hesab edən Ümummilli Lider Heydər Əliyev hər bir kəsə, əsasən də gənclərə daim mütaliə etməyi, kitaba bağlı olmağı tövsiyə etmişdir. Xalqımızın böyük oğlu, müasir Azərbaycanın memarı, Ulu Öndər Heydər Əliyev elmə, təhsilə, ədəbiyyata, mədəniyyətə çox böyük dəyər verirdi. Bu gün həmin siyasət Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Elm, təhsil, mədəniyyət və digər sahələrdəki nailiyyətlərimiz dediklərimə sübutdur. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın milli irsimizə, muğam sənətinə, folklorumuza, tarixi abidələrimizə göstərdiyi diqqət və qayğı isə xalqımızın mədəniyyətini bütün dünyaya tanıtmışdır..."

Konfrans iştirakçıları çıxışlarında qeyd etdilər ki, bugünkü nəsil çox ağır bir imtahan qarşısındadır: bütün dünya pandemiyadan əziyyət çəkir. Yeganə çıxış yolumuz dövlətimiz tərəfindən qəbul olunan bütün qərarlara hörmət etmək, həmrəylik göstərməklə sosial mədəniyyətə sahib olmaqdır.

"Azərkitab"ın fəaliyyətinin ən vacib hissəsi də gələcəkdə baş verə biləcək xoşagəlməz hadisələrin qarşısının alınmasında maarifləndirici təbliğat işlərinin aparılmasıdır. Kollektiv çalışır ki, bu sahədə də öz işlərini xalqımızın sağlamlığı naminə yüksək səviyyədə qursun: "Bəli, ölkəmizin davamlı inkişafı, Azərbaycanın qüdrətli bir dövlət kimi dünyada tanıdılması üçün peşəkar kadrlara, ixtisaslı mütəxəssislərə və sağlam düşüncəli sahibkarlara, o cümlədən savadlı gənclərə çox böyük ehtiyac var. Bütün bunların kökündə isə kitab, elm, mütaliə mədəniyyəti dayanır".

Son 2 ayda - pandemiya dövründə Azərbaycan Prezidenti tərəfindən vaxtında qabaqlayıcı tədbirlərin görülməsi xalqımızın az itki ilə təhlükəsizliyini təmin edib: "...Lakin təəssüfedici məqama da toxunmaq istərdim. Nədənsə bəzi məsuliyyətsiz insanlar Operativ Qərargahın qəbul etdiyi qərarlara əməl etmir. Bunun da nəticəsində ölkəmizdə son günlər virusa yoluxanların sayının artması müşahidə edilir. Ciddi düşünməliyik. Axı dövlətimiz və onun başçısı xalqımızın sağlamlığının hər şeydən vacib olduğunu dəfələrlə bildirib və bütün qabaqlayıcı, profilaktik tədbirlər də buna hesablanıb. Ona görə də bir daha "Azərkitab"ın kollektivi hər kəsi qəbul olunmuş qaydalara əməl etməyə çağırır. Zəruri olmadığı halda evdən çıxmayaq, sağlam qalaq".

Konfransda ölkəmizin elm, təhsil, mətbuat və incəsənət sahəsində tanınmış ziyalılarından Çingiz Abdullayev, Jalə Əliyeva, Qulu Məhərrəmli, Əflatun Amaşov, Vüqar Rəhimzadə, Rəşad Məcid, Misirxan Həsənov və Azad Şükürov iştirak edirdilər.

Konfransın gündəliyindəki hər üç mövzu ilə bağlı "Azərkitab"ın layihə rəhbərinin məruzəsi və onun ətrafında çıxışlar maraqla dinlənildi. Ümummilli Lider Heydər Əliyevin həyatından maraqlı vidiogörüntülər nümayiş etdirildi. Şairə Nurəngiz Günün "Salamat ol, ağca yol" poemasından parçalar səsləndi. Şuşa şəhərinin işğalından söz açıldı, Böyük Vətən müharibəsində keçmiş sovet xalqlarının faşizm üzərindəki qələbəsindən danışıldı. İki saatdan artıq çəkən konfrans izləyicilərin marağına səbəb oldu.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Ümumdünya Səhiyyə Təşkilatı COVID-19-a qarşı mübarizədə Azərbaycanın gördüyü işləri yüksək qiymətləndirib

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb.



AZƏRTAC xəbər verir ki, məktubda Baş direktor COVID-19-a qarşı mübarizədə qabaqlayıcı tədbirlər həyata keçirdiyi üçün Azərbaycan Hökumətinin gördüyü işləri yüksək qiymətləndirib. Eyni zamanda o, Azərbaycan Respublikası Prezidentinin milli, regional və qlobal səviyyələrdə çoxtərəfli diplomatiyaya və həmrəyliyə dəstəyini nümunəvi adlandırıb və bunun Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilmiş ardıcıl tədbirlər zamanı aydın şəkildə özünü büruzə verdiyini xüsusilə qeyd edib.

ÜST-ün Baş direktoru 2020-ci il aprelin 10-da Prezident İlham Əliyevin sədrliyi ilə COVID-19-la bağlı Türk Şurasının videokonfrans formatında keçirilmiş fövqəladə Zirvə görüşünün əməkdaşlığı daha da gücləndirdiyini və hər iki təşkilat arasında əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini bildirib.

Qoşulmama Hərəkatının videokonfrans formatında təşkil olunan Zirvə görüşünə toxunan T.Gebreyesus tədbirin çox uğurla keçirilməsinə görə Azərbaycan Respublikasının Prezidentini təbrik edib və bunu mükəmməl bir təşəbbüs adlandırıb. O, Azərbaycan Prezidentinin sədrliyi ilə keçirilmiş tədbirdə qəbul edilmiş yekun bəyannaməyə uyğun olaraq Hərəkata üzv dövlətlərin əsas ehtiyaclarını özündə ehtiva edən məlumat bazasının işlənib hazırlanması istiqamətində İşçi Qrupun yaradılmasının nəzərdə tutulduğunu bildirib və ÜST-ün İşçi Qrupun səylərini dəstəkləməyə hazır olduğunu qeyd edib.

Eyni zamanda T.Gebreyesus COVID-19-un səbəb olduğu təhdidlərlə mübarizədə qlobal, regional və ölkə səviyyəsində ÜST-ün Azərbaycanla əməkdaşlığa hazır olduğunu bildirib.

Yekunda ÜST-ün Baş direktoru Azərbaycan Respublikasının Prezidentinə dərin hörmətini və ehtiramını çatdırıb.

# MDB Xarici İşlər Nazirləri Şurasının videokonfrans formatında iclasında 14 məsələ müzakirə olunub

Mayın 12-də Müstəqil Dövlətlər Birliyi (MDB) Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) videokonfrans formatında iclası keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycan, Belarus, Rusiya, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan, Ermənistan Xarici İşlər nazirləri və MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi iştirak ediblər. İclasa sədrliyi Özbəkistanın Xarici İşlər naziri, MDB XİNŞ-in sədri Əbdüləziz Kamilov edib.

Çıxışlar zamanı tərəflər XİNŞ-in bugünkü görüşünün çətin zamanda - COVID-19 dövründə keçirildiyini qeyd edərək, pandemiya ilə bağlı vəziyyətin beynəlxalq əməkdaşlığın bütün sahələrinə təsir etdiyini vurğulayıblar. Pandemiya ilə əlaqədar bir sıra beynəlxalq tədbirlərin təxirə salınmasına baxmayaraq, bugünkü tədbirin təşkilinə görə Özbəkistan tərəfinə minnətdarlıq ifadə olunub.

XİN rəhbərləri çıxışlarında cari ilin 9 may tarixində Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75 illiyinin qeyd olunduğunu vurğulayaraq tarixin saxtalaşdırılması, nasist cinayətkarların qəhrəmanlaşdırılması cəhdlərini xüsusi olaraq pisləyiblər.

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov çıxışında, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunub və münaqişənin Birlik daxilindəki inteqrasiya potensialını tam və effektiv şəkildə reallaşdırmağa imkan vermədiyini və MDB-yə üzv dövlətlərin yeni çağırışlara və təhdidlərə qarşı daha sıx qarşılıqlı fəaliyyətinə əsas maneə olduğunu qeyd edib. Nazir BMT Nizamnaməsində, Helsinki Yekun Aktında, Paris Xartiyası və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində qeyd olunduğu kimi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində bütün vasitələrlə ərazi bütövlüyünü bərpa etmək hüququnun mövcudluğunu vurğulayıb.

Üç saat davam edən görüş çərçivəsində XİNŞ-in gündəliyinə daxil edilən 14 məsələyə baxılıb. O cümlədən beynəlxalq gənclər əməkdaşlığı, bədən tərbiyəsi və idman, mədəniyyət və digər əməkdaşlıq sahələrini əhatə edən mühüm sənədlər, habelə 2019-cu ildə MDB çərçivəsində çoxsəviyyəli XİN-lər arası məsləhətləşmələrin həyata keçirilməsi planı və 2020-ci il üçün plana dair qərar imzalanıb.

İclasın yekunu olaraq qəbul olunan sənədlərin bir qismi baxılması üçün MDB Hökumət Başçıları Şurasına, digər qismi isə MDB Dövlət Başçıları Şurasına təqdim olunacaq.

# *Elmar MƏMMƏDYAROV:* "Ermənistan-Azərbaycan münaqişəsi MDB daxilindəki inteqrasiya potensialını tam reallaşdırmağa imkan vermir"

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov mayın 12-də MDB Xarici İşlər Nazirləri Şurasının videokonfrans şəklində keçirilmiş iclasına qatılıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

İclasda çıxış edən Elmar Məmmədyarov deyib: "Bu görüş çətin bir vaxtda - COVID-19 pandemiyası dövründə keçirilir. Pandemiya şübhəsiz ki, beynəlxalq fəaliyyətə də təsir göstərir. Böhran səbəbindən bəzi görüşlər, səfərlər, eləcə də beynəlxalq tədbirlər təxirə salınıb. Lakin, eyni zamanda, bir çox görüşlərin bugünkü kimi, başqa bir formatda - videokonfrans şəklində keçirilməsinin şahidi oluruq".

Elmar Məmmədyarov pandemiyanın beynəlxalq səviyyədə əməkdaşlıq, qarşılıqlı yardım və əlaqələndirmənin səmərəliliyinin artırılmasının zəruriliyini açıq şəkildə nümayiş etdirdiyini vurğulayaraq bildirib ki, COVID-19 dünyanın qlobal böhranlara hazırlığının bir növ sınağına çevrildi.

Azərbaycanın həm ölkə daxilində, həm də dünyada koronavirus pandemiyası ilə mübarizədə fəal rol oynadığını, qlobal həmrəylik nümayiş etdirərək, Ümumdünya Səhiyyə Təşkilatına koronavirusla mübarizə üçün könüllü olaraq 10 milyon ABŞ dolları ianə ayırdığını deyən nazir respublikamızın, eyni zamanda, ayrı-ayrı ölkələrə də maddi və maliyyə yardımı göstərdiyini diqqətə çatdırıb.

Azərbaycanın koronavirusun ölkə daxilində yayılmasının qarşısını almaq üçün atdığı operativ və qabaqlayıcı addımlar barədə məlumat verən Elmar Məmmədyarov yaranmış şərtlərə uyğun olaraq məhdudlaşdırıcı tədbirlərin həyata keçirildiyini qeyd edib. O deyib: "Fevral ayında Azərbaycan Respublikası ərazisinə yeni koronavirus infeksiyasının gətirilməsi və yayılmasına dair ilkin xəbərdarlıq üzrə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Mart ayının əvvəlindən etibarən ölkədə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə dayandırıldı. Azərbaycanda planlaşdırılan bütün kütləvi tədbirlər təxirə salındı və ya ləğv edildi. Martın ortalarında bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi bir rejim, ayın sonlarından etibarən isə ölkədə xüsusi karantin rejimi tətbiq olundu".

Azərbaycan hökumətinin yaranmış çətinlikləri uğurla aradan qaldırmaq üçün bütün zəruri tədbirləri gördüyünü bildirən nazir dövlətin bütün resurslarının səfərbər edildiyini, müəyyənləşdirilmiş məqsədlərə çatmaq üçün onlardan səmərəli şəkildə istifadə olunduğunu diqqətə çatdırıb.

Qeyd edib ki, ölkə sərhədindən kənarda qalmış vətəndaşlarımızın təxliyəsi böhran şəraitində ən vacib vəzifələrdən birinə çevrildi. Hazırda yaranmış vəziyyətdə vətəndaşlarımızın digər ölkələrdən geri qaytarılması üçün bütün lazımi tədbirlər görülüb. Bu tədbirlər davam etdirilir və hazırda 20 minə yaxın Azərbaycan vətəndaşı Vətənə qaytarılıb. Dövri sərtləşdirilmiş məhdudlaşdırıcı tədbirlərin nəticəsi müsbət olub və son üç həftə ərzində Azərbaycanda müsbət tendensiya müşahidə olunur. Yəni koronavirusdan sağalmış insanların sayı yoluxmuş insanlardan çoxdur. Ölüm hallarının nisbətinin aşağı olması işin müsbət istiqamətdə aparıldığını göstərir. Mayın 4-dən etibarən Azərbaycan məhdudlaşdırıcı tədbirlərin yumşaldılmasının ikinci fazasına keçib.

"Hesab edirəm ki, MDB, COVID-19 koronavirus infeksiyasının yayılması ilə mübarizədə birgə səyləri müzakirə etmək, habelə milli səviyyədə həyata keçirdiyimiz tədbirlərlə bağlı təcrübə mübadiləsi, lazımlı vaxtda bir-birimizə dəstək nümayiş etdirmək və xalqlarımız arasında həmrəyliyi gücləndirmək üçün vacib bir platformadır.

Hazırkı gündəlik beynəlxalq gənclər əməkdaşlığı kimi humanitar əməkdaşlığın, eləcə də bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığın inkişafı kimi aktual məsələlərin müzakirəsini nəzərdə tutur. Azərbaycanda bu sahələrə böyük diqqət yetirilir. Humanitar və mədəniyyət sahələrində ənənəvi sıx əlaqələr ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün münbit zəmin təşkil edir.

Bununla əlaqədar, bugünkü iclasda Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin 2021-2030-cu illərdə bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığının inkişafı strategiyası layihəsi haqqında qərarın imzalanmasının vacibliyini qeyd etmək istərdim. Əminəm ki, bu strategiya bədən tərbiyəsi və idman sahəsindəki əməkdaşlığımızı əhəmiyyətli dərəcədə gücləndirməyə, vətəndaşların bədən tərbiyəsi və idmana cəlb edilməsində mühüm nəticələr əldə etməyə imkan verəcək", - deyə nazir vurğulayıb.

Çox qısa bir müddətdə Azərbaycanın müxtəlif beynəlxalq səviyyəli tədbirlərin, idman yarışlarının keçirildiyi mərkəzə çevrildiyini xatırladan Elmar Məmmədyarov bildirib ki, dövlətin idmana verdiyi dəstək, dövlət proqramlarının icrası beynəlxalq idman strukturları tərəfindən yüksək qiymətləndirilir. Son beş ildə respublikamızda bir çox idman növləri üzrə Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, həmçinin Dünya və Avropa çempionatları, Dünya Kubokları və Qran-Pri yarışları kimi beynəlxalq miqyaslı tədbirlər uğurla keçirilib. Bu il də ölkəmizdə yenidən mötəbər idman yarışlarının keçirilməsi planlaşdırılırdı. Onların arasında dörddəbir final da daxil olmaqla, futbol üzrə Avropa çempionatının dörd oyunu var. Lakin, koronavirus pandemiyası ilə əlaqədar olaraq, Avropa Futbol Assosiasiyaları Birliyi (UEFA) Avropa çempionatı üçün tarixləri 2020-ci ildən 2021-ci ilə keçirdi. Əminəm ki, bu gün qəbul olunan "Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin 2021-2030-cu illər üçün Beynəlxalq Gənclər Əməkdaşlıq Strategiyası haqqında" Qərar MDB çərçivəsində gənclərin əməkdaşlığını əhəmiyyətli dərəcədə genişləndirməyə, gəncləri dövlətlərimizin sosial-iqtisadi inkişaf problemlərinə daha fəal cəlb etməyə imkan verəcək.

Nazir deyib: "Bu gün dünyada hökm sürən reallıqlar sabitlik və təhlükəsizlik üçün yeni çağırışlara və təhdidlərə qarşı bütün dövlətlərin səmərəli qarşılıqlı fəaliyyətini və səylərinin əlaqələndirilməsini tələb edir. Lakin Birlik məkanında mövcud olan həll olunmamış münaqişələr, xüsusilə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Birlik daxilindəki inteqrasiya potensialını tam və effektiv şəkildə reallaşdırmağa imkan vermir və MDB-yə üzv olan dövlətlərin yeni çağırışlara və təhdidlərə qarşı daha sıx qarşılıqlı fəaliyyətinə əsas maneədir. Ermənistan rəhbərliyinin son açıqlamaları göstərir ki, Ermənistan tərəfi münaqişənin dinc yolla nizamlanması prosesinin aktivləşdirilməsinə mane olmaq üçün əlindən gələni edir və bununla da regional sabitliyə və təhlükəsizliyə yeni təhdidlər yaradır. Azərbaycan münaqişənin ən qısa zamanda siyasi həllinə sadiqdir. Bununla yanaşı, danışıqlar əbədi davam edə bilməz və danışıqlar güc tətbiqi, işğal və etnik təmizləmə nəticəsində yaranmış vəziyyətin davam etdirilməsinə və saxlanılmasına xidmət etməməlidir. Bir daha xatırlatmaq istərdim ki, BMT Nizamnaməsində, Helsinki Yekun Aktında, Paris Xartiyası və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində qeyd olunduğu kimi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində bütün vasitələrlə ərazi bütövlüyünü bərpa etmək hüququ vardır. Münaqişələrin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına əsaslanan tezliklə həlli, şübhəsiz ki, bölgədə regional və beynəlxalq təhlükəsizliyin, sosial tərəqqinin və regionda iqtisadi əməkdaşlığın möhkəmlənməsinə kömək edəcəkdir".

# İlham Əliyevin qlobal təşəbbüsü birləşdirici faktora çevrilir

## Azərbaycan Prezidenti pandemiyaya qarşı nümunəvi qərarları ilə dünya dövlətləri arasında həmrəyliyi və əməkdaşlığı daha da möhkəmləndirir

"Son nəticələr barədə danışmaq hələ tezdir, lakin aralıq nəticələr göstərir ki, biz doğru yoldayıq. Yeri gəlmişkən, bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz bu işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın Baş direktorunun mənə ünvanlanmış məktubunda Azərbaycan rəhbərliyinin gördüyü tədbirlər yüksək qiymətləndirilib, Azərbaycan nümunəvi ölkə, yəni bu bəlaya qarşı mübarizədə nümunə göstərən ölkə adlandırılıb". Bu fikirləri Prezident İlham Əliyev ötən həftə Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində söyləyib. Bununla yanaşı, "Mir" televiziya kanalına müsahibə verən dövlət başçısı əsasən Azərbaycanın qlobal pandemiyaya qarşı apardığı mübarizə, görülən qabaqlayıcı tədbirlərdən söz açıb.

### "Hadisələrin arxasınca getməyə yox, onları qabaqlamağa çalışdıq"

TASS informasiya agentliyinə daha ətraflı danışan Prezident görülən konkret tədbirlərdən söz açaraq bildirib ki, bütün ölkələrin əsas vəzifəsi bu xəstəliyin inkişafını, onun geniş yayılmasını yavaşıtmaq idi. Bir sıra başqa ölkələr kimi, Azərbaycana da bu virus kənardan gətirilib. Buna görə də qonşularla müvafiq məsləhətləşmələrdən sonra sərhədlərin bağlanması birinci mühüm addım olub. Lakin bundan sonra daxildə yoluxma halları başlayıb və buna görə də məhdudlaşdırıcı tədbirlərə start verilib: "Biz həmin tədbirləri şəraitə uyğun olaraq tətbiq etdik və hadisələrin arxasınca getməyə yox, onları qabaqlamağa çalışdıq, əks halda uğur qazana bilməzdik".

Prezident vurğulayıb ki, bununla yanaşı, dövlət xəstəxanalarının işi operativ surətdə tamamilə yeni formatda təşkil edilib və bu gün 20-dən çox dövlət xəstəxanasında koronaviruslu xəstələrin müalicəsi davam etdirilir. O cümlədən 575 çarpayılıq yeni ən müasir xəstəxana da bütünlüklə koronaviruslu xəstələrə təqdim edilib. Modul tipli xəstəxana tikilib və əlavə bir neçəsi də tikiləcək.

Pandemiya ilə mübarizədə hökumət operativ surətdə əlavə laboratoriyalar alıb. Hazırda 23 bu cür laboratoriya mövcuddur və lazım gəlsə, yenə də alınacaq. Milyon nəfərə düşən testlərin sayına görə, Azərbaycan lider ölkələr sırasındadır. 160 mindən çox test keçirilib. Bu, xəstəliyin yayılma ocaqlarının, o cümlədən regional baxımdan aşkar olunmasına kömək edir.

Bir sözlə, dövlət insanların sağlamlığını və həyatını qorumaq məqsədilə lap əvvəldən məhdudlaşdırıcı tədbirlər görüb və bu tədbirlər də özünü doğruldub. Düzgün həyata keçirilmiş tədbirlər kompleksi sayəsində hələlik bu vəziyyətdən minimum itkilərlə çıxa bilirik.

### 2 milyard dollarlıq sosial-iqtisadi yardım paketi

Dövlət pandemiyadan əziyyət çəkənlərə təqribən 2 milyard dollarlıq sosial-iqtisadi yardım paketi ayırıb. Bu paket, ilk növbədə, pandemiyadan əziyyət çəkən sahələrdə çalışan 700 minə yaxın insanı və mikro sahibkarları əhatə edir.

Dövlət iki ay ərzində onların əməkhaqlarının xeyli hissəsini ödəyəcək, çünki onlar praktiki olaraq işləmirlər. Bunlar 600 min aztəminatlı ailə və işsiz, hətta qeyri-formal sektorda məşğul olanlar, yəni əmək müqaviləsi olmayanlardır. Onlara 2 ay ərzində müəyyən məbləğ ödənilir ki, hətta əmək müqaviləsi olmayanlar da əməkhaqqı alsınlar. İndi bu adamlar qazancdan məhrum olublar.

Bununla yanaşı, hökumət ünvanlı sosial yardım alan ailələrin sayını artıraraq 80 minə çatdırıb, belə ailələrin hər biri orta hesabla 222 manat, yəni 130 dollar alır. Bundan əlavə, əməkhaqqı minimal səviyyədə, yəni 250 manat və ya təxminən 150 dollar səviyyəsində olmaqla, 90 min ödənişli ictimai iş yeri və 12 min özünüməşğulluq yeri yaradılır. Bu yerlər dövlət tərəfindən maliyyə və texniki kömək nəzərə alınmaqla cari ildə fəaliyyətə başlayacaq. Bu, həmin paketin yalnız bir hissəsidir. Vergi güzəştləri, vergi tətilləri də var.

Yəni dövlət bu məsələyə çox geniş yanaşaraq, ilk növbədə, insanları, onların sağlamlığını, həyatını qorumağa və ikinci növbədə isə iqtisadiyyatın inkişafını təmin etməyə çalışır.

### Pandemiya şəraitində də fasiləsiz nəqliyyat daşımaları həyata keçirilir

Azərbaycanla Rusiya Federasiyası arasındakı münasibətlərə də toxunan İlham Əliyev öncə Prezident Vladimir Putinlə dostluq münasibətlərindən söz açaraq əlaqələrin yüksələn xətlə inkişaf etdiyini deyib. Vurğulayıb ki, hətta pandemiya şəraitində də fasiləsiz nəqliyyat daşımaları həyata keçirilir:

"Biz tranzit-logistika sahəsində işləri intensivləşdirmək barədə razılığa gəlmişik. Ölkələr arasında, Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinə gəldikdə isə, əlbəttə, pandemiya mənfi təsirini göstərir. Lakin əminəm ki, biz müsbət əməkdaşlığı qoruyub saxlayacaq və genişləndirəcəyik".

Bununla yanaşı, nəqliyyat-logistika sahəsində də böyük planlar var. Bu gün fəal istifadə edilən Şimal-Cənub dəhlizi ilə yanaşı, Rusiyanın Şimal-Qərb nəqliyyat dəhlizinə qoşulması da Azərbaycanı sevindirir. Rusiyalı yükgöndərənlər Azərbaycandan Avropa istiqamətinə gedən bu marşrutdan istifadə edirlər. Elektroenergetika sahəsində elektrik enerjisi mübadiləsi, habelə çoxtərəfli əməkdaşlıq baxımından böyük potensial var. İki ölkə yüksəkvoltlu elektrikötürmə xətləri ilə bir-birinə bağlıdır.

Humanitar sahədə və neft-qaz sahəsində də vəziyyət yaxşıdır: "Bəlkə də çoxları bilmir, lakin Xəzər dənizinin Rusiya sektorunda Rusiya şirkətləri tərəfindən hasil edilən neftin bir hissəsi Azərbaycanın nəqliyyat infrastrukturu vasitəsilə nəql edilir. Yəni burada əməkdaşlıq yüksələn xətt üzrə davam edir".

### İki ayda iki böyük Zirvə görüşü

Cənab İlham Əliyev müsahibəsində son iki ayda öz təşəbbüsü ilə iki böyük təşkilatın Zirvə görüşlərinin keçirildiyini və bu konfransların əsas mövzusunun məhz qlobal böhrana həsr olunduğunu xatırladıb. Azərbaycanın bu məsələdə də ortaya nümunə qoyduğunu və növbəti ilkə imza atdığını deyən Prezident vurğulayıb ki, bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu getdikcə daha da yüksəldir.

Əlavə edək ki, hazırda Azərbaycan həm Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası), həm də Qoşulmama Hərəkatına rəhbərlik edir. Dövlət başçısı da bu konfransları tarixi hadisə adlandırır: "Qoşulmama Hərəkatının Zirvə görüşünü, həqiqətən, tarixi görüş adlandırmaq olar. Çünki əvvələn, o, yeni formatda, videokonfrans formatında keçirilirdi. İkincisi, Qoşulmama Hərəkatının Zirvə görüşləri, bir qayda olaraq, müəyyən dövriliklə keçirilir. Əgər bundan əvvəlki Zirvə görüşü keçən ilin oktyabrında Bakıda keçirilmişdisə, növbəti görüş 2022-ci ildə bizdən sonra sədrlik edəcək ölkədə keçirilməli idi. Buna görə Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın bu təşəbbüsü təbii ki, vaxtında irəli sürülmüşdü. Onu da deməliyəm ki, keçən ilin oktyabr ayında biz Qoşulmama Hərəkatında sədrliyi öz üzərimizə götürdük. Qeyd etməliyəm ki, Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir, çünki bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında, yumşaq desək, gərgin münasibətlər var".

Qeyd edək ki, bu görüşdən öncə, yəni aprelin 10-da Türk Şurasının Zirvə görüşü keçirilmiş və cənab İlham Əliyev türkdilli ölkələrə qlobal pandemiyaya qarşı Azərbaycan təcrübəsini bölüşmüşdü. Qoşulmama Hərəkatının növbəti Zirvə görüşünün keçirilmə təşəbbüsü isə aparıcı beynəlxalq təşkilatların rəhbərləri tərəfindən alqışlanmışdı. Yəni Prezidentin söylədiyi kimi, Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi: "Mənim təşəbbüsümlə biz dövlət və hökumət başçıları səviyyəsində BMT-nin koronavirusa həsr edilmiş xüsusi Baş Assambleyasının keçirilməsini təklif etdik. Hərəkatın üzvü olan ən həssas ölkələrə təxirəsalınmaz kömək göstərilməsi üçün biz Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırdıq. Bu, bizim ikinci donor ianəmizdir. Bundan əvvəl mart ayında da qlobal pandemiyaya qarşı mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırmışdıq. Qoşulmama Hərəkatında yaradılmış Təmas Qrupu formatı üzv ölkələr tərəfindən böyük dəstək alıb. Biz istiqamətlər üzrə yarımqruplar və COVID-19-a qarşı mübarizə üzrə vahid məlumat bazası yaradılmasını təklif etdik ki, həm Hərəkatın belə niyyəti olan üzvləri, həm beynəlxalq təşkilatlar, həm də donor təşkilatlar vaxtında yardım göstərmək üçün informasiya bazasına malik olsunlar. Mən deyərdim ki, Zirvə görüşünün keçirilməsinin əsas məqsədləri də, nəticələri də budur. Bir daha deməliyəm ki, bütün iştirakçılar bu görüşün vacibliyini, zəruriliyini qeyd etdilər, bu təşəbbüsə görə Azərbaycana təşəkkürlərini bildirdilər".

Göründüyü kimi, Azərbaycanın qlobal pandemiyaya qarşı apardığı mübarizə, Prezident İlham Əliyevin ortaya qoyduğu nümunə hər kəs tərəfindən təqdir edilir. Bəzi dövlətlər Azərbaycanın effektiv mübarizə metodundan və təcrübəsindən yararlanırlar. Bütün bunlar isə Azərbaycanın beynəlxalq nüfuzunu və reytinqini yüksəldir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Prokurorluğunda videokonfrans rejimində geniş əməliyyat müşavirəsi olub

Cari il mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni təyin olunmuş Azərbaycan Respublikasının Baş prokurorunu qəbul edərkən prokurorluq orqanlarında islahatların dərinləşdirilməsi ilə bağlı bir sıra mühüm və fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş fundamental xarakterli tapşırıqlar müəyyən edib.



Həmin tapşırıqların prokurorluq orqanlarının rəhbər şəxslərinə çatdırılması və onlardan irəli gələn qarşıda duran vəzifələrin icrası məqsədilə mayın 12-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə ölkə ərazisində qüvvədə olan xüsusi karantin rejimi qaydalarına riayət edilməklə videokonfrans rejimində keçirilmiş müşavirəyə Prokurorluğun Mərkəzi aparatının, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı Şəhər prokurorluqlarının rəhbər heyəti, rayon (şəhər) və ərazi hərbi prokurorları və digər şəxslər qatılıblar.

Əməliyyat müşavirəsində çıxış edən Baş prokuror göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya bir daha dərin təşəkkürünü ifadə edib. Qeyd olunub ki, Azərbaycan Prezidentinin hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi ilə həyata keçirilən mütərəqqi daxili və xarici siyasət nəticəsində ölkəmizin dayanıqlı inkişafı təmin edilib, cəmiyyətimizdə sabitlik, hüquq qaydası və qanunçuluq bərqərar olub, Azərbaycan dinamik inkişaf edən dövlətə çevrilib.

Bildirilib ki, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq hazırda ölkəmizdə yeni dövrün çağırışlarından irəli gələn tam və hərtərəfli islahatlar reallaşdırılır və dövlət idarəçiliyinin bütün sferalarında mütərəqqi kompleks tədbirlər həyata keçirilir. Bu islahatların əsas istiqamətlərindən birini təşkil edən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi Azərbaycan Prokurorluğunu da əhatə etməli, islahatların geniş vüsət aldığı hazırkı şəraitdə prokurorluq orqanları da öz fəaliyyətini yenidən nəzərdən keçirməli və dövrün tələblərinə uyğun şəkildə təşkil etməlidir.

Qarşıda mühüm vəzifələrin dayandığı xüsusi qeyd edilərək prokurorluq orqanlarında bir sıra struktur dəyişikliklərinin və kadr islahatlarının həyata keçirilməsinin zəruriliyi diqqətə çatdırılıb. "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş əsas fəaliyyət istiqamətləri üzrə görülən tədbirlərin kəsərliliyinin artırılması, prokurorluğun üzərinə qoyulan vəzifələrin icrası istiqamətində əsaslı dönüş yaradılması, iş yükünün əsassız olaraq artırılmasına, bürokratizmə və lüzumsuz sənəd dövriyyəsinə gətirib çıxaran təcrübə və müddəaların aradan qaldırılması, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından daha geniş istifadə etməklə cari fəaliyyətin səmərəliliyinə və operativliyinə nail olunması, müasir və mütərəqqi standartların tələblərinə əməl edilməklə şəffaflığın ən yüksək səviyyədə təmini diqqət mərkəzində saxlanılmaqla, həyata keçiriləcək islahatların son nəticədə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qalxmasına və qanunla icrası prokurorluğun üzərinə qoyulmuş vəzifələrin daha çevik yerinə yetirilməsinə xidmət edəcək əsas tələblər kimi müəyyənləşdirilib.

Tədbirdə çıxış edən müşavirə iştirakçıları prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini səsləndirib, faydalı müzakirələr və fikir mübadiləsi aparılıb.

Əməliyyat müşavirəsində qarşıda duran vəzifələrin icrası ilə bağlı müfəssəl Fəaliyyət Planı qəbul olunub və onun qısa müddətdə icraya yönəldilməsi aidiyyəti idarə rəhbərlərindən tələb edilib.

Tədbirə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının kollektivi adından əminliklə bildirib ki, Azərbaycan Prokurorluğunun kollektivi öz fəaliyyətini göstərilən etimada layiq səviyyədə qurmaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə birlikdə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda öz xidmətlərini göstərəcək.

# Fransa-Azərbaycan işgüzar görüşü keçirilib

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Fransa Sahibkarlar Təşkilatı (MEDEF) və Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə vebinar formatında işgüzar görüş keçirilib. Görüşdə Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov, hər iki ölkənin aidiyyəti dövlət qurumlarının nümayəndələri və iş adamları iştirak ediblər.



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir M.Cabbarov təşkil edilmiş tədbirin iki ölkənin biznes nümayəndələri arasında əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparmaq üçün əlverişli platforma olduğunu qeyd edib. Diqqətə çatdırıb ki, Azərbaycanda beynəlxalq əməkdaşlığa, o cümlədən Fransa ilə əlaqələrə böyük önəm verilir. Ölkələrimiz dünyanı bürümüş pandemiya şəraitində belə tərəfdaşlığı daha yüksək səviyyəyə çatdırmaqda qərarlıdırlar. Bu baxımdan MEDEF-in və Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının tərəflər arasında biznes əlaqələrinin inkişafında səyləri təqdirəlayiqdir.

Nazir vebinar iştirakçılarına Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatlar, iqtisadiyyatın liberallaşdırılması tədbirləri, əlverişli biznes və investisiya mühiti, Beynəlxalq Maliyyə Korporasiyasının ekspertlərinin iştirakı ilə investisiya fəaliyyəti ilə bağlı hazırlanan yeni qanun layihəsi, birbaşa xarici investisiyaların təşviqinə dair strategiya və s. barədə ətraflı məlumat verib.

Azərbaycan-Fransa iqtisadi əməkdaşlığı barədə danışan İqtisadiyyat naziri qeyd edib ki, ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən sənaye, enerji, ticarət, xidmət, kənd təsərrüfatı və sair sahələrdə Fransanın 65 şirkəti fəaliyyət göstərir.

"Ölkələrimiz investisiya sahəsində də uğurlu əməkdaşlıq edir. İndiyədək Azərbaycan tərəfindən Fransa iqtisadiyyatına 2,1 milyard dollar, Fransa tərəfindən isə Azərbaycana 2,2 milyard dollar sərmayə yatırılıb. Fransa şirkətləri Azərbaycanda dövlət investisiyaları hesabına həyata keçirilən və dəyəri 2,1 milyard dollar olan qeyri-neft layihələrində podratçı kimi də iştirak edirlər", - deyə M.Cabbarov bildirib.

Koronavirus (COVID-19) pandemiyasının mənfi təsirlərini qeyd edən nazir vurğulayıb ki, qlobal böhran və neftin qiymətinin kəskin aşağı düşməsi şəraitində dünya iqtisadiyyatı, xüsusilə də neft ölkələrinin iqtisadiyyatı yeni çağırışlarla üz-üzədir. M.Cabbarov Azərbaycan hökumətinin pandemiya və qlobal böhran situasiyasına çevik reaksiya verdiyini, makroiqtisadi stabilliyin qorunması üzrə sistemli və operativ təbdirlər görüldüyünü bildirib. Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti ilə vaxtında görülən çoxşaxəli qabaqlayıcı tədbirlər nəticəsində ölkəmizdə koronavirusa yoluxma halları məhdudlaşdırılıb. İnsanların sağlamlığının qorunması ilə yanaşı, pandemiyanın milli iqtisadiyyata təsirlərinin azaldılması məqsədilə müvafiq Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planına əsasən, zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlara və muzdlu işçilərə maliyyə dəstəyinin göstərilməsi, iş yerlərinin qorunması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri həyata keçirilir. Nazir Tədbirlər Planında iqtisadi dayanıqlığın təmin edilməsi ilə yanaşı, iqtisadi artımın yeni modelinin tətbiqinin əsas hədəflərdən olduğunu da diqqətə çatdırılıb.

Bildirilib ki, bu ilin yanvar-fevral aylarında Azərbaycanda ÜDM 3 faiz, ilin ilk rübündə 1,1 faiz, qeyri-neft sektoru ilin ilk 2 ayında 7 faizə yaxın, birinci rübdə isə 3 faizdən çox artıb. Azərbaycan daha güclü qeyri-neft sektoru formalaşdırmaq və neftdən asılılığı azaltmaq üçün iqtisadi şaxələndirmə və qeyri-neft iqtisadiyyatının inkişafı, həmçinin iqtisadiyyatın qlobal təsirlərə davamlılığını artırmaq üçün məqsədyönlü siyasət həyata keçirir.

Hazırda dünya iqtisadiyyatı yeni imkanlar vəd edən rəqəmsallaşma prosesindədir. Buna görə də iqtisadiyyatın rəqəmsallaşması uzunmüddətli məqsəd kimi qarşıya qoyulub. İqtisadiyyat naziri vurğulayıb ki, Azərbaycanın məqsədi rəqəmsal iqtisadiyyat qurmaqdır və ölkəmiz bu məsələdə Fransa ilə də əməkdaşlığa açıqdır. Bu kontekstdə Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzinin filialının yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına önəm verdiyini bildirən MEDEF-in baş icraçı direktoru Filipp Qotye təmsil etdiyi qurumun nümayəndə heyətinin ötən ilin iyulunda ölkəmizə səfərini, nümayəndə heyətinin Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən qəbul olunduğunu, keçirilmiş Azərbaycan-Fransa biznes forumunu, eləcə də imzalanmış sənədləri xatırladıb. F.Qotye Azərbaycanda əlverişli biznes və investisiya mühitini, ölkəmizin cəlbedici turizm ölkəsi, bir sıra rəqabətqabiliyyətli məhsulların istehsalçısı olduğunu vurğulayıb, pandemiya ilə mübarizə və iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri barədə fikirlərini bölüşüb.

İclasda digər iştirakçılar pandemiya və neftin qiymətinin kəskin aşağı düşdüyü hazırkı şəraitdə iqtisadi şaxələndirmə və dayanıqlılığın gücləndirilməsi, iqtisadi inkişafın davamlılığını təmin edə biləcək qeyri-neft layihələrinə, Fransa şirkətləri ilə əməkdaşlığın genişləndirilməsi istiqamətlərinə dair fikirlərini bildiriblər.

Vebinarda bank və maliyyə sektoru, kənd təsərrüfatı, İKT, innovasiyaların tətbiqi, nəqliyyat-tranzit və sair sahələrdə tərəfdaşlığın inkişafı perspektivləri barədə müzakirələr aparılıb. Görüşdə Azərbaycanın və Fransanın səfirləri də iştirak ediblər.

# Böyük Vətən müharibəsi veteranları ilə evlərində görüş

Böyük Vətən müharibəsində Astaradan 5 min 612 nəfər iştirak etmişdir. Göstərdikləri qəhrəmanlığa görə onlardan 3 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına, 2 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüşdür. Müharibədən geri qayıdan 3 min 721 nəfərdən hazırda yalnız 6 nəfəri yaşayır.



Qələbənin 75 illiyi ilə əlaqədar Böyük Vətən müharibəsi veteranları ilə evlərində görüşlər keçirilmiş, rayon rəhbərliyi 9 May Qələbə Günü münasibətilə onları təbrik etmişdir. Onlara Azərbaycan dövlətinin təsis etdiyi "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" yubiley medalı və hədiyyələr təqdim edilmiş, qayğıları ilə maraqlanılmışdır.

Veteranlar göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmiş, Qələbə Gününü onlarla birlikdə qeyd etdiyinə görə rayon rəhbərliyinə təşəkkür etmişlər.

***Safail MƏMMƏDOV,***
***Astara RİH-nin nümayəndəsi***

# "Azərbaycan 1941-1945. Sovet İttifaqı qəhrəmanları" adlı kitab nəşr edilib

İkinci Dünya müharibəsində faşizm üzərində Qələbədən 75 il keçir. Bu qələbənin əldə olunmasında Azərbaycan xalqının da böyük töhfəsi və rolu olub. Çünki xalqımız faşizm üzərində qələbə üçün özünün 600 min oğul və qızını cəbhəyə yola salmışdı. Qələbə Azərbaycan xalqına da asan başa gəlməyib. Müharibədə iştirak etmiş soydaşlarımızın təxminən yarısı döyüşlərdə həlak olub. Onlar amansız döyüş meydanlarında fədakarcasına vuruşaraq, həm də doğma Azərbaycanı faşizmdən qoruyublar.




Respublikamızı təmsil edən 170 mindən çox döyüşçünün orden və medallarla təltif edilməsi, 130 nəfərin isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi buna sübutdur. Bu mənada faşizm üzərində qələbə Azərbaycan xalqının da fəxr etdiyi, qürurlandığı unudulmaz tarixdir. Cəsur oğul və qızlarımızın Böyük Vətən müharibəsində qələbənin qazanılmasında yazdığı qəhrəmanlıq salnaməsi bugünkü nəsil üçün əsl mənəviyyat dərsidir.

Mənəvi Dəyərlərin Təbliği Fondu qəhrəmanlıq tariximizin bu dövrünün işıqlandırılaraq geniş oxucu kütləsinə çatdırılması, həmçinin Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş azərbaycanlıların xatirəsinin əbədiləşdirilməsi məqsədilə "Azərbaycan 1941-1945. Sovet İttifaqı qəhrəmanları" adlı kitabın böyük tirajla nəşrinə dəstək göstərmişdir. Kitabın müəllifi hərb tariximizin tədqiqatçısı Azad Hüseynovdur.

Sovet İttifaqı Qəhrəmanı adını almış azərbaycanlılara həsr olunmuş bu kitab təkcə elmi-tarixi deyil, eyni zamanda böyük siyasi-təbliği əhəmiyyətə malikdir. Müəllif bu tədqiqat əsərində, ilk növbədə, arxiv mənbələrinə müraciət etmişdir. A.Hüseynov kitabda 52 azərbaycanlı və Azərbaycandan hərbi xidmətə çağırılmış qəhrəmanların döyüş yolunu işıqlandırmışdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, müəllif vətən tarixşünaslığında ilk dəfə olaraq Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilmiş, lakin müxtəlif səbəblərə görə, bu adı almamış 14 azərbaycanlı qəhrəmanın bioqrafiyasını da üzə çıxarmağa nail olmuşdur.

Kitabın elektron versiyasını oxumaq istəyənlər www.mdtf.az saytının "nəşrlər" bölməsinə müraciət edə bilərlər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# AMEA prezidenti postpandemiya dövründə Azərbaycan elminin qarşısında duran vəzifələrdən danışıb

Mayın 12-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Ramiz Mehdiyev postpandemiya dövründə Azərbaycan elminin qarşısında duran vəzifələrlə bağlı rəhbərlik etdiyi qurumda həyata keçirilməsi nəzərdə tutulan tədbirlər haqqında açıqlama verib.

AMEA-dan AZƏRTAC-a bildirilib ki, akademik Ramiz Mehdiyev açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasında postpandemiya dövründə elmin vəzifələrinin elmi ictimaiyyətin müzakirə mövzusu olacağını qeyd edib.

Akademik diqqətə çatdırıb ki, AMEA-nın müvafiq elmi müəssisələrinin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı siyasətə uyğun olaraq yenidən qurulmalıdır.

Biologiya və Tibb Elmləri Bölməsinə tapşırılıb ki, koronavirusla bağlı araşdırmalara, xüsusən insanların immun sisteminin möhkəmləndirilməsi üçün bu ixtisas üzrə alim və mütəxəssislərin tədqiqat aparmasına əlavə imkanlar yaradılmalıdır.

Fəlsəfə və İqtisadiyyat institutlarında pandemiya dövrünün yaratdığı sosial-psixoloji və iqtisadi problemlər dərindən öyrənilməli, postpandemiya dövrü ilə əlaqədar elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlanıb AMEA-nın Rəyasət Heyətinə təqdim olunmalıdır.

Coğrafiya, Fiziologiya, Botanika, Genetik Ehtiyatlar, Torpaqşünaslıq və Aqrokimya, Mikrobiologiya və Dendrologiya institutlarına tapşırılıb ki, bir ay müddətində dünyada iqlim dəyişikliklərinin yaratdığı fəsadların öyrənilməsi, təsir dairəsi və qabaqlayıcı tədbirlərin proqnozlaşdırılması ilə bağlı elmi fəaliyyət planı hazırlanaraq Rəyasət Heyətinə təqdim olunsun.

Qeyd edək ki, postpandemiya dövründə Azərbaycan elminin vəzifələri ilə əlaqədar Tədbirlər Planı AMEA Rəyasət Heyətinin növbəti iclasında müzakirəyə çıxarılacaq.

# El gücü



**Gözlənilmədən ağlımıza gəlməyən çətinliklərlə üzləşmişik. Acı reallıqların təsiri dövlətin və hər birimizin gündəlik həyatında əksini tapır. Artıq zaman adi axarı ilə getmir. Fərqli reallıqlar, fərqli həyat tərzi bizi yeni qaydalarla yaşamağa vadar edir.**

Bununla belə, Azərbaycan vətəndaşının bu çətin günləri tezliklə arxada qoyması, ölkə iqtisadiyyatının tənəzzülə uğramaması üçün vacib qərarlar verilir, ciddi addımlar atılır və milyardlarla vəsait xərclənir. Faktiki olaraq hər birimiz aydın görür və dərk edirik ki, dövlətin qabaqlayıcı tədbirləri olmasaydı, biz böyük çətinliklərlə üzləşərdik, ağır itkilərə məruz qalardıq. Azərbaycanı digər ölkələrlə müqayisə edəndə görürük ki, dünya düzənində fərqli reallıqlara nail olmuşuq, daha az mənəvi itkilərə məruz qalmışıq və daim dövlətin qayğısını, dayağını hiss etdiyimiz üçün daha nikbin ölkələrin sırasına qoşulmuşuq.

Belə çətin günlərdə hər birimizin gücü və imkanları çərçivəsində ehtiyacı olanlara və dövlətimizə həyan durmağımız vacibdir. Atalar demişkən, "el gücü sel gücüdür". Əl-ələ tutanda daşı daş üstə qoymaq, ən ağır yükü də qaldırmaq mümkündür.

Övladlarımızın və yurdumuzun gələcəyi naminə hamının güc və imkanlarını səfərbərliyə alması, nikbin gələcəyə köklənməsi vacibdir. Amma belə çətin günlərdə xalqı düşünən, əlindən gələni etməyə çalışanlarla yanaşı, dövlətin atdığı nəcib addımları sosial şəbəkələrdə tənqidlə qarşılayan, onu bilərəkdən, ya da bilməyərəkdən hədəfə almağa cəhd edənlər də var.

Sizə iki nümunəni misal gətirmək istərdik. Mənfi nümunə pay torpaqları olduğuna görə yardım ala bilməyənlərin yersiz etirazı ilə bağlıdır. Süjetin qəhrəmanı torpaqdan "kabab" çəkir. Bu, mahiyyət etibarı ilə sarkazmdan, satiradan daha çox, xalqla dövlət arasında uçurum yaratmaq, vətəndaşı dövlətindən narazı salmağa yönələn bir görüntüdür. "Müəllif" torpaqdan "kabab" çəkməklə dövlət yardımını ala bilməyənlərin etirazını ifadə etməyə çalışır. Amma reallıqlar fərqlidir.

Bu gün xalq-iqtidar münasibətləri elə bir səviyyədədir ki, istənilən məsələni təxirə salmadan gündəmə çıxarmaq və müzakirə etmək mümkündür. Dövlət başçısı belə çətin günlərdə vətəndaşların qayğısına qalmayan, yardımların ünvanlarına çatmasına imkan verməyən, onları oğurlayan məmurlara qarşı bütün qətiyyəti ilə çıxış edir, belələrini cəzalandırır, vəzifədən uzaqlaşdırır, heç kimin bağışlanılmayacağını bəyan edir. Yəni birmənalı şəkildə sıravi insanların qayğıları önə çəkilir. Bu isə o deməkdir ki, istənilən problemi qaldırmaq, müzakirə etmək və çıxış yollarını birlikdə tapmaq mümkündür.

Müsbət nümunəni də gətirmək istərdik. Belə ağır günlərdə fərqli addım atanlar, başqasının əlindən tutanlar da az deyil. Quba rayonunun Xucbala kəndində insanlar su qıtlığından axır vaxtlar əziyyət çəkirdilər. Neçə il idi ki, Qusarçaydan çəkilən arx lillənib dolduğundan kəndlilər həyətyanı sahələrini suvara bilmirdilər. Su olmayanda isə bağ-bostan yanıb əldən çıxır, kəndli bir dəstə göyərti üçün bazara üz tutmaq məcburiyyətində qalır. Bağını suvarmaq istəyənlər günlərlə növbə tutur, gecə-gündüz yatmırdılar ki, qapılarına bir qol su aparsınlar. Amma buna da hamının imkanı olmurdu, vaxtı çatmırdı.

Belə bir məqamda kənd sakinlərindən biri su çəkdirdi. Həmin adamı tapdıq, niyyətini alqışladıq və bəzi məqamları aydınlaşdırmaq istədik. Cavabı qısa oldu:

- Sizdən xahiş edirəm ki, adımı çəkməyin. Axı, mən bu işi siz qələmə alasınız, adımı çəkəsiniz deyə görməmişəm. Hamı əziyyət çəkirdi, kəndimiz üçün çətin idi. Götür-qoy elədim ki, 3-4 kilometrlik arxı təmizləmək o qədər də böyük iş deyil. Camaatla danışdıq, birləşdik, suyun yolunu açdıq. Məndən əvvəl də bu suyun yolunu 3-4 ildən bir təmizləyənlər olub. Xərcini də çəkiblər. Mən bu işi görəndə bir onu fikirləşdim ki, çətin vaxtdır, sabahın necə olacağını bilmirik. Suyu gətirsək hər kəsin həyətində heç olmasa özünə qədər tərəvəzi, göy-göyərtisi olacaq. Kəndli dövlətin yardımından da bir neçə dəfə artıq qazanacaq. Dövlət dəstəyini əsirgəmirsə, biz də həmrəy olmağı, səylərimizi birləşdirməyi bacarmalıyıq.

Kənd sakini təqaüdçü Nəriman da sevincini gizlətmir:

- Min şükür ki, qapımıza su gəldi. Artıq bağ-bostan salanların sayı da artıb. Su üstündə elə olurdu ki, adamlar dalaşırdı, qac düşürdülər. İndi hərənin başı öz torpağına qarışıb.

Nəriman kişi danışır ki, əmisi oğlu irəli düşdü, amma camaat da köməyini əsirgəmədi. Əvvəlcə Qusarçaydan kəndə gələn arxda qırılan boruların bir qismini qaynaq etdilər, sonra iki körpünün altına yığılan lili təmizlədilər. Bu iş xeyli xərc apardı: "Amma kəndin camaatı da bu işdən kənarda qalmadı, kimi 5-10 manat əl tutdu, kimi də beli ilə kömək etdi. 44 nəfər kənd sakini bir neçə gün işlədi. "El gücü sel gücüdür", - deyib atalar.

Sizə iki nümunə gətirdik. Özünüz düşünün. Görün torpaqdan "lüləkabab" çəkənlə əlinə bel götürüb çalışan kəndli arasında nə qədər fərq var. Əli qabar vuran fermerin ruzisi alnının tərindən çıxır. Belə çətin gündə biz demirik ki, kəndli qayğıları ilə başlı-başına qalsın. Dövlət vətəndaşına bu ağır günlərdə dayaq durur, çalışır ki, sosial yardıma ehtiyacı olanlar müxtəlif proqramlarla əhatə edilsin. Belə proqramların sayı da bir deyil, iki deyil! Bu yardımlar yalnız müəyyən bir müddət üçün nəzərdə tutulmuşdur. Hər bir kəndli həyat normal axarına düşənədək beli əlinə götürüb torpağını becərməli, dövlətinə dayaq durmalı, əlavə dəyər, bolluq yaratmalıdır.

Dövlətdən bizim nə qədər umacağımız varsa, dövlətin də marağı ondadır ki, belə günlərdə hər bir kəs bacardığı işdən yapışsın, çörəyini qazansın. Son nəticədə hər birimizin qazancı həm də dövlətin qazancı olacaq.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Dövlət Təhlükəsizliyi Xidməti Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin hüquqazidd əməlləri ilə bağlı məlumat yayıb

Azərbaycan xalqının mədəni-tarixi irsi hesab edilən tarix-mədəniyyət abidələrinin mühafizəsi, bəzi vəzifəli şəxslərin öz maraqları naminə bu sahədə dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərin qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən müvafiq tədbirlər həyata keçirilib. AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin rəsmi internet səhifəsinə istinadla xəbər verir ki, aparılan araşdırmalarla Azərbaycan Respublikasının Mədəniyyət nazirinin müavini Bayramov Rafiq Yasin oğlunun və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Sultanov Zakir İmran oğlunun vəzifə səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə, vətəndaşların hüquqlarına mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol verməsinə dair məlumatlar əldə edilib.

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il mayın 8-də məhkəmənin qərarı əsasında Rafiq Bayramovun və Zakir Sultanovun xidməti və yaşadıqları ünvanlara keçirilmiş baxış zamanı Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin qəbul etdikləri pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, ayrı-ayrı valyutalarda saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkarlanaraq götürülüb.

İstintaq araşdırmaları zamanı Azərbaycan xalqının çoxəsrlik mədəni irsi və sərvəti olan tarixi abidələrin və mədəniyyət nümunələrinin qorunması, bərpası, rekonstruksiyası və mühafizəsi üçün zəruri işlərin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin bir hissəsinin Zakir Sultanov tərəfindən mütəmadi olaraq mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

Davam edən cinayət işi üzrə, mədəni irs hesab edilən xüsusi arxitektura-memarlıq üslubuna malik binalarda rekonstruksiya işlərinin aparılmasına maddi maraq müqabilində vəzifə səlahiyyətlərindən istifadə edərək razılıq verilməsi ilə bağlı əldə olunmuş məlumatlar araşdırılır.

Həmçinin araşdırmalar nəticəsində Rafiq Bayramov tərəfindən Mədəniyyət Nazirliyinin regional idarələrinin rəhbərləri vasitəsilə rayonlarda fəaliyyət göstərən musiqi məktəblərində müəllimlərin adına artıq tədris saatlarının rəsmiləşdirilərək bunun müqabilində onların əməkhaqlarından tutulan vəsaitlərin, habelə müxtəlif qanunsuz yollarla əldə edilən digər vəsaitlərin hər ay toplanaraq ələ keçirilməsinə əsaslı şübhələr müəyyən olunub.

Respublika ərazisindəki musiqi məktəblərinin, mədəniyyət evlərinin, kitabxanaların, rəsm məktəblərinin, qalereyaların, klubların, muzeylərin və sair mədəniyyət müəssisələrinin tikintisi, cari və əsaslı təmiri işlərinə görə ayrılan dövlət vəsaitlərinin bir hissəsinin Rafiq Bayramov tərəfindən şəxsən və Mədəniyyət Nazirliyinin regional idarələrinin rəhbərləri vasitəsilə mütəmadi olaraq nağdlaşdırılıb mənimsənildiyinə dair məlumatlar əldə edilib.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Zakir Sultanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda araşdırmalar davam etdirilir.

# Təhsilimizdə rəqəmsal texnologiyaların tətbiqi

## Hafiz PAŞAYEV: "Onlayn təhsil ADA Universitetində artıq normaya çevrilib"

"Çoxdandır ki, dövlət və özəl sektorun idarəçiləri rəqəmsallaşma haqqında düşünür, amma az sayda təşkilat və şirkətlər bunu əməli surətdə həyata keçirə bilir. Bəziləri yalnız dəbdə olan terminlərdən istifadə edərək müzakirələrlə kifayətlənir, digərləri isə subyektiv və obyektiv çətinliklərlə rastlaşanda səylərini dayandırırlar. ADA Universiteti Azərbaycanın təhsil sektorunda rəqəmsal texnologiyaların tətbiqi baxımından öndə gedənlərdəndir".




AZƏRTAC xəbər verir ki, bu fikirlər ADA Universitetinin rektoru Hafiz Paşayevin "Təhsilimizdə rəqəmsal texnologiyaların tətbiqi" sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqalənin tam mətnini təqdim edir.

Hazırda COVID-19 pandemiyası dövründə universitetimizin rəqəmsal potensialı təhsil xidmətlərimizin onlayn davam etdirilməsi üçün nə qədər vacib olduğunu nümayiş etdirdi. Bu yazıda ADA Universitetinin rəqəmsallaşma istiqamətində əldə etdiyi uğurlar, qarşılaşdığı çətinliklər və gələcək planlar barədə bəzi mülahizələrimi bölüşmək istərdim.

Prezident İlham Əliyevin sərəncamı ilə 2006-cı ildə Xarici İşlər Nazirliyinin nəzdində yaradılan Azərbaycan Diplomatik Akademiyası diplomatların təlim mərkəzi kimi fəaliyyətə başlayıb. Lakin biz sürətlə inkişaf edən müasir Azərbaycan Respublikası üçün keyfiyyətli kadr yetişdirilməsi zərurətini anlayaraq təlim mərkəzindən universitet formatına keçməyi zəruri hesab edirdik. Bunun üçün sinif otaqları, laboratoriyalar, kitabxana, informasiya texnologiyaları infrastrukturu və tələbə mərkəzlərindən ibarət müasir tədris mərkəzi - universitet şəhərciyinin tikilməsi vacib idi. Belə kampusun qurulması dizayn və təhsil prosesinin planlaşdırılması baxımından yeni düşüncə tərzi və yanaşma tələb edirdi. Biz gözləyirdik ki, müasir kampusun yaradılması yalnız rahat tədris şəraiti deyil, həm də təhsil sektoruna ən yaxşı istedadların cəlb edilməsinə kömək edəcək. İşə başlayarkən planlaşdırma prosesində ADA dünyanın aparıcı universitetləri ilə əməkdaşlıq etdi, həm Qərb, həm də Şərq təhsil ocaqlarının təcrübəsindən yararlandı. Universitetin konsept və dizaynını tərtib etmək üçün ABŞ-dan memar qrupu dəvət etdik. Nəticədə yeni tikilmiş kampus digər üstünlüklərlə yanaşı, "yaşıl" və "ağıllı" texnologiyaların, bərpaolunan enerji mənbələrinin, etibarlı "wi-fi" və daxili "e-mail" sistemlərinin istifadəsini təmin etmiş oldu.

Göz oxşayan və texnoloji baxımdan müasir binalar ali təhsil ocağının uğurunu təmin edən yalnız bir amildir. Digər əsas məqsədimiz münasib əməkhaqqı təklif etməklə həm Azərbaycandan, həm də digər ölkələrdən yaxşı müəllimləri cəlb etmək, onlara müasir və yaradıcı akademik mühitdə işləmək şəraiti yaratmaq idi. Eyni zamanda onlara yüksək standartlarımız və gözləntilərimizi də aydın çatdırmalı idik: seçdiyimiz müəllimlərin əksəriyyəti xarici universitetlərdə doktorantura bitirməli, ingilis dilində mükəmməl danışmalı, dərsləri interaktiv şəkildə apara bilməli, elmi tədqiqatla məşğul olmalı və ən əsası, ADA komandası ilə birlikdə daim öyrənməyə və peşəkarlığını inkişaf etdirməyə hazır olmalı idi. Müəllimlərin informasiya texnologiya bacarıqlarına xüsusi önəm verilirdi. İşəgötürmə prosesi - istər müəllim, istərsə də inzibati işçi olsun - şəffaf şəkildə, bilik və bacarıqlar əsas tutularaq təşkil edildi. Məhz bu səciyyələri daşıyan komanda universitetimizdə ilk gündən düzgün dəyərlərin seçilməsi, etik normalara əsaslanan mühitin yaradılmasını mümkün etdi. Belə təcrübəli və çevik yanaşması olan komanda sayəsində ADA Universiteti dəfələrlə qarşılaşdığı çətinlik və dəyişikliklərdən uğurla keçə bildi.

Texnoloji tərəqqidən yararlanmaq və innovasiyaya meyillilik ADA-nın gündəlik işinin hər istiqamətində özünü göstərir. Yeni texnologiyalar nəticəsində üzə çıxan böyük həcmli məlumat bazası fərqli düşünmək, təhlillər aparmaq və daha yaxşı qərarlar qəbul etmək imkanları açmaqla yanaşı, dəyərlərimizi və iş təcrübəmizi daha da möhkəmləndirir. İlkin mərhələdə biz rəqəmsallaşmanın tətbiqini əsas şöbələrimizdən - tələbə qəbulu, kitabxana, akademik bölmələr və karyera xidmətlərindən başlayaraq innovasiyanı digər şöbələrə də aid etdik.

Təhsil sahəsində mövcud müasir proqramların istifadəsini 2008-ci ildə Embark proqramının tətbiqi ilə başladıq. Bu proqram internetə çıxışı olan hər kəsə ADA-ya qəbul üçün sənəd vermək imkanı yaratdı. Bu minvalla toplanan zəngin və faydalı məlumat bazası trendləri müəyyənləşdirməyə, statistik hesabatlar çıxarmağa və çevik müdaxilələr etməyə yol açdı. Marketinq və kommunikasiya fəaliyyətimizi də məhz bu data bazası üzərində qurduq. Bəzi abituriyentlər qəbul olunmasalar belə ADA-nın məlumat bazasında qalaraq, digər proqramlar barədə xəbərdar olurlar.

Əldə olunan məlumat daha sonra fakültələr tərəfindən tələbələrin şəxsi işlərinin tərtib edilməsi, dərs qeydiyyatı prosesinin asanlaşdırılması, transkriptlərin verilməsi və digər gündəlik məlumat istehsalında istifadə edilir.

2009-cu ildə alınan "PowerCampus" proqramı tədris prosesinin idarə edilməsinə, o cümlədən imtahan və dərs cədvəllərinin səmərəli təşkilinə, müəllim və tələbə heyətinin məlumat bazasının yaradılmasına kömək etdi. Bu proqram həftəlik olaraq davamiyyət, dərslərin müddəti, imtahanlar və akademik göstəricilərlə bağlı hesabatlar hazırlayırdı. Beləliklə, dekanlar, prorektorlar və hətta rektor özü sistemə daxil olaraq imtahan prosesi ilə bağlı bütün məlumatı asanca əldə edə bilirdi və bununla da şəffaflıq təmin olunurdu.

Eyni şəkildə ADA kitabxanası "Millenium" proqramına vəsait sərf edərək kitab kolleksiyaları, məqalələr toplusu, ziyarətçi qeydiyyatı və borc götürülən materialların izlənilməsini asanlaşdırdı. Daha sonra 2019-cu ildə ADA kitabxanası bir addım da irəli gedərək mükəmməl inventarizasiya imkanları verən çoxfunksiyalı "WorldShare Management Services" (WMS) ortaq bulud sistemini tətbiq etdi. Bu, müasir kitabxanaçılıqda yüksək standart və ən arzuolunan modeldir. Hazırda ADA kitabxanası Azərbaycanda bütün kolleksiyasına açıq çıxış yaradan ilk inteqrasiyalı kitabxana sistemidir və onun üstünlüyü vaxta qənaət etməklə etibarlı akademik qaynaqlara istənilən yerdən daxil olmaqdan ibarətdir.

Universitetin Karyera Mərkəzi bu arada "Simplicity" proqramına yatırım edərək tələbələri vakansiyalar barədə məlumatlandırır, onların peşəkar və karyera inkişafını yönləndirir və müxtəlif şirkətlər və sənayelərlə bağlantını təmin edir.

Yuxarıda göstərilən proqramların tətbiqi şəffaflığın təmini, statistik təhlillər aparılması, hesabatların nəzərdən keçirilməsi ilə tədris prosesinin idarə edilməsini yüngülləşdirdi və işin səmərəliliyini artırdı. Tələbələr də, öz növbəsində, bu proqramlardan istifadə edərək informasiya texnologiyaları bacarıqlarını genişləndirir və müasir cəmiyyətin tələblərinə daha hazır olurlar.

Bir müddət sonra rəqəmsallaşmanın universitetin bütün idarəetməsində zəruri olduğunu görərək "SAP" proqramını əldə etdik. Beləliklə, ölkədə bir sıra aparıcı şirkətlər maliyyə və mühasibatlıq məqsədləri üçün hələ də 1C proqramından istifadə etdikləri halda ADA Universiteti Azərbaycanda "SAP" proqramını ilk tətbiq edənlərdən biri oldu.

Bu proqramlar ayrı-ayrılıqda faydalı və funksional olsa da, onların inteqrasiyası gündəmə gəldi və bütün tədris və inzibati əməliyyatlarımızı birləşdirən vahid çətirvari platformaya ehtiyac yarandı. ADA Universiteti 2015-ci ildə McKinsey konsaltinq şirkəti ilə birlikdə öz gələcəyinə dair onillik strateji planını hazırladı. Plana uyğun olaraq həmin il universitetin yaratdığı bütün məlumat bazasını birləşdirməyə imkan verən "Banner" tələbə məlumat sistemi - "Banner Enterprise Resource Planning" (ERP) və "Blackboard" tədrisin idarə edilməsi proqramlarını əldə etdik. Bu proqramların tətbiqi özlüyündə çoxşaxəli və ciddi diqqət tələb edən bir prosesdir. ADA Universitetinin rəhbərliyi buna 10 ay ərzində nail olmaq kimi iddialı məqsədi ortaya qoydu.

Xüsusi olaraq akademik müəssisələr üçün yaradılmış bu proqramlar hazırda həm ADA Universiteti, həm də ADA Məktəbi tərəfindən istifadə edilir. Onların üstünlüklərindən biri odur ki, təhsil ocaqlarının konkret ehtiyac və istəklərinə uyğunlaşdırılır. Bu proqramlar bizə tək universitetin idarə edilməsini və tədris prosesini deyil, dərs demək tərzimizi də daha mükəmməl etməyə imkan yaratdı. Burada fənlər üzrə materialların onlayn platformaya yerləşdirilməsi, tələbələr arasında onlayn müzakirələr və forumlar keçirilməsi, test və imtahanların təşkili, ev tapşırıqlarının vaxtında təhvil verilməsi kimi texnoloji alətlər təhsil prosesini yaxşılaşdırdı. Müəllimlərimiz sinifdə ənənəvi öyrənmə prosesini interaktiv metodların tətbiqi, "ağıllı" lövhələrin istifadəsi, audio-video materialların nümayişi, "Blackboard" proqramının verdiyi digər informasiya texnologiya imkanları ilə zənginləşdirirlər. Tələbələr isə vahid platforma üzərindən öz imtahan cavabları, qiymətləri, ev tapşırıqları, hətta təhsil haqqı balansı kimi məlumatları asan şəkildə nəzərdən keçirə bilirlər. Hər iki proqram -"Banner" və "Blackboard" yerli serverlərimizi istifadə etməklə yanaşı, bulud serverlərində də data saxlayaraq məlumatların təhlükəsizliyini təmin edir.

"Banner Enterprise Resource Planning" (ERP) vasitəsilə təhsil ocağımızın maliyyə, insan resursları, təchizat və digər müvafiq şöbələrində iş axını təkmilləşdirilir. Statistik hesabatların hazırlanması "Argos Enterprise Reporting Solution" proqramı üzərində həyata keçirilir.

Bu proqramların istifadəsi erkən planlaşdırma və komanda işini daha da gücləndirdi. Yeni proqramların tətbiqini universitetin 30 nəfərlik heyət qrupu təmin edirdi. Onlar proqramların tərtibi və idarə edilməsində o qədər mükəmməl təlim almışdılar ki, sonradan bütün universitet heyətini təlimləndirmək kimi məsul işdə də uğur qazandılar. İnanırıq ki, qrupun əldə etdiyi təcrübə Azərbaycanda və hətta qonşu ölkələrdə universitet kadrlarının təlimləndirilməsində istifadə oluna bilər. Artıq Qazaxıstanın Nazarbayev Universiteti təcrübəmizi onlarla bölüşmək üçün ADA-ya müraciət edib.

Öz təcrübəmizə istinadən deyə bilərik ki, rəqəmsal texnologiyaların tətbiqi bir neçə çətinliklərlə və maneələrlə rastlaşır. Müvəffəqiyyət əldə etmək üçün bu riskləri düzgün dəyərləndirmək lazımdır. Bu işin uğuru bir neçə amil ilə bağlıdır:

- *Hər şeydən əvvəl, təşkilatın gələcəyə baxışı və uzunmüddətli planı, bu planın əsas tərkib hissəsi kimi rəqəmsal texnologiyaların tətbiqi olmalıdır. Bu işdə rəhbərliyin qəti niyyəti və bunun kollektivə çatdırılması təşkilatın ruhunu və mədəniyyətini dəyişdirər, işçilərin nikbinliyini gücləndirər, bütün heyəti ümumi missiya və məqsədlər ətrafında birləşdirər, onları vahid komanda kimi mütəşəkkil edər, məsuliyyət, cavabdehlik və yeni məqsədlərə sadiqlik duyğusunu artırar.*
- *Dəyişiklik mərhələsini idarə etmək asan deyil. Bəzi işçilər rahatlıqlarının pozulmaması, yaxud təklif edilən dəyişikliklərin faydalarını anlamadıqları üçün müqavimət göstərə, hətta sabotajla da məşğul ola bilərlər. Ona görə də bu prosesə nəzarəti düzgün insanlara tapşırmaq və onları səlahiyyətləndirmək vacibdir. Digər nəzərə alınmalı məqam mütəmadi olaraq komanda üzvlərindən rəylər almaq, yeniliklərin tətbiq edilməsi sürəti və çətinlikləri barədə onlarla müzakirə aparmaqdır. Yeni texnologiyaların ən kəskin tənqidçiləri belə nəticələri gördükdə bu alətlərin ən güclü müdafiəçisinə çevrilirlər. Proses boyu layihə məsləhətçilərinin düzgün seçilməsi və planlaşdırılmış mərhələlərin vaxtında bitirilməsinə nəzarət vacibdir.*
- *Müəllim və işçilərin təlimi daim diqqətdə qalmalıdır. Layihənin detallarını daha yaxşı anlamaq və dəyişiklikləri əlaqələndirilmiş şəkildə həyata keçirmək üçün prosesin bütün iştirakçılarına müvafiq yatırımlar edilməlidir. Universitet rəhbərliyi dekanların və müəllimlərin çevik şəkildə təlim keçmələrini təmin etməlidir. Proqramların tətbiqinin uğuru üçün ADA Universiteti müəllimlərin təlim alması məqsədilə onları Böyük Britaniya və Birləşmiş Ərəb Əmirliklərinə ezam etdi. Öz nümunəmizdə deyə bilərəm ki, əməkdaşlarımız onların rəy və təcrübəsindən istifadə olunmasını yüksək dəyərləndirirdilər.*
- *Sonuncu tövsiyəm informasiya texnologiyaları resurslarına davamlı yatırımlar etməkdir. Proqram təminatının ən son versiyalarının əldə olunması, serverlərin saxlanılması və genişləndirilməsi, avadanlığın yenilənməsi daim maliyyə xərcləri tələb edir. Bu xərclərin planlaşdırılması və texnoloji imkanların araşdırılması komandanın gündəlik işinə çevrilməlidir.*

ADA Universiteti texnoloji dəyişikliklərə on il əvvəl başladı. O dövrdə heç kim dünyanın belə sürətlə dəyişəcəyini təsəvvür etmirdi. Pandemiya şəraitində bu gün bir çox təşkilatlar iflic olmamaq və fəaliyyətlərini davam etdirmək üçün yeni proqram tətbiqlərinə tələsir. Universitetlər də istisna deyil - çoxları onlayn tədris alətlərinin olmaması səbəbindən çətinlik çəkir. Digərləri müxtəlif ödənişsiz platformalardan istifadə edərək məlumat təhlükəsizliyi və ya tədris məqsədlərinə tam uyğun olub-olmaması amillərinə ciddi diqqət yetirə bilmirlər.

ADA Universiteti bu mənada yaranan vəziyyətə hazır idi və iki həftə ərzində dərslərini bütünlüklə onlayn formata keçirə bildi. Hər bir müəllim "Blackboard" proqramı ilə işləməyi bacarırdı. Bu günlərdə isə onun "Collaborate" komponentindən istifadə etməyə başladılar. Tələbələr isə onlayn platformadan hələ 2017-ci ildən bəri istifadə edirdilər. Dərslərin onlayn və keyfiyyətli şəkildə davam etdirilməsi üçün ortaya çıxan çətinliklər həftəlik müzakirələr, məsləhətləşmələr, iclaslar vasitəsilə qısa bir zamanda koordinasiyalı şəkildə aradan qaldırıldı.

Aydındır ki, onlayn təhsilin öz çatışmazlıqları var. Tələbə və müəllim heyəti bəzi hallarda internet bağlantısının kəsilməsi ilə üzləşir. Ümid edirik ki, bütün ölkə üzrə internet bağlantısının yaxşılaşdırılması üçün ölkənin İT sektorunda müvafiq addımlar atılacaq. Onlayn tədrisdə imtahanların etibarlılığının təmin edilməsi vacibdir. Bunun üçün ADA Universiteti bu yaxınlarda "Respondus" proqramını əldə edib. Bu vasitə ilə məsafədən keçirilən imtahanlar zamanı köçürmələrin və digər mənfi halların qarşısı alınır. Tələbələr tərəfindən məzmunun mənimsənilməsinə gəldikdə, onlayn tədrisin ənənəvi təhsillə müqayisədə səmərəli olub-olmaması barədə müzakirələrimiz hələ də davam edir. Aydındır ki, ənənəvi tədrisdən fərqli olaraq, onlayn tədris tələbələrin bir-biri ilə ünsiyyət yaratma və öyrənmə imkanlarını məhdudlaşdırır. Amma inanırıq ki, təcrübə qazandıqca, bu məsələlərin də həlli tapılacaq.

Əldə etdiyimiz təcrübə sübut edir ki, innovativ dəyişikliklərin və rəqəmsal transformasiyanın müsbət nəticələri çoxdur. Əslində, yeni texnologiyalar artıq günümüzün reallığıdır. Ona görə də dəyişikliklərin idarə edilməsi və təhsil xidmətlərinin yaxşılaşdırılması məqsədilə bu yeniləşmənin ön sıralarında olmalıyıq.

Sonda bir daha qeyd etmək istərdim ki, universitetin onillik strateji planına uyğun olaraq fiziki infrastruktura və insan resurslarına yatırım etməklə yanaşı, rəqəmsal transformasiyaya da diqqət yetirməyimiz öz bəhrəsini verməkdədir. Şadıq ki, mövcud şəraitdə hazırlıqlı olmağımız tələbə, şagird və valideynlərimizin gözləntilərini doğrultdu və bizə təhsil semestrini fasiləsiz davam etməyə imkan yaratdı. Bəzi valideynlər hətta övladlarının onlayn dərslərini böyük maraqla izləyib müsbət təəssüratlarını bizimlə bölüşürlər. Onlayn təhsil ADA Universitetində artıq normaya çevrilib. Gələcəkdə bu təcrübədən ixtisasartırma proqramlarının həyata keçirilməsində də daha geniş istifadə etmək niyyətindəyik. Yaxın keçmişdə onlayn tədris ənənəvi tədrisə köməkçi qismində istifadə edilirdisə, bu günlərdə hər iki üslub tədrisin tərkib hissəsinə çevrilib.

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

### *açıq tenderə dəvət edir*

- DOST mərkəzlərində Ünvanlı Dövlət Sosial Yardım (ÜDSY) üzrə monitorinq qruplarının təchizatı üzrə iş və xidmətin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 300 (üç yüz) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *dövlət qurumları üçün bu istiqamətdə layihələrin icrasında ən az 10 illik təcrübənin olmasını təsdiq edən sənədin surəti;*
- *proqram təminatının tərtibatı üzrə İSO standartları üzrə sertifikasiyanın olması barədə sənədlərin surəti;*
- *iddiaçının layihə üzrə təqdim edəcəyi işçi heyətinin ən azı 2-sinin layihələrin idarə edilməsi üzrə beynəlxalq sertifikatlara malik olması barədə sənədin surəti;*
- *ən azı 2 əməkdaşın biznes analizi üzrə beynəlxalq sertifikatlara malik olması barədə sənədlərin surəti.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 08.06.2020-ci il saat 11:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 17.06.2020-ci il 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18.06.2020-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

### *açıq tenderə dəvət edir*

- DOST Agentliyi və DOST mərkəzlərində daxili biznes istiqamətləri üzrə biznes proseslərini avtomatlaşdırmaq üçün proqram təminatlarının (ERP sistemi) hazırlanması xidmətin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 500 (beş yüz) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *dövlət qurumları üçün bu istiqamətdə layihələrin icrasında ən az 10 illik təcrübənin olmasını təsdiq edən sənədin surəti;*
- *proqram təminatının tərtibatı üzrə İSO standartları üzrə sertifikasiyanın olması. Sertifikatların surəti;*
- *ən azı 1 əməkdaşın biznes analizi üzrə beynəlxalq sertifikatlara malik olması. Sertifikatların surəti;*
- *ən azı 3 əməkdaşın layihələrin idarəedilməsi üzrə beynəlxalq sertifikatlara malik olması. Sertifikatların surəti.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 08.06.2020-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 17.06.2020-ci il 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18.06.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Paşinyan faşizmi təbliğ edənlərə qucaq açır

## Ermənistanda hakimiyyətin nasist sevgisinin kökləri üzə çıxır

Ermənistanda mövcud hakimiyyətin faşizm sevgisinin köklərinin nədən qaynaqlandığı getdikcə daha aydın şəkildə bəlli olur. O da məlum olur ki, ermənilər tərəfindən Böyük Vətən müharibəsi zamanı faşizm tərəfində döyüşənlərin sayı kifayət qədər olub və onların nəsillərinin davamçıları indi Ermənistana rəhbərlik edirlər. Bu sırada keçmiş daşnak, "Njde" ləqəbli Qaregin Ter-Arutyunyanla yanaşı, Ermənistanın baş naziri Nikol Paşinyanın babası da olub.

Məsələ bundadır ki, Nikol Paşinyan Qələbə günü münasibətilə İkinci Dünya müharibəsində döyüşən babası Nikol Vartanoviç Paşinyanın foto və sənədlərini paylaşıb, lakin o, Nikol Paşinyanın nasistlərlə işbirliyinə dair dəlilləri gizlədib. Paşinyan babası haqda yalnız bunları yazıb: "Nikol Paşinyan, 1913-1943. 138-ci atıcı diviziyanın 554-cü atıcı alayında xidmət edib. Vətən uğrunda həlak olanlara əbədi eşq olsun".

### Baba Paşinyanı ifşa edən arxiv sənədləri

Rusiyanın "Vestnik Kafkaza" nəşri bu xüsusda yazıb: "Erməni lideri 1913-cü ildə anadan olan və 1943-cü ildə vəfat edən Nikol Paşinyanın yalnız 1313-cü piyada diviziyasının 554-cü piyada alayında xidmət etdiyini və itkin düşdüyünü əks etdirən sənədi seçib. Böyük Vətən müharibəsi üzrə ekspertlər isə qısa müddətdə diqqəti başqa bir sənədə yönəltdilər. Həmin sənəddə də 1913-cü ildə Ermənistanda anadan olmuş və 1943-cü ildə vəfat etmiş Nikol Vartanoviç Paşinyandan bəhs olunur - bu, alman arayışıdır".

Nəşr Almaniya arayışının fotosunu da yayımlayıb. Orada deyilir ki, bu adam SS erməni legionunda xidmət edib, yəni nasist rejimi ilə əməkdaşlıq edib. Erməni mediası da Nikol Vartanoviç Paşinyanla bağlı "Memorial"ın qeydiyyat bazasında başqa bir qeyd də tapıb. Orada bildirilir ki, bu adam düşmənlə işbirliyində olub və ölüb.

"Yerevan today" portalı yazır ki, Böyük Vətən müharibəsi zamanı vəfat etmiş və itkin düşmüş Sovet hərbçiləri haqqında məlumatları özündə cəmləşdirən ümumiləşdirilmiş elektron məlumat bankı da Ermənistan hökuməti başçısının babasını ifşa edən məlumat və sənədləri təsdiqləyib.

Xatırladaq ki, bu məlumat bazası Rusiya Federasiyasının Müdafiə Nazirliyi tərəfindən yaradılıb. Məlumat bazasında Sovet arxivlərindəki sənədlərdən 37 milyon qeyd var. Orada göstərilir ki, Ermənistanın Tavuş rayonunun Yenakavan kəndindən olan yeganə Nikol Paşinyan 1943-cü ildə Alman Vermaxtının erməni legionunda sıravi rütbəsi ilə Qırmızı Orduya qarşı döyüşlərdə ölüb. Digər müstəqil erməni KİV-i də baba Nikol Paşinyanı ifşa edən arxiv sənədlərini dərc ediblər.

### "Taleyi - düşmənlə əməkdaşlıq edib, həlak olub"

Qeyd edək ki, Böyük Vətən müharibəsi zamanı həlak olmuş və ya itkin düşmüş şəxslər haqqında məlumatların göstərildiyi "Obd-memorial.ru" saytında Paşinyanın təqdim etdiyi adam haqqında məlumatlar axtarılıb və həmin saytdan alınan cavab belə olub: "Doğulduğu tarix - 23.12.1913. Doğulduğu yer - Ermənistan, Yenakavan. Taleyi - düşmənlə əməkdaşlıq edib, həlak olub. Ölüm tarixi - 29.09.1943." Saytda almanların uçot sənədi də dərc edilib.

"Iravunk" qəzeti yazır ki, bundan dərhal sonra Ermənistan Müdafiə Nazirliyinin saytında belə bir məlumat yer alıb ki, guya, müharibədə Yenakavan kəndindən Nikol Paşinyan ad-soyadlı iki adam iştirak edib. Qəzet yazır ki, bu yalandır və baş nazirlə eyni adı daşıyan babası 1943-cü ildə Njdenin legionunda Almaniya cəbhəsində vuruşub.

Müdafiə Nazirliyinin təkzib məlumatı sosial şəbəkə istifadəçilərini də qane etməyib. Nikol Paşinyanın babasının nasist Almaniyasının tərəfdarı olduğu və səlahiyyətləri barədə arxiv məlumatlarının saxtalaşdırılması haqda şərhlər baş nazirin sosial şəbəkədə paylaşımının altında davam edir. Eyni zamanda erməni müxalifəti hökumət başçısını babası haqqında yalanlar yaymaqda ittiham edir. Müxalif erməni ekspertlərinin fikrincə, açıq ortaya çıxan fakt N.Paşinyanın nasist cinayətkarlarının, ilk növbədə, indiki Ermənistanın siyasi elitasının banisi elan edilmiş Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsindəki prinsipial mövqeyini izah edir.

### İlham Əliyev Ermənistan hakimiyyətini faşistləri qəhrəmanlaşdırmaqda ittiham etmişdi

Bu fonda təbii olaraq erməni faşizminin ciddi təhdid mənbəyi olaraq qaldığına dair Azərbaycan tərəfinin etdiyi gedişlərə dəstək verənlərin sayı artır. Bu durumda Azərbaycan qeyd edilən təhdidin hələ də tam aradan qalxmadığını hər fürsətdə dünya ictimaiyyətinə çatdırmaqda davam edir. Qeyd edilən səpkidə, xüsusən Prezident İlham Əliyev tərəfindən atılan addımlar, görülən işlər daha çox diqqəti cəlb edir.

Yeri gəlmişkən, qeyd edək ki, dövlət başçısı TASS agentliyi direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində bu məsələyə yenidən toxunmuşdu. Prezident İlham Əliyev bəzi ölkələrdə İkinci Dünya müharibəsi abidələrinə münasibətdə vandalizm aktının hörmətsizlik və iyrənclik hissi yaratdığını deyib. Keçmiş SSRİ məkanında, xüsusilə belə şeylərin görünməsinin xoş olmadığını bildirib. Bundan əlavə, Prezident müsahibə zamanı yenidən Ermənistanda faşist Qaregin Ter-Arutyunyana abidə ucaldılması məsələsinə toxunub: "Belə insana Ermənistanda altı metrlik abidə ucaldılır, açılışında bu ölkənin prezidenti, keçmiş prezidenti iştirak edir. Bu məsələni qaldırmaqla mən MDB-dəki həmkarlarımın diqqətini ona cəlb etmək istəyirdim ki, biz gərək özümüzdə, öz təşkilatımızda bütün "və"lərə nöqtə qoyaq. Biz burada politkorrektəlik, selektivlik, kiminsə xətrinə dəyməmək prinsiplərini rəhbər tutmamalıyıq. Biz gərək həqiqəti deyək, əks təqdirdə bu təşkilat formatında diskussiya mənasını itirəcək. Mən güman edirdim ki, özünü demokrat kimi təqdim edən Ermənistanın yeni rəhbərliyi mənim təşəbbüsümü dəstəkləyəcək. Təəssüf ki, mən başqa şey gördüm. Erməni nümayəndə heyətinin rəhbəri, Baş nazir bu canini müdafiə edərək, Ter-Arutyunyanın düşərgədə olması faktının əhəmiyyət daşımadığını, Soljenitsının da düşərgədə olduğunu dedi. Bilirsiniz, mən protokolu pozub yenidən söz istədim və dedim ki, Soljenitsını faşistlə müqayisə etmək həyasızlığın zirvəsidir. Bütün bunlar böyük təəccüb və çaşqınlıq yaradır, həmçinin Ermənistanda hakimiyyətin dəyişəcəyi, amma rejimin əvvəlki kimi qalacağı fikrinə gətirib çıxarır".

Burada bir daha qeyd edək ki, Ermənistanda faşist Njdenin qəhrəman obrazının yaradılması ilə bağlı məsələni İlham Əliyev Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında qaldırıb. Dövlət başçısı faşistlərin qəhrəman kimi qələmə verilməsini qətiyyətlə pisləyib, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer olmadığını vurğulayıb.

Prezident İlham Əliyev 2019-cu ildə Rusiya Xarici İşlər Nazirliyinin təqdim etdiyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzədən sitat gətirərək deyib ki, Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb.

Ermənistan paytaxtının mərkəzində faşist cəlladı və satqın Qaregin Njdeyə heykəl qoyulmasını kəskin şəkildə pisləyən və bunu faşizmin təbliği kimi dəyərləndirən Azərbaycan Prezidentinin bu çıxışı geniş əks-səda doğurdu. Hətta iş o yerə gəlib çıxdı ki, Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov nasist havadarı Njdenin xatirə lövhəsinin üstünü qara rənglə boyadı. Daha sonra Armavir şəhərində erməni Qaregin Njdenin xatirə lövhəsi söküldü.

Burada onu da xatırladaq ki, Qaregin Njde Böyük Vətən müharibəsi illərində nasional sosialistlərin erməni legionunun yaradıcısı olub. O, Şimali Qafqazda Sovet Ordusuna qarşı vuruşub. 1948-ci ildə nasist Almaniyasına havadarlıqda təqsirləndirilərək 25 il müddətinə azadlıqdan məhrum edilib və Vladimir həbsxanasında ölüb.

İndi İkinci Dünya müharibəsində qazanılan qələbənin növbəti ildönümü fonunda Nikol Paşinyanın babası ilə bağlı üzə çıxanlar Ermənistanın faşizm sevgisini izah edən daha bir mühüm faktor sayılır. Təsadüfi deyil ki, Paşinyan hakimiyyəti faşizmi təbliğ edənlərə qucaq açmaqda davam edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azərkontrakt" Səhmdar Cəmiyyəti əməkdaşlarının iştirakı ilə qanvermə aksiyası keçirilib







"Azərkontrakt" Səhmdar Cəmiyyəti Heydər Əliyev Fondunun təşəbbüsünə qoşularaq, hər ay qan köçürülməsinə ehtiyacı olan uşaqlara dəstək vermək, onlar üçün tədarük edilən qan ehtiyatını artırmaq məqsədilə qanvermə aksiyası keçirib.

Cəmiyyətin sədr müavini Güləddin Dadaşov bildirib: "Azərbaycanda talassemiya və hemofiliyalı xəstələr dövlət qayğısı ilə yüksək səviyyədə əhatə olunub. Bu həssas sahə ilə bağlı görülən davamlı tədbirlər əhalinin daha sağlam gələcəyi üçün hesablanıb. Koronavirus pandemiyasının dünyada sürətlə yayıldığı bir vaxtda bu infeksiyaya daha çox immuniteti zəif və qanı normadan aşağı olan insanların daha tez yoluxma ehtimalını, onların risk qrupuna aid olduqlarını nəzərə alaraq, diqqətin bu sosial məsələyə yönləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Qan çatışmazlığı həyatları qandan asılı olan hematoloji xəstələrə mənfi təsir göstərə bilər. Bu səbəbdən də Heydər Əliyev Fondunun çağırışına cavab olaraq mayın 12-də kollektivimiz tam heyətlə irsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə Milli Hemotologiya və Transfuziologiya Mərkəzində könüllü olaraq qan veririk".

Cəmiyyətin kollektivi bu humanist aksiyada həvəslə və könüllü şəkildə iştirak ediblər. Həkim-hematoloqlar tərəfindən aksiyada iştirak edən hər bir donorun sağlamlığı öncədən müəyyən olunub, hərtərəfli tibbi müayinədən sonra onlardan qan götürülüb. Qanvermə zamanı donorların təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirlər həyata keçirilib.

***"Azərbaycan"***

# Pakistanda talassemiya və hemofiliyadan əziyyət çəkən xəstələr üçün Heydər Əliyev Fondunun dəstəyi ilə növbəti xeyriyyə aksiyası təşkil edilib

Pakistanda talassemiya və hemofiliyadan əziyyət çəkən xəstələr üçün Heydər Əliyev Fondunun dəstəyi ilə növbəti xeyriyyə aksiyası keçirilib. AZƏRTAC xəbər verir ki, aksiya çərçivəsində İslamabad şəhərində yerləşən Sundas Talassemiya Mərkəzini ziyarət edən Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə mərkəzin tibb heyəti, həmçinin pasiyentlər və onların ailə üzvləri ilə görüşüb.



Mərkəzin baş administratoru, ehtiyatda olan hərbi hava qüvvələri vitse-marşalı Aftab Hüseyn mərkəz və orada müalicə alan pasiyentlər haqqında məlumat verib. Baş administrator 20 ildən çoxdur ki, fəaliyyət göstərən Sundas Talassemiya Mərkəzində hazırda Pakistanın müxtəlif bölgələrindən olan, talassemiyadan əziyyət çəkən 350-dən çox və hemofiliyadan əziyyət çəkən 60-dan çox uşağın pulsuz müalicəsinin aparıldığını, həmçinin qan köçürmələri həyata keçirildiyini bildirib. Bu sahədə Pakistanda ilkə imza atan, Pakistan Prezidentinin və birinci xanımının da ziyarət etdiyi mərkəzin, eyni zamanda, xəstələrin ailələrinə də mümkün qədər maddi və logistik dəstək göstərdiyini diqqətə çatdırıb.

Səfir Əli Əlizadə Heydər Əliyev Fondunun talassemiya xəstələri üçün ölkəmizdə və xaricdə ciddi işlər gördüyünü, Talassemiya Mərkəzinə təqdim ediləcək tibbi ləvazimatların, ərzaq paketlərinin və hədiyyələrin də məhz fondun dəstəyi ilə təmin edildiyini bildirib.

Heydər Əliyev Fondunun Pakistandakı fəaliyyətinin Azərbaycanın Birinci vitse-prezidenti, fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2005-ci ildə Kəşmirin Müzəffərabad şəhərində qızlar üçün yeni məktəbin inşası ilə başladığını bildirən səfir fondun sosial və humanitar layihələrinin Pakistanın bütün əyalətlərində davamlı həyata keçirildiyini qeyd edib. Fondun İslamabadda yerləşən Talassemiya Mərkəzinin təsis edilməsi, təcili yardım avtomobillərinin, minlərlə qan kisəsinin Pakistanın müxtəlif xeyriyyə təşkilatlarına təqdim olunması ilə yanaşı, hər il Ramazan ayında kimsəsiz və qüsurlu uşaqları da unutmadığını, onlar üçün iftar yeməkləri verdiyini, hədiyyələr təqdim etdiyini vurğulayıb. Ötən il Pakistan Prezidentinin və birinci xanımının da Prezident Sarayında Heydər Əliyev Fondunun dəstəyi ilə kimsəsiz və qüsurlu uşaqlar üçün verilmiş iftar yeməyinə qoşulduqlarına görə Talassemiya Mərkəzinin pasiyentlərinə təşəkkür edən səfir pandemiya ilə əlaqədar iftar yeməklərinin verilməsinin bu il təəssüf ki, mümkün olmadığını, lakin fondun digər xeyriyyə aksiyalarının davam edəcəyini bildirib. Ə.Əlizadə fondun Pakistanda həyata keçirdiyi bütün sosial və humanitar layihələrin Pakistanla Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərini daha da gücləndirməsinə və dərinləşdirməsinə xidmət etdiyini bildirib. Sonda fondun dəstəyi ilə alınmış qan kisələri və tibbi maskalar, eləcə də Talassemiya Mərkəzinin pasiyentləri üçün hazırlanmış ərzaq paketləri və uşaq oyuncaqları təqdim edilib.

Mərkəzin baş administratoru Aftab Hüseyn Heydər Əliyev Fondunun Pakistanda həyata keçirdiyi sosial və humanitar layihələrin davamlı xarakter aldığını vurğulayıb, Talassemiya Mərkəzinə təqdim edilən qan kisələri, tibbi maskalar, həmçinin ərzaq paketləri və hədiyyələrə görə fonda və onun rəhbərliyinə təşəkkürlərini çatdırıb.

# Beynəlxalq aləm

## Türkiyə Albaniya və Şimali Makedoniyaya tibbi yardım göstərdi

Türkiyə yeni tip koronavirus ilə mübarizə aparmaq üçün Albaniya və Şimali Makedoniyaya tibbi yardım yükü göndərmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Türkiyə Şimali Makedoniyaya 75 min cərrahi maska, 10 min əlcək, 10 min qoruyucu kombinezon, 2 min qoruyucu eynək, 2 min N 149 maskası, Albaniyaya isə 75 min cərrahi maska, 4 min əlcək, 2 min qoruyucu kombinezon və 2 min qoruyucu eynək göndərmişdir.

Pandemiya zamanı Türkiyə 60-dan çox ölkəyə, o cümlədən ABŞ, Cənubi Afrika Respublikası, Fələstin, İtaliya, İspaniya, Monteneqro, Serbiya, Bosniya və Herseqovina, Kosovo, Böyük Britaniya, Somali və Tunisə tibbi yardım göstərmişdir. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu məlumat vermişdir ki, artıq 128 ölkə kömək üçün Ankaraya müraciət etmişdir.

## ÜST COVID-19-la mübarizədə uğurları alqışlayır



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirusun yayılması sürətinin aşağı düşməsini alqışlayır. Müvafiq bəyanatla təşkilatın Baş direktoru Tedros Adhanom Gebreyesus çıxış etmişdir.

Gebreyesusun dediyinə görə, yaxşı xəbər ondan ibarətdir ki, virusun yayılmasının yavaşıdılmasında və nəticə etibarilə insan həyatlarının xilas edilməsində əhəmiyyətli uğur əldə olunmuşdur. Bununla yanaşı, o, ciddi sosial-iqtisadi məsrəflər hesabına əldə edilmiş uğuru qoruyub saxlamaq üçün ayıq olmağa çağırmışdır.

ÜST-ün Baş direktorunun fikrincə, məhdudiyyətlər yavaş-yavaş, davamlı qaldırılmalıdır ki, iqtisadiyyatın stimullaşdırılması təmin olunsun, eyni zamanda virusa da diqqət yetirilməlidir ki, xəstəliyə yoluxma hallarının təkrar artacağı təqdirdə onunla mübarizə tədbirlərini sürətlə həyata keçirmək mümkün olsun.

## Ukrayna Aİ ilə assosiasiya sazişinə yenidən baxmaq istəyir

Ukrayna ilə Avropa İttifaqı (Aİ) arasında assosiasiya sazişinə yenidən baxmaq lazımdır. Bu fikri Ukrayna Baş Nazirinin müavini Vadim Pristayko ifadə etmişdir.

Yüksək vəzifəli məmurun iddiaları Ukrayna mallarının Aİ-yə rüsumsuz ixracı üçün kvotalara aiddir. Onun dediyinə görə, ixracatın həcmi artıq istehsalçılara sərf etmir və bu gün elə bir mərhələ gəlib çatmışdır ki, kvotalara yenidən baxmaq lazımdır.

Pristayko qeyd etmişdir ki, müəyyən olunmuş kvotaların əksəriyyəti artıq bizə sərf etmir, biz tarifsiz ticarət haqqında saziş çərçivəsində Aİ ilə ilk təmaslar mərhələsini keçmişik. Ümid edirəm ki, kvotaları yenidən nəzərdən keçirəcəyik.

Aİ və Ukrayna assosiasiya sazişini altı il əvvəl imzalamışlar. Saziş çərçivəsində Ukraynanın Qərbə ixracatını genişləndirməyə imkan verən sərbəst ticarət zonası yaradılmışdır. Bu illər ərzində Ukraynanın Aİ ölkələri ilə ticarəti xeyli artmış, amma əvvəllər əsas ticarət tərəfdaşı olan Rusiya ilə azalmışdır.

## Tramp bir ayda rekord məbləğdə ianə topladı



ABŞ Prezidenti Donald Tramp dövlət başçısının cari ilin noyabrında keçiriləcək seçkilərində yenidən seçilmək üçün ötən ay 61,7 milyon dollar məbləğində ianə toplamışdır. Bu barədə Trampın seçki qərargahı məlumat vermişdir.

Beləliklə, Trampın seçki kampaniyası üçün toplanmış ianələrin ümumi məbləği 742 milyon dollara çatmışdır. Bu məbləğin 255 milyon dollardan çoxu xərclənməmişdir.

Demokratlar Partiyasından namizəd göstərilməyə çalışan ABŞ-ın keçmiş vitse-prezidenti Cozef Bayden aprel ayında seçki kampaniyası üçün 60,5 milyon dollar toplamışdır. Mart ayında bu göstərici təxminən 79 milyon dollar olmuşdur.





# "T-FİNANCE LTD" MMC yeni tikiş müəssisəsi açıb

**"T-FİNANCE LTD" MMC may ayının 10-da yeni tikiş müəssisəsinin açılışını edib. Yeni müəssisə ən keyfiyyətli texnoloji maşın və avadanlıqlarla təchiz edilib. Müəssisə pandemiya dövründə əsasən gigiyenik yataq dəstləri, tibbi geyimlər və bu yönümlü xüsusi mallar istehsal edəcək.**







Açılışın rəmzi olan qırmızı lent şirkətin icraçı direktoru İlahə İlyasova və aktrisa Xuraman Əlizadə tərəfindən kəsilib. Tədbir iştirakçılarını salamlayan Səbuhi Bayramovun giriş nitqindən sonra Ümummilli Lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə müəssisənin icraçı direktoru İlahə İlyasova çıxış edərək bildirib: "Müəssisəmizin 10 May Ümummilli Lider Heydər Əliyevin doğum günündə açılması təsadüfi deyil. Bu fikir təkcə mənim deyil, həm də kollektivin arzusu idi.

2013-cü ildə fəaliyyətə başlamış "T-FİNANCE LTD" MMC neçə illərdir ökəmizdə müxtəlif növ qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrdəndir. Məhsullarımızın keyfiyyəti ilə cəlb etdiyimiz müştərilərimizin etibarı bizim üçün hər zaman prioritet olub. Elə bu səbəbdən də şirkətimizin kollektivi dünyanın düçar olduğu bu ağır pandemiya dövründə öz ənənəsinə sadiq qaldı. Belə ki, bir müddət əvvəl pandemiya təhlükəsinin ciddiliyini nəzərə alan ölkə başçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa ünvanladıqları "Evdə qal" çağırışına bu ağır dövrə biz də öz töhfəmizi verməyə çalışdıq. Əlbəttə ki, ölkə rəhbərinin xalqa ünvanladığı bu çağırış pandemiya təhlükəsinin qarşısını qısa zamanda almaq məqsədilə bərabər, həm də sosial yardımlaşmaya, birliyə, bərabərliyə dəvət idi. Dünyanın müxtəlif ölkələrində yaşayan həmyerlilərimizdən tutmuş ölkəmizdə fəaliyyət göstərən ən xırda müəssisələrə, sadə vətəndaşlara qədər hər bir şəxs səfərbər olublar. Bu həm də xalqın İlham Əliyevin ətrafında sıx birliyinin bir təzahürü və təsdiqi idi. Bəli, o şirkətlərin sırasında "T-FİNANCE LTD" MMC-nin imzası da var. Biz qısa müddət ərzində əlliyə yaxın işçi vakansiyası elan edərək, tikiş müəssisəsi açdıq. Qeyd edim ki, müəssisə ən keyfiyyətli texnoloji maşın və avadanlıqlarla təchiz edilib. Peşəkar dərzilər cəlb etmişik. Hazırda müəssisədə dövrün tələblərinə uyğun olaraq, gigiyenik yataq dəstləri və bu yönümlü mallar istehsal ediləcəkdir.

İstehsal etdiyimiz gigiyenik yataq dəstləri və tibbi geyimlər ilk növbədə körpələr evinə, qocalar evinə və müəyyən klinikalara pulsuz paylanacaqdır.

Əsas hədəfimiz təkcə paytaxtımızda deyil, eləcə də, bölgələrimizdə müəssisəmizin yeni istehsal mərkəzlərini açmaq və çoxlu sayda vətəndaşımızı işlə təmin etməkdir. Onu da vurğulamaq istərdim ki, bölgələrdə açılacaq filiallarımızdan ilklərdən biri Cocuq Mərcanlıda olması nəzərdə tutulub".

İcraçı direktor çıxışında həmçinin gələcək planlarından söz açıb və görüləcək işlərlə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib. İlahə İlyasova çıxışının sonunda ölkədə sahibkarlar üçün yaradılan şəraitə görə ölkə rəhbərliyinə xüsusi təşəkkürünü bildirib.

Açılışda MMC-nin idarə heyətinin üzvləri, bank nümayəndələri Fuad Abdulov, Rauf Quliyev, ictimaiyyət nümayəndələri Elnur Həmzəyev, Tamerlan İsayev də fikir və arzularını ifadə etmişlər.

Xadırladaq ki, "T-FİNANCE LTD" MMC yeni müəssisənin açılış mərasimi karantin dövrünün şərtlərinə tam uyğun şəkildə təşkil edilmişdi.

***Hüseyn KƏRİMOV,***
***"Azərbaycan"***

# "Azercell" "Yeni Hər Yerə" tarifini təqdim edir

Hər zaman abunəçilərini innovativ xidmətlər və yeni servislər ilə sevindirən "Azercell Telekom" MMC tarif portfelini növbəti dəfə genişləndirir. Bu dəfə lider mobil operator əzizlərinizlə ünsiyyəti daha da əlçatan etməyi hədəfləyərək, mobil bazara "Yeni Hər Yerə" tarifini gətirir. Yeni tarif çərçivəsində "Azercell"in Fakturalı xətt istifadəçilərinə ölkədaxili istənilən istiqamətdə vahid qiymətə danışmaq fürsətilə yanaşı, həmçinin hər ay 500 MB internet də verilir. Beləliklə, may ayının 5-dən etibarən Fakturalı xətt abunəçiləri ayda cəmi 5 AZN ödəməklə 500 MB həcmində internet və ölkə daxilində bütün istiqamətlərə zəngin bir dəqiqəsinə 0.05 AZN ödəmək imkanı qazanır. Bu təklifdən yararlanmaq üçün "Yeni açar" sözünü 650 qısa nömrəsinə göndərmək və ya telefonun ekranında *750*5#yes kombinasiyasını yığmaq kifayətdir. Həmçinin "Yeni Hər Yerə" tarifini "Azercell"in "Kabinetim" mobil tətbiqi vasitəsilə də aktivləşdirmək mümkündür.

## "Bank Respublika" ASC səhmdarlarının nəzərinə

*"Bank Respublika" ASC səhmdarlarının növbəti Ümumi Yığıncağı 29 iyun 2020-ci il saat 11:00-da, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş ofisində keçiriləcək.*

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. 2019-cu il üçün illik maliyyə hesabatı haqqında.
4. 2019-cu il üçün kənar audit yoxlamasının nəticələri haqqında.
5. 2019-cu ilin nəticələrinə görə mənfəətin bölüşdürülməsi haqqında.

***İdarə Heyəti***

## B İ L D İ R İ Ş

Dövlət Radiotezliklər İdarəsi tərəfindən 29.03.2020-ci il tarixdə "Azərbaycan" qəzeti və etender.gov.az saytında verilmiş elana əsasən, 08 may 2020-ci il saat 15:00-da radiotezliklər sahəsində işçi qüvvəsi bazasının yaradılması, təlimlərin keçirilməsi, regionlarda monitorinqlərin aparılmasında iştirak və beynəlxalq təcrübənin öyrənilməsi üzrə tədris materialları ilə təchizat işlərinin görülməsi xidmətlərinin satın alınması məqsədilə keçirilməsi nəzərdə tutulan açıq tender müsabiqəsi yetərli sayda tender təklifinin olmaması səbəbindən ləğv edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOTlar üzrə açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

**LOT 1. RSA lisenziyalarının satın alınması və uzadılması;**
**LOT 2. IT sistemləri üçün yeni sertifikatların alınması, mövcud lisenziyaların və vendor texniki xidmətlərin müddətinin uzadılmasının satın alınması.**

İddiaçılara təklif edilir ki, https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

eTenderdə iştirak etmək istəyən iddiaçılar RSA lisenziyalarının satın alınması və uzadılması üzrə 100 AZN, IT sistemləri üçün yeni sertifikatların alınması, mövcud lisenziyaların və vendor texniki xidmətlərin müddətinin uzadılmasının satın alınması üzrə isə 200 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən "ASAN ödəniş" sisteminə keçid edərək ARDNF-nin qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T bik: NABZAZ 2C**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 09 iyun 2020-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 18 iyun 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 19 iyun 2020-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası akademiyanın ərazisində buraxılış məntəqəsi və baş plan həllinə görə abadlaşdırma işlərinin satın alınması məqsədilə 20 aprel 2020-ci il tarixdə keçirdiyi elektron tender prosedurunda "RETRO HOLDİNG" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 21 may 2020-ci il saat 14:30-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC-nin "Yaşıl", "Qırmızı" və "Bənövşəyi" xəttlərinin stansiya və yol mənzillərindəki havalandırma şaxtalarında quraşdırılacaq səsboğucuların və onların şef-montaj işlərinin satın alınması üzrə açıq tenderin vaxtı 01 iyun 2020-ci il saat 14:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 may 2020-ci il saat 14:30-a qədər, tender təklifi və bank təminatını isə 29 may 2020-cu il saat 14:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 15 aprel 2020-ci il tarixdə keçirilmiş "Bakı Metropoliteni" QSC üçün işıqlandırma sistemi üçün avadanlıq və malların açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "ERG BAKU" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 08.05.2020-ci il tarixdə ƏDV daxil 250 449,10 (iki yüz əlli min dörd yüz qırx doqquz manat 10 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Xalq qəzeti"nin 18 aprel 2020-ci il tarixli nömrələsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına transformatorların təmiri işlərinin elektron qaydada satın alması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 27 may 2020-ci il saat 18.00-a, təkliflərin açılışı isə 29 may 2020-ci il saat 18.00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs -Hikmət Qasımova, 431 47 67 / 2249, hikmat.qasimov@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Təhsil Nazirliyinin aparat rəhbərinin müavini Fərzəli Qədirova qardaşı

**QƏDİR ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mahmud Məmmədov sabiq rabitə naziri

**NADİR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ələkbər, Gülnarə Tağıyevlər və Teymur Muradov

**YAVUZ MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi və kollektivi sabiq rabitə naziri

**NADİR ALI OĞLU ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi iş yoldaşları

**MEHMAN TALIBOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumi iqtisad fakültəsinin 1984-cü il buraxılışlı 932-ci qrupunun məzunları qrup yoldaşları Yavər Çələbiyevə əzizi

**ELDƏNİZ ZÖHRAB OĞLU ƏFƏNDİZADƏNİN**

Ağdaş rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi aparatin Tikinti məsələləri şöbəsinin müdiri Rəşid Ağayevə qardaşı

**AĞACAN AĞAQULUOĞLU AĞAYEVİN**

Vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təqaüddə olan polis polkovniki Xanlar Cəfərov ailəsi ilə birlikdə sinif yoldaşı, sabiq rabitə naziri

**NADİR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi Səyyad Qafariyə atası

**AĞAƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7553
Sifariş 1233
Qiyməti 40 qəpik